

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 dekabr 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-da akademik Həsən Əliyevin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş IV Respublika elmi konfransı keçirilib** ➔Səh.6

**"Türkiyə-Azərbaycan birliyinin zəfəri: Davamlı inkişaf və qadın məsələləri" adlı konfrans keçirilib** ➔Səh.8

**İsrailin Kaye Akademik Kollecinin Tədqiqat Komitəsinin rəhbəri BDU-da mühazirə deyib** ➔Səh.9

**BDU BMT-nin Sülh Universiteti ilə əməkdaşlığa başlayır** ➔Səh.10

**Fiziki məhdudiyyətli tələbə və müəllimlərin uğur hekayələri** ➔Səh.16

**BDU "ASAN xidmət"lə elmi əməkdaşlıq edəcək** ➔Səh.22

**"Həyat fəaliyyətinin təhlükəsizliyi tələbə gənclərin baxış prizmasında" mövzusunda konfrans** ➔Səh.23



**BDU kollektivi Fəxri xiyabanı ziyarət edib** ➔Səh.3



**Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans** ➔Səh.5



**BDU Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb** ➔Səh.8



**Braziliya səfiri BDU-da** ➔Səh.8



**XXI əsrdə geoməkan məlumatları və kosmik informasiya infrastrukturuna dair elmi-praktik konfrans** ➔Səh.14



## BDU-da Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib

***Dekabrın 9-də Bakı Dövlət Universitetində Ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyət və görkəmli dövlət xadimi Azərbaycana həm sovet dönəmində, həm də dövlət müstəqilliyinin bərpa olduğu dövrdə rəhbərlik edib. Bu mərhələlərin hər biri ölkəmizin və xalqımızın müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişdiyi dövr olub. Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə, ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaradıb. 1993-2003-cü illəri əhatə edən hakimiyyət dövrü də Ulu öndərin dünyanın ən nadir şəxsiyyətlərindən, görkəmli siyasi və iqtisadi xadimlərindən biri olduğunu növbəti dəfə nümayiş etdirib. Heydər Əliyevin siyasi müdrikliyi, iradəsi və qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub. Balanslaşdırılmış və milli maraqlara əsaslanan dövlət siyasəti, ictimai-siyasi sabitliyin dayanıqlılığı, iqtisadi qüdrət və güclü sənaye potensialı, elmi-texniki tərəqqi, təhsil və səhiyyənin inkişafı, müasir ordu quruculuğu, xalqın rifahının və həyat tərzinin durmadan yaxşılaşdırılması, milli irsin qorunması və milli-mənəvi dəyərlərimizin möhkəmləndirilməsi Ümummilli liderin başlıca strateji hədəfləri idi.

Rektor qeyd edib ki, 2003-cü ildən bəri müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev cismən yanımızda olmasa da, onun ideyaları və böyük dühası əbədiyaşardır: "Ulu öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev həm ata vəsiyyətini yerinə yetirən övlad, həm də onun memarı olduğu dövlətin rəhbəri, qurduğu qüdrətli ordunun Ali Baş Komandanı kimi Heydər Əliyev ucalığının parlaq təcəssümüdür. Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli lider Heydər Əliyevi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda belə hər bir azərbaycanlı yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə yad edir. Məhz Ulu öndərin müəyyən etdiyi xətti, dahi şəxsiyyətin uzaqgörənliyini Ali Baş Komandan İlham Əliyev öz prezidentlik fəaliyyəti ilə təsdiqlədi. 44 gün davam edən Vətən müharibəsində, haqq savaşımızda Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Azərbaycan Ordusu ən yeni tarixi yazdı. Ali Baş Komandanımızın ətrafında xalqımız yumruq kimi birləşdi, ərazi bütövlüyümüzün bərpası reallaşdırıldı, haqq qələbə çaldı. Bu parlaq qələbəmiz məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməlinin qoyulması, milli ruh, azərbaycançılıq məfkurəsinin yüksəlməyə başlaması, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar sayəsində qazanıldı".

*(Ardı 4-cü səhifədə)*

## BDU könüllülərinin qərargahının açılışı

➔Səh.12



# Ümumxalq ehtiramının əbədi ünvanı

*Ulu öndər Heydər Əliyev xalqımızın tarixi taleyinə həlledici təsir göstərmiş, dövlətimizin təməl sütunlarını və inkişaf prioritetlərini müəyyənləşdirmiş, dərin zəkası və fenomenal idarəçilik bacarıqları ilə öz dövlətinin və xalqının timsalına çevrilmiş nadir şəxsiyyətdir.*

***Dünya siyasətinin fenomeni, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı xalqımızın şərəfli tarixinə tarixi günlərin, yeni reallıqların və inkişaf qanunauyğunluqlarının yaradıcısı kimi parlaq hərflərlə əbədi həkk olunub. Zaman keçdikcə Ulu öndərin dövlətimizin və xalqımızın taleyindəki xilaskarlıq missiyasının böyüklüyü, müdrik rəhbərimizin qəbul etdiyi tarixi qərarların müstəsna əhəmiyyəti bir daha aydınlaşır.***

Qədirbilən xalqımız Ümummilli liderimiz Heydər Əliyevin səyləri ilə hansı bəlalardan xilas olmağımıza, dərin böhrandan, xaosdan qurtularaq inkişafa və tərəqqiyə çatmağımıza hər zaman şahidlik edir. Ulu öndər Heydər Əliyev xalqımızın tarixi taleyinə həlledici təsir göstərmiş, dövlətimizin təməl sütunlarını və inkişaf prioritetlərini müəyyənləşdirmiş, dərin zəkası və fenomenal idarəçilik bacarıqları ilə öz dövlətinin və xalqının timsalına çevrilmiş nadir şəxsiyyətdir. Müasir Azərbaycan dövlətinin və dövlətçiliyinin banisi Heydər Əliyev nadir və tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyətdir.

Zaman keçdikcə, dahi rəhbərin zəngin irsi, ictimai-siyasi fəaliyyəti, tarixi anlarda verdiyi tarixi qərarların nəticələri tədqiqatçılar tərəfindən yenidən öyrənilir, hər dəfə bu zəngin irsin, misilsiz fəaliyyətin yeni aspektləri, məqamları ortaya çıxır. Bir daha əmin oluruq ki, Heydər Əliyev irsini öyrənmək, bu zəngin məktəbdən bəhrələnərək gələcək hədəflərimizi müəyyənləşdirmək həyatımızın başlıca amalı, hər birimizin fəaliyyətinin yol xəritəsidir.

Bütün bunların təməlində əlbəttə ki, Ulu öndərin xalqa bağlılığı, sevgisi, xalqının taleyini həyatının mənası hesab etməsi dayanır. Unudulmaz rəhbər çıxışlarının birində deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub". Bu missiya Heydər Əliyevin hələ xüsusi xidmət orqanlarında fəaliyyətə başladığı illərdən, sonra isə 1969-cu ildən respublikamıza rəhbərlik etdiyi dövrdən başlayaraq, müstəqil Azərbaycan dövlətçiliyinin təməllərinin qurulmasına və nəhayət müstəqil dövlətimizin tərəqqisinə və inkişafına qədər olan böyük bir yolu əhatə edir. Azərbaycan xalqı xoşbəxtdir ki, həmin tarixi yol bu gün ulu öndərimizin layiqli davamçısı, 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizin yenilməz sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir.

Böyük dövlət xadimi Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edərkən sovet siyasi sisteminin reallıqlarına baxmayaraq respublikamızın hərtərəfli inkişafına nail olmuş, məhz müdrik rəhbərin ardıcıl səyləri ilə Azərbaycan qısa zaman ərzində iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötmüşdü. Respublikada milli gəlir, sənaye, kənd təsərrüfatı məhsullarının həcmi dəfələrlə artmış, çoxlu sayda yeni sənaye müəssisəsi, yüz minlərlə yeni iş yerləri açılmışdı. Bütün bunların sayəsində respublika əhalisinin sosial rifahı yüksəlmiş, insanların gələcəyə olan inamı daha da artmışdı.

Həmin dövrdə respublikada elm və təhsilin inkişafı da prioritet istiqamət təşkil edirdi. Məhz bu illərdə Azərbaycanda müxtəlif elm sahələri üzrə minlərlə elmlər doktoru və elmlər namizədi hazırlandı. Ali məktəblərə qəbul planı ildən-ilə artırılır, eyni zamanda respublikadan kənarda nüfuzlu ali məktəblərə göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Ölkədə milli şüurun formalaşması, tarixi köklərimizə, milli adət-ənənələrimizə qayıdış prosesi sürətlənir, bütün təqib və təzyiqlərə baxmayaraq müstəqilliyimizə gedən yolun təməlləri qoyulurdu.

Ulu öndərimiz SSRİ rəhbərliyində təmsil olunduğu illərdə də Azərbaycanın hərtərəfli inkişafı üçün böyük səylər göstərirdi. Əlbəttə ki, bütün bunlar bədxahlarımızı narahat edir, onlar hər vəchlə ulu öndərimizə təzyiqlər göstərməyə, Azərbaycanın inkişafına mane olmağa çalışırdılar. 1980-ci illərin sonlarında Moskvada Heydər Əliyevə qarşı güclənən təqib və təzyiqlər nəticəsində, təəssüf ki, həmin bədxah qüvvələr öz çirkin məqsədlərinə, müvəqqəti olsa da, nail oldular. Bununla da Azərbaycan üçün ağır günlər başladı. Qanlı 20 Yanvar hadisəsi, artıq tarixdə qalmış Qarabağ münaqişəsinin başlanması və torpaqlarımızın erməni vandalları tərəfindən işğalı xalqımızda böyük məyusluq və ümidsizlk yaratdı.

Tez-tez dəyişən siyasi hakimiyyətlər, bacarıqsız idarəçilik nəticəsində yenidən müstəqilliyini bərpa etmiş ölkəmiz fəlakətlərə sürüklənirdi. Belə bir tarixi şəraitdə ölkəni ağır durumdan yalnız və yalnız xalqımızın ümid yeri kimi baxdığı Heydər Əliyev çıxara bilərdi. 1993-cü ilin 15 iyununda xalqın təkidli çağırışına səs verərək ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev gəlişi ilə bütün qaranlıqlara aydınlıq gətirdi.

Ümidsizlik girdabında boğulan xalqımızın taleyində inkişaf və tərəqqinin əbədi məşəlini yandırdı. Bu tarixi missiya Azərbaycanın yeni tarixinin şərəfli səhifələrinin yazılmasına və müstəqilliyimizin əbədiliyinə hərtərəfli zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan tarixinin dönüş nöqtəsi adlandırdığı Qurtuluş Günü əldə etdiyimiz və bundan sonra da əldə edəcəyimiz bütün uğurların təməli, möhkək daşı oldu.

1993-2003-cü illərdə Azərbaycana ikinci dəfə rəhbərlik edən ulu öndər Heydər Əliyev artıq dağılmaq ərəfəsində olan bir ölkəni inkişaf etmiş dövlətə çevirməklə bir daha bütün dünyaya bəşər tarixinin ən nadir şəxsiyyətlərindən, görkəmli siyasi xadimlərindən biri olduğunu nümayiş etdirdi. Xalqımızın xilaskar oğlu Heydər Əliyevin siyasi müdrikliyi, dəmir iradəsi və qətiyyəti, mükəmməl idarəçilik məharəti sayəsində Azərbaycan bütün çətinlikləri arxada qoydu, inkişaf və rifah yolunda inamla addımlamağa başladı.

Prezident Heydər Əliyevin siyasətinin başlıca hədəfi Azərbaycana və regiona sülh, sabitlik və davamlı inkişaf gətirmək idi. Məhz müdrik rəhbərin misilsiz səyləri, diplomat məharəti və əlbəttə ki, şəxsi nüfuzu hesabına ölkəmizin iqtisadi dirçəlişinə, sabitliyə, vətəndaş cəmiyyəti quruculuğuna, əmin-amanlığa və 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərimizə gedən yolun təməlləri qoyuldu.

Ulu öndərimizin Azərbaycan xalqının və dövlətimizin tərəqqisi naminə ən böyük xidməti isə heç şübhəsiz özündən sonra ölkəni məharətlə idarə edəcək siyasi varisini yetişdirməsidir. Ümummilli liderin ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət qazanılan uğurların davamlılığını təmin edərək ölkəmizin daha böyük qələbələr, nailiyyətlər əldə etməsinə gətirib çıxardı. Bu gün xalqımız çox xoşbəxtdir ki, Heydər Əliyevin banisi və qurucusu olduğu müasir Azərbaycan etibarlı əllərdədir. Prezident İlham Əliyev müqəddəs Ata vəsiyyətini şərəflə yerinə yetirən övlad, Qarabağı düşmən işğalından azad edən Müzəffər Ali Baş Komandan kimi bu gün Heydər Əliyev şəxsiyyətinin, dühasının, ucalığının parlaq təcəssümüdür.



2003-cü ildən Ümummilli lider Heydər Əliyevin ideyalarına söykənərək Azərbaycanı günbəgün qüdrətləndirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ulu öndərin ruhunu əbədi olaraq şad etdi. Tarixi Zəfərimizdən sonra əldə etdiyimiz diplomatik uğurlar, azad Qarabağımızda və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz quruculuq işləri Prezident Heydər Əliyevin başlatdığı müqəddəs yola sevgi və eyni zamanda sədaqətlə, uğurla davam edir.

Bu gün ərazi bütövlüyünü bərpa etmiş, azad edilmiş torpaqlarımızda üçrəngli bayrağını ucaltmış Azərbaycan dövləti, bu dövlətin vətəndaşı olmağın sonsuz xoşbəxtliyini yaşayan hər bir azərbaycanlı qürurlu və inamlıdır. Azərbaycan elminin və təhsilinin aparıcı qüvvəsi olan, Heydər Əliyevin "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinin çoxminli kollektivi, tələbələri də xalqımızın görkəmli oğlunun zəngin irsinin öyrənilməsi və təbliğində öz ardıcıl səylərini davam etdirir, həyat və fəaliyyəti ilə ölməzlik zirvəsinə yüksələn Heydər Əliyevin qurduğu və Prezident İlham Əliyevin daha da qüdrətləndirdiyi ölkədə yaşamağın sonsuz fərəh hissini yaşayır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi BDU kollektivinin də üzərinə böyük məsuliyyət qoyur. "Heydər Əliyev İli"nin BDU-da təntənəli şəkildə keçirilməsi üçün universitetdə Tədbirlər Planı hazırlanmışdır. Kollektivimizin hər bir üzvü, tələbələrimiz bu tarixi ilin, tarixi günlərin, tarixi anların bir hissəsi olmaq üçün əlindən gələni edəcəkdir. Əminəm ki, alimlərimiz Ulu öndərin zəngin irsini əhatə edən yeni-yeni əsərlər, kitablar, məqalələr yazacaq, bu zəngin irsin hərtərəfli öyrənilməsi və təbliği üçün daha böyük səylər göstərəcəkdir.

Vəfatının 19-cu ildönümündə hər birimiz xalqımızın xilaskarı, bütün uğurlarımızın və qələbələrimizin banisi Ümummilli liderimiz Heydər Əliyevi rəhmətlə, sevgiylə, ehtiramla və sonsuz minnətdarlıq hissləri ilə yad edirik. Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan millət atasına Allahdan rəhmət diləyir, müdrik rəhbərimizin banisi olduğu və bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək mərhələsini yaşayan qüdrətli Azərbaycanımıza daha böyük uğurlar, qələbələr, zəfərlər arzulayırıq.

***Elçin BABAYEV,***
*Bakı Dövlət Universitetinin rektoru*
*"Xalq qəzeti"*

*15.12.2022*

# Ümummilli lider Heydər Əliyevin anım günüdür

*"Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir". Ümummilli lider Heydər Əliyev*



***Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər ən taleyüklü məqamlarda öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, əbədiyyət qazanırlar. Ümummilli liderimiz Heydər Əliyev kimi!***

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, dünya siyasətinə adını yazdıran müdrik siyasi lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Bütün həyatını xalqına həsr edən Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Xalqını sonsuz məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə qürur duyan fenomenal şəxsiyyət Heydər Əliyev bütün zamanların ən böyük azərbaycanlısı kimi hər birimizin ürəyində özünə taxt qurub. Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Heydər Əliyevin yorulmaz, səmərəli fəaliyyəti sayəsində mümkün olub. Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan dahi şəxsiyyət bütün dünya azərbaycanlılarının fəxrinə çevrilib. Ulu öndər Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi ilə müasir Azərbaycanın dövlətçiliyinin siyasi, iqtisadi əsasları yaradılıb, müstəqil Azərbaycan dünyada öz layiqli yerini tutub. Onun siyasi, sosial-iqtisadi, elm-təhsil, ictimai və mədəni həyatın bütün sahələrində apardığı islahatlar, beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması Azərbaycanın müasir inkişafının təminatı olub.

Heydər Əliyevin şərəfli ömür yolu Vətəninə, xalqına bağlı hər bir azərbaycanlı üçün parlaq nümunədir. Ulu öndər çoxşaxəli fəaliyyəti, xalqına, millətinə, dövlətinə sonsuz sevgisi ilə, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomenal şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilib.

Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır.

1993-2003-cü illər Ulu öndər Heydər Əliyevin imzası ilə Azərbaycan tarixində inkişafın və tərəqqinin bünövrəsinin qoyulduğu dövr kimi tarixin yaddaşına qızıl hərflərlə yazılıb. 2003-cü ildən başlayaraq isə ölkəmiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi islahatlarla inkişafın yeni mərhələsinə qədəm qoyaraq regional güc mərkəzinə çevrilib, dünyada öz layiqli yerini tutub.

Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır - xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilib, 30 ildən bəri düşmən əsarətində olan Qarabağımız əbədi azadlığına qovuşub. Bu gün Azərbaycan bayrağı əzəli torpaqlarımızda, müqəddəs Şuşa şəhərində qürurla dalğalanır. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə onun ölməzliyini bir daha təsdiqləyib.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Hər bir Azərbaycan vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir. Ömrünü Azərbaycana fəda etmiş müdrik siyasətçi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı daim dərin hörmətlə xatırlanacaq, onun əziz və unudulmaz xatirəsi xalqımız tərəfindən əbədi olaraq ehtiramla yad ediləcək.

Azərbaycan xalqının Ümummilli lideri, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu Heydər Əliyevin xatirəsinə ən böyük abidə müstəqil, qüdrətli, yenilməz Azərbaycandır! Azərbaycanın və Ulu öndərimiz Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək!

# BDU kollektivi Fəxri xiyabanı ziyarət edib



***Dekabrın 12-də Bakı Dövlət Universitetinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabanı ziyarət edib.***

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad olunub, məzarı önünə tər çiçəklər düzülüb.

Daha sonra BDU-da Ulu öndərin büstü önünə gül dəstələri qoyulub.



## Tarix fakültəsində Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir

***Dekabrın 12-də Tarix fakültəsində Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb, sonra isə Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə çıxış edən Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı, müstəqilliyimizin qorunması və milli dövlətçiliyimizin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb. O bildirib ki, 1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqilliyin, suverenliyin qorunması, ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi mümkün olub. Bu uzaqgörən siyasət nəticəsində Azərbaycan inkişaf edən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətə çevrilib, yeni iqtisadi uğurlara imza atıb.

İbrahim Zeynalov Ümummilli liderin BDU-nun ən böyük məzunu olduğunu vurğulayıb. Qeyd edib ki, Ulu öndərin Universitetdə təhsil illəri, habelə sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin mühüm bir mərhələsini təşkil edir.

Daha sonra Milli Məclisin deputatı, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Nuru Məmmədov çıxışlarında diqqətə çatdırıblar ki, Ümummilli lider Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycanın inkişafına çalışıb, millətimiz, xalqımız üçün əlindən gələni əsirgəməyib. Onun Azərbaycanın inkişafı və tərəqqisi ilə bağlı ideyaları, fikirləri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Fakültənin II kurs tələbəsi Lalə Bağırova isə qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri dövlətçilik salnaməsində xüsusi irs yaradıb. Azərbaycan gəncləri bu dahi şəxsiyyətin həyat və fəaliyyətini dərindən öyrənməli, onun amallarının həyata keçirilməsi uğrunda çalışmalıdırlar.

Tədbirin sonunda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

# BDU-da Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib

*(əvvəli 1-ci səhifədə)*






Sonra Milli Məclisin üzvləri - akademik Nizami Cəfərov, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva, Əməkdar jurnalist, BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, Azərbaycan Kinomotoqrafçılar İttifaqının üzvü, Ulu öndər Heydər Əliyevin şəxsi fotoqrafı olmuş Rafiq Bağırov çıxışlarında dahi liderin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyətindən, həyata keçirdiyi layihələrdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən bəhs edib, xatirələrini bölüşüblər. Çıxışlarda natiqlər Azərbaycanın hərtərəfli tərəqqisi yolunda böyük tarixi xidmətlər göstərən, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasına əvəzsiz töhfələr verən Heydər Əliyevin Vətənə sədaqət, xalqa fədakarlıqla xidmət nümunələrindən söz açıblar. Qeyd olunub ki, bütün varlığı ilə Vətənə və xalqına bağlı olan Ümummilli lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə həsr edib.

# HEYDƏR ƏLİYEV VƏ GƏNCLİYİMİZ...

*Ulu öndərin "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, millətini sevən gənclikdir..." sözləri gənclərə böyük motivasiya verdi və onların həyat amalına çevrildi.*

***Heydər Əliyev dühası haqqında fikirlərimə elə onun özünün sözləri ilə başlamaq istərdim. O, demişdir: "Hər bir xalq özünün xöşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır". Bəli, bu həqiqətən də belədir. Biz bunun bariz nümunəsini bu gün aydın şəkildə görə bilirik. Heydər Əliyev ənənələrinin layiqli davamçıları olan bugünkü gənclik həyatımızın bütün sahələrində bunu öz əməlləri ilə sübut edirlər.***

Bu gün Azərbaycan xoşbəxt ölkələrdən biridir. Çünki, layiqli gənclər ordusu var. Hansı ki Azərbaycan Respublikasının çiçəklənməsi, daim öndə gedən ölkələr sırasında olması üçün əlindən gələni etməyə çalışan gənclər.

Heç kəsə sirr deyil ki, Azərbaycan xalqı bu günə gəlib çatmaq üçün uzun və keşməkeşli tarixi bir yol keçmişdir. Tarix səhnəsində bir çox dahi şəxsiyyətlər olmuşdur ki, onlar özlərindən sonra böyük bir iz qoymuşlar. Tariximizə nəzər salsaq görərik ki, zamanla elə şəxsiyyətlər olub ki, onların həm sağlığında, həm də dünyasını dəyişdikdən sonra həyatları, açdığı cığırlar öz milləti üçün yol xəritəsi olmuşdur. Məhəmməd Peyğəmbər, Əmir Teymur, Napoleon, Heydər Əliyev....

Bəli, bu şəxsiyyətlər nadir şəxsiyyətlərdir. Belə şəxsiyyətlər az-az yetişir. Bu məlum həqiqətdir ki, bəşəriyyətin bu və ya digər dərəcədə sivilizasiyası bu şəxslərdən asılı olur.

Belə nadir şəxsiyyərlərdən olan xalqımızın Ümummilli lideri Heydər Əliyevin bütün həyatı Azərbaycan xalqına bağlı idi. O, bütün ömrü boyu Azərbaycan xalqının xalqlar arasında imzası olması üçün çox mühüm addımlar atmışdır. Bu gün biz onun xidmətlərindən yalnız biri- Gənclər Siyasəti haqqında danışmaq istərdik. Böyük rus yazıçısı Dostoyevski deyirdi: "Əgər gənclərə yol verilməzsə, onların ideyalarına əhəmiyyət verilməzsə, onlar dinlənilməzsə bu zaman heç bir inkişafdan danışmaq olmaz". Bu, doğurdan da belədir. Ulu öndər bunu gözəl başa düşürdü. O, anlayırdı ki, Azərbaycanın tarix səhnəsində yaşaması, öz sözünü deməsi üçün mütləq Gənclər Siyasəti formalaşmalı idi. O zamankı dövrdə Ulu öndər heç nədən çəkinmədən bu siyasətin əsasını qoydu.

1969-cu ildə Ümummilli liderimiz Azərbaycan Respublikasının Mərkəzi Komitəsinin Birinci Katibi seçildi. Bu, onun Gənclər Siyasətinin formalaşmasında böyük rol oynamasına şərait yaratdı. Məlum oldu ki, II dünya müharibəsindən sonra Azərbaycan gənclərinin üzünə SSRİ-nin bütün ali məktəbləri bağlı idi. Ulu öndər Heydər Əliyevin ilk işi bu məsələni həll etmək oldu. Ulu öndər Heydər Əliyev neçə-neçə azərbaycanlı gəncin həmin ali məktəblərdə təhsil almasına şərait yaratdı.

Daha sonra onun növbəti işi Azərbaycanda hərbi məktəbi yaratmaq məsələsi oldu. Hər kəsə məlumdur ki, Sovet məkanında Azərbaycandan hərbi xidmətə gedən gəncləri hərbi sistemə yaxın buraxmır, onlar ancaq tikinti batalyonlarında, ən çirkin işlərdə xidmət edirdilər. Azərbaycanın gələcək inkişafı üçün mütləq hərbi biliklərə yiyələnmiş gənclərə böyük ehtiyac var idi. Onun bu uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. Cəsarətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusunda xidmət edən zabitlərin əksəriyyəti bu məktəbin yerirmələridir.

Məlum həqiqətdir ki, gənc nəslin milli dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahı, eyni zamanda ölkənin inkişafının rəhnidir. Öz islahatlarında ali ideyaları rəhbər tutan Ulu öndər bu istiqamətdə öz işini davam etdirərək, daha fundamental addımlar atmağa başladı. Xalqına olan sevgisini, millətinə, torpağına olan bağlılığını biz onun bütün əməllərində görə bilirik. Azərbaycan dilinin dövlət dili səviyyəsinə qalxması bu böyük şəxsiyyətin adı ilə bağlıdır. Onun xidmətləri sayəsində, Sovet dönəmində Azərbaycanda Azərbaycan dilinin dövlət dili kimi işlənməsi həyata keçirildi. Ulu öndər dilimizin qorunması və inkişaf etdirilməsi üçün sərəncamlar verdi. O dövrdə S.M.Kirov adına ADU-nun (indiki BDU) 50 illik yubileyində Azərbaycan dilində səlis çıxışı hər kəsi heyran etdi. Bu gün statistik bir məlumat kimi görünsə də, o zamankı dövr üçün bu böyük bir sensasiya idi. Ulu öndər onun bu hərəkətinə, Azərbaycan dilindəki çıxışına təəccüb edənlərə qətiyyətlə bildirdi ki, Ana dilini bilməmək, onu qiymətləndirməmək əslində xalq qarşısında böyük qəbahətdir. Onun gənclərə ən mühüm tövsiyələrindən biri də məhz, dilimizə hörmət və qayğı məsələsi olmuşdur.

Ulu öndər hakimiyyətə gəldikdə ilk işi gənclərlə görüş oldu. 1993-cü ildə Respublika Ali Sovetində ilk çıxışı zamanı gənclərə böyük inam bəslədiyini söyləmişdir. Onun "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, millətini sevən gənclikdir..." sözləri gənclərə böyük motivasiya verdi və onların həyat amalına çevrildi.

Ümummilli lider Heydər Əliyev hələ 1995-ci ildə Azərbaycan gəncliyinin ölkənin inkişafında fəal iştirakını, məsuliyyətini artırmaq, respublikanın bütün ərazilərində yaşayan gənclərin fəaliyyətinə, onların fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları ilə ünsiyyətini təşkil etmək, bütün Azərbaycan gənclərini bir arada toplamaq məqsədilə, Azərbaycan Gənclər Forumunun keçirilməsinin zəruriliyini gündəmə gətirdi. Beləliklə, 1996-cı il fevralın 2-də Gənclər Günü ilə bağlı sərəncam imzaladı. O vaxtdan etibarən hər il fevralın 2-də Gənclər Günü ilə bağlı forumlar keçirilir. 1997-ci il fevralın 2-də Gənclər Forumunun ildönümündə ulu öndər demişdir: "Bütün bunların o vaxtlar indiki müasir Azərbaycanımızın gələcəyi üçün edilmişdi. Bu işə biz hələ 70-ci illərdən başlamışıq və bu gün də davam etdiririk".

Qeyd etdiyimiz kimi, hər bir xalq özünün xoşbəxtliyini, dövlətin tarix səhnəsində mükəmməl inkişafını təmin edən ən avanqard qüvvə kimi gənclərimizdə görür. Hər bir ölkədə olduğu kimi, bizim ölkəmizdə də gənclər sosial, iqtisadi, mədəni, siyasi inkişafın aparıcı qüvvəsi olmaqla, dövlət işində aparılan islahatlarda fəal iştirak edirlər. Bu xoşbəxtliyi onlara Ulu öndərimiz bəxş etmişdi. Ulu öndər Heydər Əliyev bütün rəhbərliyi dövründə gənclərlə bağlı məsələləri həmişə öz islahatlarının əsas tərkib hissəsinə daxil etmişdir.

Ulu öndər Heydər Əliyevin apardığı Gənclər Siyasətinin əsas məramı gənc nəslin mənəvi və psixoloji cəhətdən sağlam, vətənpərvərlik, milli meyarlara uyğun şəkildə yetişdirilməsi, bilikli, savadlı, intelektual səviyyəli olması, bacarıqlı, dövlətin maraqlarını düşünən, qoruyan olması, hərtərəfli dünyagörüşünə malik formalaşması kimi məsələlər idi. Bunun üçün Heydər Əliyev daima gənclərə öz diqqət və qayğısını göstərmiş, eyni zamanda onlara öz tövsiyələrini verməyi də unutmurdu. O demişdir: "Hər bir gənc hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir".

Təsadüfi deyildir ki, Ulu öndərin diqqət və qayğısını görmüş həmin gənclər bu gün hazırda dövlət quruculuğu işində yaxından iştirak edirlər, böyük əksəriyyəti rəhbər vəzifələrdə çalışaraq, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında öz əvəzsiz xidmətlərini göstərirlər. Onlar həm ölkə daxilində, həm də ölkə xaricində müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi, iqtisadi arenalarda, yüksək tribunalarda öz sözlərini deyərək, dövlətimizin mənafeyini ləyaqətlə təmsil edirlər.

Biz, bu gün qürur hissi ilə deyə bilərik ki, təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuş Gənclər Siyasəti hazırkı dövrümüzdə də dövlətimizin maraqları çərçivəsindədir. Azərbaycanın parlaq gələcəyi etibarlı əllərdədir.

Ulu öndər Heydər Əliyevin Gənclər Siyasətinin 5 mühüm istiqaməti bu gün də düzgün şəkildə davam etdirilərək, Azərbaycan Respublikasının dövlət quruculuğu işi əzmlə yerinə yetirilir.

*1.Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək*

*2.Gənclərin elmi intellektual potensialının artması üçün ciddi təhsil və mədəni islahatlar keçirmək*

*3.Gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək*

*4.Gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq*

*5.Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.*

Hər zaman dövlətimizin diqqət və qayğısını öz üzərində hiss edən bugunkü gənclik, Ümummilli lider Heydər Əliyev ənənələrinə sadiq qalaraq, onun tövsiyələrini öz fəaliyyətlərində rəhbər tutaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətçiliyimizin inkişafına və dövlət quruculuğu işinin davam etdirilməsinə öz töhfələrini verirlər.

***Şəhla Hüseynova,***
*Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti*

# Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans

***Dekabrın 14-də BDU ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə əməkdaşlığı çərçivəsində Universitetin Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi dialoqu kontekstində" mövzusunda beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən rektor Elçin Babayev zəngin tarixə malik Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinin qeyd olunmasının Azərbaycan elmi və ölkənin ilk ali təhsil ocağı olan BDU üçün əlamətdar olduğunu bildirib. O qeyd edib ki, Şərqşünaslıq fakültəsi BDU-nun ən nüfuzlu fakültələrindəndir. Fakültənin özəyi BDU-nun yarandığı vaxtda, 1919-cu ildə qoyulub. O zaman Tarix-filologiya fakültəsinin tərkibində həm də Şərq şöbəsi yaradılıb. Üç il sonra Şərq şöbəsinin əsasında müstəqil Şərqşünaslıq fakültəsi fəaliyyətə başlayıb. 1920-ci ildə BDU-ya dəvət olunmuş tanınmış şərqşünas-ərəbşünas, islamşünas, tarixçi-alim, ərəb əsilli professor Panteleymon Juze fakültənin ilk dekanı olub. Onun yorulmaz əməyi, bu sahəyə sonsuz sevgisi sayəsində fakültə formalaşıb, dövrünün məşhur ziyalıları tədris prosesinə cəlb olunub.

Şərqşünaslıq fakültəsinin elmi bazasının formalaşmasında Sankt-Peterburq və Kazan universitetlərinin alimlərinin xüsusi xidmətləri olub. Bu sırada keçmiş SSRİ Elmlər Akademiyasının akademikləri - Nikolay Marr, İvan Meşşaninov, görkəmli şərqşünas alim Vasiliy Bartold, şərqşünas türkoloqlar Aleksandr Samoyloviç, Nikolay Aşmarin, Anastasi Romaşkeviç, Əziz Qubaydulinin adları çəkilə bilər: "Məhz bu görkəmli alimlərin yetirmələri Azərbaycan şərqşünaslığını inkişaf etdirib, dilçilikdə, ədəbiyyatşünaslıqda yeni səhifələr açmağa nail olublar. Şərqşünaslıq sahəsi özünün güclü kadr potensialı sayəsində 1922-ci ildən bu günə qədər zəngin tarixi yol qət edib. Adları artıq fakültə ilə yanaşı çəkilən görkəmli ədəbiyyatşünas-alim, akademik Həmid Araslı, türkoloq professor Bəkir Çobanzadə, tanınmış professorlar Mübariz Əlizadə, Ələsgər Məmmədov, Rəhim Sultanov, Həsən Mahmudov, Əhmədiməhəmməd Şəfai, Malik Mahmudov, Neyyerzaman Hatəmi, Aniyə Ələkbərova, Aslan Eyvazov, Mirzə Rəhimov, Mənzərə Məmmədova, Təhminə Rüstəmova, Xeyri Əl-Abbasi, İsmayıl Şəms, Yusif Ziya Şirvani, Aida İmanquliyeva, Zahid Hüseynov, Vasim Məmmədəliyev kimi alimlərin misilsiz xidmətləri xüsusilə qeyd olunmalıdır".

Rektor diqqətə çatdırıb ki, fakültə öz tarixi inkişafı dövründə həmişə yüksək tədris və elmi-tədqiqat göstəriciləri ilə seçilib. Fakültədə ərəb, türk, fars dilləri və ədəbiyyatları ilə yanaşı, ibri, urdu, Çin, yapon, Koreya dilləri də tədris olunmağa başlayıb. Fakültənin məzunları arasında peşəkar tərcüməçilər, səriştəli diplomatlar, nüfuzlu ictimai-siyasi xadimlərin sayı kifayət qədərdir.

Elçin Babayev qeyd edib ki, Şərq aləmi əsrlərlə dünya mədəniyyətini, elmini zənginləşdirib, elmi tədqiqatlara, yeni kəşf və ixtiralara təkan verib: "Şərqi öyrənmək, keçmişdən bizə miras qalan qədim əlyazmalarda gizlənən həqiqətləri açmaq, tarixin qapalı səhifələrinə işıq tutmaq məhz şərqşünasların öhdəsinə düşür. Bu gün Şərq-Qərb mədəniyyətlərinin dialoqu böyük əhəmiyyət kəsb edir. Qlobal proseslər, ictimai-siyasi dəyişikliklər mədəniyyətlər arasındakı əlaqələrin möhkəmlənməsi uğrunda fəaliyyətin artırılmasına ehtiyac yaradır. Bu əlaqələrin sağlam qurulmasında elm xadimlərinin də üzərinə ciddi iş düşür. Şərqin özünəməxsusluğunu dərk etmək, bütün incəlikləri ilə öyrənmək, təhlil etmək, Şərqlə Qərb mədəniyyətlərinin bir-birini daha yaxşı anlamaları üçün ortaq tədqiqatların aparılması olduqca vacibdir. Bu baxımdan qloballaşma şəraitində belə konfransların təşkili böyük əhəmiyyət daşıyır".



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək rəhbərlik etdiyi təşkilat tərəfindən türk dövlətlərinin, eləcə də digər xarici ölkələrin müxtəlif elm və təhsil ocaqları ilə qarşılıqlı əlaqələrin qurulmasına mühüm önəm verildiyini diqqətə çatdırıb. Günay Əfəndiyeva Azərbaycan xalqının maariflənməsində, milli və ictimai tərəqqisində, ziyalı təbəqəsinin formalaşmasında BDU-nun rolunu yüksək qiymətləndirərək, Fond ilə Universitetin birgə əməkdaşlığının əhəmiyyətindən söz açıb. Fondun prezidenti təşkilat ilə Universitet arasında imzalanan Anlaşma Memorandumunun Türk xalqlarının zəngin mənəviyyat xəzinəsinin öyrənilməsi, qorunması və gələcək nəsillərə ötürülməsinə töhfə vermək məqsədi daşıdığını bildirib. Günay Əfəndiyeva 100 illiyi qeyd olunan Şərqşünaslıq fakültəsinin son bir əsrdə çoxsaylı mütəxəssisin hazırlanmasında, alimlərin, ictimai-siyasi xadimlərin, diplomatların yetişdirilməsində böyük rolu və təcrübəsi olduğunu vurğulayıb, gələcək fəaliyyətdə uğurlar arzulayıb.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan çıxışında fakültənin tarixindən, inkişaf mərhələlərindən, perspektivlərindən danışıb. Fakültənin 100 illik tarixində xidmətləri olan professor-müəllim heyətindən söhbət açaraq, konfransa daxil olmuş 300-ə yaxın tezisin mövzusu və elmi əhəmiyyətinə toxunub.

Daha sonra Şərqşünaslıq fakültəsinin tarixi və fəaliyyəti ilə bağlı video nümayiş etdirilib.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Məclisin üzvləri - akademik Rafael Hüseynov, BDU-nun Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev, Ankara Universitetinin elmi işlər üzrə prorektoru Mustafa Fənər, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin prorektoru Avazbek Vahidov, Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, professor Pyotr Taraka, Şərqşünaslıq fakültəsinin məsləhətçi professoru Elxan Əzizov, Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə çıxış edərək Şərqşünaslıq fakültəsinin kollektivini yubiley münasibətilə təbrik edib, Azərbaycan şərqşünaslığının inkişaf perspektivləri, aktual problemləri ilə bağlı fikirlərini bölüşüblər.

BDU-nun rektoru Elçin Babayev tərəfindən təhsildə əldə etdiyi yüksək akademik nəticələrə və Universitetin ictimai həyatında fəal iştirakına görə 2022-2023-cü tədris ilinin I semestri üçün Aida İmanquliyeva adına təqaüd BDU-nun Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi Məhəmmədəli Axundova təqdim edilib.

Tədbirdə Azərbaycanın İordaniya Həşimilər Krallığı, Əlcəzair, Müqəddəs Taxt-Tacda, Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfirləri Eldar Səlimov, Tural Rzayev, İlqar Muxtarov, Şahin Abdullayevin, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə və İndoneziyadakı səfirliklərimizin müşavirləri Cavid Musayev, Elxan Zeynalov və Gültəkin Həbiblinin Şərqşünaslıq fakültəsinin 100 illik yubileyi ilə əlaqədar təbrik məktubları səsləndirilib.

Daha sonra Şərqşünaslıq fakültəsinin tələbələri müxtəlif Şərq dillərində təbriklərini çatdırıblar.

Açılış mərasimi BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin solisti Rəqsanə Əsədovanın ifasında "Qarabağ şikəstəsi" ilə sona çatıb.

Qeyd edək ki, 9 xarici ölkədən (Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Pakistan, İraq, Polşa, Macarıstan), o cümlədən respublikanın bir çox ali təhsil müəssisələri, elmi qurumlarından olan tədqiqatçı və görkəmli şərqşünas məzunların iştirakı ilə keçirilən beynəlxalq elmi konfrans bölmə iclasları ilə davam edib.

Dekabrın 15-də Beynəlxalq elmi konfrans başa çatıb.

Tədbirin sonunda konfrans iştirakçılarına sertifikatlar təqdim olunub.



# BDU-da akademik Həsən Əliyevin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş IV Respublika elmi konfransı keçirilib

***Dekabrın 19-da BDU-da akademik Həsən Əliyevin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş "Ekologiya: təbiət və cəmiyyət problemləri" mövzusunda IV Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Konfransın açılışında çıxış edən BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov akademik Həsən Əliyevin həyatı, zəngin elmi fəaliyyəti ilə bağlı məlumat verib. Qeyd edib ki, görkəmli akademikin əsas tədqiqat sahəsi meşə torpaqlarının coğrafiyası, respublikanın torpaq xəritələrinin hazırlanması, ekoloji, bioloji problemlərin həlli və beynəlxalq aləmdə təbliğ edilməsi olub. Alim ölkədə Azərbaycanda meşə altından çıxmış 40 min hektardan artıq torpaqdan daha səmərəli istifadə etməyin yollarını müəyyənləşdirib, ilk dəfə dağ yamaclarında az istifadəli torpaqlarda quru fitomeliorasiya işlərinin həyata keçirilməsinin elmi təşkilini araşdırıb. O, 800-ə yaxın elmi əsərin, o cümlədən 200-ə yaxın elmi-kütləvi məqalənin müəllifi, 50-dən çox xəritənin həmmüəllifi və redaktoru olub. Həsən Əliyevin rəhbərliyi ilə 40-a yaxın fəlsəfə və elmlər doktoru yetişdirilib. Əsası akademik Həsən Əliyev tərəfindən qoyulmuş coğrafi ekologiya elmi məktəbi hazırda Respublikamızda və BDU-da uğurla inkişaf etdirilir.

BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı isə qeyd edib ki, akademik Həsən Əliyev təbiətin mühafizəsi problemi ilə məşğul olan əvəzedilməz ziyalı, vətəndaş, alim olub. Alimin bütün elmi fəaliyyəti torpaqşünaslıq nəzəriyyəsi, ekologiya, botanika, biocoğrafiya, meşəşünaslıq, torpaq-meşə meliorasiya və aqrokimya, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunması kimi aktual problemlərin həllinə həsr olunub. Azərbaycanda Təbiəti Mühafizə Cəmiyyətinin yaradılması, bir çox qoruqların təşkili məhz görkəmli elm xadiminin adı ilə bağlıdır. Onun redaktorluğu ilə çap edilən "Azərbaycan təbiəti" elmi-kütləvi jurnalı təbiətimizin mühafizəsinin təbliğində mühüm rol oynayıb.

Daha sonra Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova, BDU-nun Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının müdiri Qərib Məmmədov, akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru Zakir Eminov, Ekocoğrafiya şöbəsinin müdiri Ənvər Əliyev, Azərbaycanın torpaq ehtiyatları coğrafiyası şöbəsinin müdiri İsmayıl Quliyev, BDU-nun Ekoloji kimya kafedrasının müdiri Sevinc Hacıyeva çıxışlarında böyük alimin Azərbaycan elminə, təbiətinin qorunmasına verdiyi töhfələrdən bəhs edib, xatirələrini bölüşüblər. Çıxışlarda Azərbaycan təbiətinin, ekologiyasının mühafizəsində akademik Həsən Əliyevin vətəndaş və alim kimi həyata keçirdiyi müqəddəs missiyanın öyrənilməsinin əhəmiyyəti vurğulanıb.

Öz işini bölmə iclasları ilə davam etdirən konfrans dekabrın 20-də yekunlaşıb.

# Görkəmli jurnalist Nəsir İmanquliyevin anadan olmasının 111-ci ildönümüdür

***22 dekabr Azərbaycanın görkəmli jurnalisti, tanınmış elm və ictimai xadim, Azərbaycan SSR əməkdar jurnalisti, Azərbaycan SSR əməkdar mədəniyyət işçisi Nəsir İmanquliyevin anadan olmasının 111-ci ildönümüdür.***

Müasir Azərbaycan jurnalistikasının təşəkkülündə xüsusi yeri olan Əməkdar jurnalist, peşəkar redaktor, publisist və pedaqoq Nəsir İmanquliyev ömrünü Azərbaycan mətbuatının və mədəniyyətinin inkişafına, peşəkar jurnalist kadrlarının hazırlanmasına həsr etmişdir.

Nəsir İmanquliyev 22 dekabr 1911-ci ildə Bakıda anadan olmuşdur. 1925-1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirmiş, 1934-cü ildə Bakı şəhərində Lassal adına Neft Texnikumuna daxil olmuşdur. Dövri mətbuatda ilk yazıları tələbəlik illərində çap olunmağa başlamışdır. Tələbəlik illərindən başlayaraq, "Kommunist", "Yeni yol", "Gənc işçi", "Vətənin səsi" qəzetlərində ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışmışdır. İkinci dünya müharibəsi zamanı 1942-ci ildə siyasi işçi kimi Krım cəbhəsinə göndərilmiş, orada "Vuruşan Krım" qəzetinin məsul katibi kimi çalışmış, həmçinin hərbi hissədə tərcüməçi kimi xidmət etmişdir. Nəsir İmanquliyev 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlamışdır. 1948-1950-ci illərdə BDU-nun Filologiya fakültəsində təhsilini iki ilə müvəffəqiyyətlə başa vurmuşdur. 1947-1998-ci illərdə Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim, dosent, professor olmuşdur. O, respublika üçün gənc jurnalist kadrlarının hazırlanması işində fəal iştirak etmiş, bu işə öz əvəzsiz töhfəsini vermişdir. 1958-ci ildə Azərbaycanda yeni tipli "Bakı" və "Baku" (1953) axşam qəzetlərinin baş redaktoru təyin edilmişdir.

Azərbaycan Mədəniyyət Nazirliyinin Radiolaşdırma Baş İdarəsinin rəisi və Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1976-cı ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi", 1990-cı ildə "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür.

Professor Nəsir İmanquliyev 1998-ci ildə Bakı şəhərində vəfat etmişdir. 2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən Azərbaycanda Nəsir İmanquliyevin 100 illiyinə həsr olunmuş silsilə yubiley tədbirləri keçirilmişdir. Nəsir İmanquliyev Azərbaycan milli mətbuatının inkişafı uğrunda yorulmadan qələm çalmış, milli ənənələrə bağlı orijinal bir jurnalistlik məktəbi yaratmışdır. Ömrünün 50 ilini Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmiş alim-publisist zəngin pedaqoji fəaliyyəti ilə Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynamışdır. O, "Radio proqramı", "Vətənin səsi", "Bakı" və "Baku" qəzetlərinin ideya rəhbəri-qurucusu, Bakı Dövlət Universitetinin professoru, görkəmli jurnalist, ictimai xadim kimi çoxsahəli fəaliyyətində, xalqa, vətənə, millətə əsl sədaqət nümunəsi göstərmişdir.

# Görkəmli alim, əsl ziyalı - Şirməmməd Hüseynov

***Görkəmli alim, Əməkdar jurnalist, mətbuat tariximizin və Xalq Cümhuriyyətinin ən mahir araşdırıcısı Şirməmməd Hüseynovun anadan olmasından 98 il ötür.***

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirib, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil alıb.

Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olub, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olub, 1988-ci ildən ömrünün sonunadək həmin kafedranın professoru vəzifəsində çalışıb.

Elmi fəaliyyətini Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərib. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti var.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəldib. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olub. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, bir sıra mükafatlara layiq görülüb, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunub. Görkəmli alim 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat edib. Unudulmaz pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaq.

# Görkəmli arxeoloq, professor Məmmədəli Hüseynovun 100 illik yubileyi qeyd olunur

***Dekabrın 5-də BDU-da Azərbaycanın görkəmli arxeoloqu, professor Məmmədəli Hüseynovun 100 illik yubileyinə həsr edilmiş "Məmmədəli Hüseynovun daş dövrü arxeologiyasına verdiyi töhfələr" mövzusunda Beynəlxalq elmi konfransın açılışı olub.***

Mərasimdə çıxış edən BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov bildirib ki, Azərbaycan paleolit məktəbinin banisi, tarix elmləri doktoru, professor Məmmədəli Hüseynov dünya əhəmiyyətli tədqiqatları ilə arxeologiya elmini zənginləşdirib. 1953-cü ildə Məmmədəli Hüseynovun iştirakı ilə Qazax rayonundakı Damcılı mağarasında Azərbaycanda ilk qədim daş dövrü düşərgəsi aşkarlanıb.

Fərda İmanov vurğulayıb ki, Məmmədəli Hüseynovun mühüm elmi nailiyyətlərindən biri Qarabağda, Quruçay dərəsinin Tuğ çökəkliyində yerləşən, zəngin stratiqrafiyaya malik unikal Azıx paleolit mağara düşərgəsini dünya arxeologiyasının qızıl fonduna daxil etməsidir. Bu abidə sivilizasiyanın ən qədim məskənlərindən birinin məhz Azərbaycan olduğunu isbatlayır. Alim həmin tədqiqatlara əsaslanaraq Azərbaycanın, bütövlükdə Qafqazın bəşəriyyətin formalaşma xəritəsində yer aldığını, 1,2 milyon il və daha əvvəl Azıx mağara düşərgəsində ibtidai insanların Homo erectus tipli nümayəndələrinin yaşadığını sübut edib. Görkəmli alim 1976-1992-ci illərdə Arxeologiya və etnoqrafiya kafedrasına rəhbərlik etməklə BDU-da arxeologiya elminin inkişafına böyük töhfələr verib. Məmmədəli Hüseynovun BDU-nun Tarix fakültəsində təşkil etdiyi Arxeologiya və etnoqrafiya muzeyinin eksponatları daş dövründən orta əsrlərədək geniş xronoloji çərçivədə arxeoloji materiallardan, müxtəlif təyinatlı etnoqrafik nümunələrdən ibarətdir.



Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Şərəfli alim ömrü" adlı məruzəsində qeyd edib ki, Məmmədəli Hüseynovun tədqiqatları Qazax-Gəncə və Qarabağ bölgələrinin daş dövrü düşərgələri ilə məhdudlaşmır. Onun 30 ilədək rəhbərlik etdiyi Azərbaycan paleolit ekspedisiyası respublikamızda hazırda mövcud olan paleolit düşərgələrinin xəritəsini müəyyənləşdirib. O, Azərbaycan tarixinin xronoloji çərçivəsinin 2 milyon il ilə ölçüldüyünü təkzibedilməz faktlarla sübut edib.

Daha sonra akademik Yaqub Mahmudov "Böyük alimin dünya əhəmiyyətli kəşfi", Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Daş dövrü şöbəsinin müdiri Əsədulla Cəfərov "Azıx dünya arxeologiyasında", institutun aparıcı elmi işçisi Azad Zeynalov "Məmmədəli Hüseynov və Quruçay mədəniyyəti", Gürcüstanın İlya Dövlət Universitetinin Arxeoloji Tədqiqatlar Mərkəzinin direktoru Nikoloz Thushabramishvili "Orta və Üst Poleolitə keçid problemləri Ortvala Klde və Bondi mağaralarının tədqiqi əsasında" mövzularında məruzə ediblər. Məruzələrdə maddi-mədəniyyət qalıqlarındakı informasiyaların əldə olunmasında, tarixi həqiqətlərin üzə çıxarılmasında alimin xidmətləri qeyd olunub, Azərbaycan arxeologiyasının inkişaf perspektivləri təhlil olunub.



Daha sonra Xalq şairi Nəriman Həsənzadə, alimin qızı Rəhilə Babayeva Məmmədəli Hüseynovla bağlı xatirələrini bölüşüblər.

İki gün davam edən konfransda Azərbaycan, ABŞ, Yaponiya, Almaniya, Gürcüstan, Qazaxıstandan olan alimlər tərəfindən 41 məruzə dinlənilib, "Professor Məmmədəli Hüseynovun elmi irsi", "Daş dövrü arxeologiyası", "Qafqazın paleoantropologiyası", "Qafqazın geoarxeologiyası", "Azərbaycanın daş dövrü arxeologiyasının nəzəri məsələləri", "İşğaldan azad edilən ərazilərin tarixi, maddi mədəniyyət abidələri və onların bərpası məsələsi" istiqamətlərində müzakirələr aparılıb.

Qeyd edək ki, görkəmli arxeoloq, professor Məmmədəli Hüseynovun anadan olmasının 100 illik yubileyi münasibətilə Tarix fakültəsinin elmi-tədqiqat laboratoriyaları tərəfindən onun elmi məqalələri, monoqrafiyaları, kitab və dərs vəsaitləri toplanılıb. "Azıx mağarası - Homo nəslinin beşiyidir: Məmmədəli Hüseynovun tədqiqatları" adlı əsər BDU-nun nəşriyyatında 2 cilddə çap edilib.

# Əhməd Cavadın 130 illik yubileyi qeyd olunub

***Dekabrın 16-da BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın anadan olmasının 130 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Liseyin xorunun təqdimatında sözləri Əhməd Cavada, musiqisi Üzeyir Hacıbəyliyə məxsus olan "Çırpınırdı Qara dəniz" mahnısı səsləndirilib.

Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Afət Abuşova Əhməd Cavadın həyat və yaradıcılığı barədə məlumat verib. Vurğulayıb ki, Əhməd Cavad vətəninə, elinə, bütövlükdə Türk dünyasına bağlı əsl mücahid olub. Türkçülüyə sevgisinə görə Vətən sevdalı şair 1937-ci ildə sovet ideoloqlarının amansız repressiyasının qurbanı olub.





Əhməd Cavad fəaliyyəti ilə dövlətçiliyimizin, ədəbiyyatımızın tarixi yaddaşına əbədi yazılıb.

Böyük ziyalının qohumu, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü Rəfiqə Abbasova çıxışında xalqımızın müstəqilliyi uğrunda canından keçmiş Əhməd Cavadın həyatı, ədəbi yaradıcılığı və ictimai-siyasi fəaliyyətindən söz açıb. O, görkəmli şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın Azərbaycanın müstəqilliyi, dövlət quruculuğu yolundakı fəaliyyətinin bütün nəsillər üçün hər zaman örnək olduğunu qeyd edib.

Liseyin direktoru Arif Bağırov, şair, publisist Nəcibə İlkin çıxışlarında gənc nəslin Əhməd Cavad yaradıcılığını öyrənməsinin əhəmiyyətindən danışıb, təhsil müəssisələrində belə tədbirlərin mütəmadi keçirilməsini təklif ediblər.

Daha sonra Liseyin şagirdlərinin ifasında Əhməd Cavadın yaradıcılığına həsr olunmuş bədii kompozisiya nümayiş etdirilib.



***Dekabrın 19-da Filologiya fakültəsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əhməd Cavadın 130 illik yubileyinə həsr olunmuş "Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda" mövzusunda Respublika elmi konfransı keçirilib. Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Əhməd Cavadın simasında repressiya qurbanlarının və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Açılış nitqi ilə çıxış edən Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Mehriban Əlizadə tədbirin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əhməd Cavadın 130 illik yubileyinin qeyd edilməsi haqqında müvafiq Sərəncamına əsasən təşkil edildiyini diqqətə çatdırıb, görkəmli şairin yaradıcılığının ədəbiyyat tariximizdəki yerindən, ədəbi-bədii dilimizin inkişafında rolundan, keçirilən konfransın əhəmiyyətindən danışıb.

Plenar iclasda BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı "İstiqlal şairi Əhməd Cavad", Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının magistrantı Firuzə Qaloyeva "Bədii ədəbiyyatda Əhməd Cavad obrazı" adlı məruzələrlə çıxış ediblər.

Məruzələrdə şairin yaradıcılığının ölkəmizdə və onun hüdudlarından kənarda, xüsusilə Türkiyədə tədqiqi və təbliği istiqamətində görülən işlərdən, Əhməd Cavad yaradıcılığının poetik özəlliklərindən bəhs edilib, ədibin irsinə göstərilən dövlət qayğısı yüksək qiymətləndirilib.

Tədbirdə şairin ömür yolundan bəhs edən videoçarx nümayiş olunub, Filologiya fakültəsinin tələbələri Fidan Mədətova və Ülviyyə Orucovanın ifasında ədibin şeirləri səsləndirilib.

Konfrans bölmə iclasları ilə davam edib.

# BDU Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

***Dekabrın 14-də BDU ilə Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev imzalayıb.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev xalqlarımız arasında qədim tarixə malik dostluq və qardaşlıq əlaqələrindən danışıb, bu münasibətlərin bu gün uğurla davam etdiyini bildirib. O, türkdilli dövlətlərin daha da sıx birləşməsində elm və təhsil sahəsində əməkdaşlığın xüsusi rola malik olduğunu vurğulayıb.

Rektor BDU-nun beynəlxalq əlaqələrində türkdilli dövlətlərin ali məktəbləri ilə münasibətlərin önəmli yer tutduğunu, son illər Özbəkistanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələrin yaradıldığını və inkişaf etdiyini diqqətə çatdırıb.

Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev elm və təhsil sahəsində ortaq layihələrin hər iki universitetin inkişafına fayda verəcəyinə əminliyini ifadə edib. Həmçinin BDU ilə ikili diplom proqramı da imzalamaq arzusunda olduğunu bildirib.

Əməkdaşlıq müqaviləsində akademik və inzibati kadrların, tələbə, magistrant və doktorantların qarşılıqlı mübadiləsi, ortaq elmi tədqiqatların aparılması, birgə elmi seminar, ustad dərsləri, konfrans və simpoziumların keçirilməsi, elm və təhsil sahəsində birgə layihələrin hazırlanması nəzərdə tutulur.



# Braziliya səfiri BDU-da

***Dekabrın 16-da BDU-nun rektoru Elçin Babayev Braziliya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzla görüşüb.***

Rektor qonağa ölkənin ən böyük və ilk təhsil ocağı olan BDU-nun tarixi, akademik mühiti, Universitetdə həyata keçirilən təlim-tədris prosesi barədə məlumat verib. Qeyd edib ki, son illər BDU-da tədris innovativ təlim texnologiyaları əsasında qurulur, beynəlxalq akademik əlaqələr daha da inkişaf etdirilir. Dünyanın bir sıra aparıcı universitetləri ilə birgə ikili proqram əsasında kadrlar hazırlanır.

Rektor BDU-nun Tarix fakültəsində Avropa və Amerika ölkələrinin yeni və müasir tarixinin öyrənildiyini diqqətə çatdırıb, iki ölkənin elm, təhsil mühiti ilə əlaqələri daha da genişləndirmək üçün BDU-da "Braziliya otağı"nın açılmasının mümkünlüyünü bildirib. Braziliyanın Azərbaycandakı səfiri ölkəsinin aparıcı universitetlərinin BDU ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb. Səfir universitetlər arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin hər iki ölkədə elm və təhsilin inkişafı üçün xüsusilə önəmli olacağını qeyd edib. Görüşdə Braziliyanın elm və təhsil müəssisələri ilə əməkdaşlığın perspektivləri müzakirə olunub.




# "Türkiyə-Azərbaycan birliyinin zəfəri: Davamlı inkişaf və qadın məsələləri" adlı konfrans keçirilib



***Dekabrın 16-da BDU-da "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi və Türkiyənin Qadın və Demokratiya Dərnəyinin (KADEM) birgə təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan Birliyinin zəfəri: Davamlı inkişaf və qadın məsələləri" adlı konfrans keçirilib.***

Konfrans "Türkiyə-Azərbaycan Birliyi: Davamlı inkişaf, yüksək səviyyəli idarəçilik və qadınların səlahiyyətlərinin artırılması ədalətin təminatı kimi" adlı layihə çərçivəsində təşkil olunub.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Türkiyə-Azərbaycan qardaşlığının əbədi olduğunu, xalqlarımızı növbəti zəfərlərə apardığını bildirib. Rektor iki qardaş ölkənin Prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri müqəddəs missiyada ən yaxın silahdaşlarının məhz Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Türkiyənin birinci xanımı Əminə xanım Ərdoğan olduğunu diqqətə çatdırıb.

Elçin Babayev qeyd edib ki, ölkələrimizdə qadınların cəmiyyətin dayağı olduğu həmişə hiss olunur: "Hər iki ölkədə qadınlar bütün sahələrdə aktiv fəaliyyət göstərirlər. Qərb dövlətləri gender bərabərliyi axtarışındadır. Lakin türk dünyasında belə bir problem yoxdur. Bakı Dövlət Universitetində də qadınlar rəhbər vəzifələrdə uğurla fəaliyyət göstərirlər".

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı isə çıxışında Türkiyə ilə Azərbaycanın dostluğunun bütün sahələrdə möhkəm təməllər üzərində qurulduğunu bildirib: "30 illik acıdan sonra Azərbaycan hərbi və siyasi baxımdan böyük uğur əldə edərək Qarabağda zəfər qazandı. Müharibə zamanı Türkiyə həm siyasi, həm də mənəvi baxımdan Azərbaycanın yanında oldu. Şuşa Bəyannaməsinin imzalanması türk dövlətlərini birləşdirmək üçün atılan addımdır. Bu Bəyannamə Türkiyə-Azərbaycan qardaşlığını, müttəfiqliyini təsdiq edən sənəddir və siyasi iradəmizi əks etdirir".

Konfransda KADEM-in fəaliyyəti haqqında videoçarx nümayiş etdirilib.

Daha sonra "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin rəhbəri Xəyalə Məmmədova, KADEM-in təmsilçiləri Ümit Atman, Begüm Esra Aytan təmsil etdikləri qurumların fəaliyyəti ilə bağlı məruzə ediblər. Bildirilib ki, "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi milli-mənəvi dəyərlərə əsaslanan müasir vətəndaş obrazını yaratmaq, qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək məqsədi ilə təsis edilib. Sümeyye xanım Erdoğan Bayraktarın rəhbərlik etdiyi KADEM isə yarandığı gündən qadınların ləyaqətlə yaşaya biləcəyi təhlükəsiz cəmiyyət və ədalətli gələcək qurmaq üçün fəaliyyət göstərib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Elgün Səfərov "Qadın hüquqlarının müdafiəsi istiqamətində əməkdaşlıq" mövzusunda təqdimatla çıxış edib.

Tədbir bədii hissə ilə yekunlaşıb.

# BDU Elmi Şurasının növbəti iclası

***Dekabrın 28-də BDU-nun Elmi Şurasının növbəti iclası keçirilib.***

İclasın gündəliyinə 2022/2023-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının (bakalavriat və magistratura təhsil səviyyələri üzrə) təşkili və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Tədbirlər Planı haqqında məsələlər daxil edilib. Hər iki məsələ geniş müzakirə olunub, səsə qoyularaq qəbul edilib.

İclasda daha sonra cari məsələlərə baxılıb.

# "Gənc torpaqşünaslar klubu" layihəsi başa çatıb

***Dekabrın 30-da Ekologiya və torpaqşünaslıq fakültəsinin və "Aqrar İnkişaf Könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Gənc torpaqşünaslar klubu" layihəsi uğurla başa çatıb.***

Layihə çərçivəsində Ekologiya və torpaqşünaslıq fakültəsindən seçilmiş 30 tələbə və magistranta 20 gün müddət ərzində BDU və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində torpaqşünaslıq və aqrokimya elmlərinin problemləri üzrə təlimlər keçirilib. Təlimlərə BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin professor-müəllim heyəti ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin mərkəzi aparatı, Aqrar Tədqiqatlar Mərkəzi, Elm və Təhsil Nazirliyinin tabeliyində olan Torpaqşünaslıq və Aqrokimya İnstitutunun yüksəkixtisaslı mütəxəssisləri cəlb olunub. Layihə çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Əkinçilik və Tərəvəzçilik Elmi-Tədqiqat institutlarına ekskursiyalar təşkil edilib.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim edilib.

# İsrailin Kaye Akademik Kollecinin Tədqiqat Komitəsinin rəhbəri BDU-da mühazirə deyib



***Dekabrın 9-da İsrailin Kaye Akademik Kollecinin Tədqiqat Komitəsinin rəhbəri, BDU-nun Mexanika-riyaziyyat fakültəsinin məzunu, professor Mark Applebaum Universitetin əməkdaşları, gənc tədqiqatçıları və tələbələri üçün "21-ci əsrdə İsraildə təhsil. Daxildən baxış" ("Israeli education in 21st century. View from inside") mövzusunda mühazirə deyib.***

Qonaq İsrailin unikallığını qoruyan təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyası baxımından yeni, interaktiv təlim texnologiyalarından istifadənin zərurətini diqqətə çatdırıb. Müasir təhsil metodlarından istifadənin nəzəri və təcrübi məsələlərinə geniş toxunan tədqiqatçı-alim öz çıxışında İsrail və digər ölkələrdəki pedaqoji yanaşma və təlim texnologiyalarının müqayisəli analizini aparıb. Eyni zamanda təhsildə geniş tətbiq edilən struktur və funksional komponentlərin öyrənilməsi, təlim texnologiyalarının müxtəlif yaş qruplarından olan təhsilalanların psixologiyası, bacarıqları və digər faktorlar nəzərə alınmaqla tətbiqi kimi aktual problemlərin təhlilinə xüsusi diqqət yetirib.

Vurğulanıb ki, İsraildə tədris prosesinin idarə olunmasında bilikyönümlü və bacarıqyönümlü təlim texnologiyalarının özünəməxsusluğuna, yaratdığı təsirə böyük əhəmiyyət verilir.

Sonda professor Applebaum çoxsaylı sualları cavablandırıb.

# Türkiyənin Kastamonu Universitetinin professoru tələbələrə mühazirə deyib



***Türkiyə Respublikasının Kastamonu Universitetinin professoru Hasan Keseroğlu Kitabxanaçılıq-informasiya fakültəsində "Türkiyədə kitabxanaçılıq təhsilinin yaranması və inkişafı" mövzusunda mühazirə deyib.***

Professor Hasan Keseroğlu əvvəlcə Türkiyədə kitabxanaların yaranması, formalaşması və inkişafı tarixinə nəzər salıb, Səlcuqlar və Osmanlı dövründə fəaliyyət göstərən vəqf kitabxanaları haqqında iştirakçılara geniş məlumat verib. Cümhuriyyət dövründə kitabxana işinin xüsusilə inkişaf etdiyini qeyd edən natiq Mustafa Kamal Atatürkün xaricdə təhsil almağa göndərdiyi ilk tələbələr arasında kitabxanaçılıq təhsili alanların da olduğunu vurğulayıb. Ölkə xaricində təhsili alaraq Vətənə dönən Fehmi Ethem Karatayın, Adnan Ötükenin Türkiyədə kitabxanaçılıq təhsilinin yaradılmasında mühüm xidmətləri olduğunu diqqətə çatdırıb. Hasan Keseroğlu qeyd edib ki, 1954/1955-ci tədris ilindən etibarən Ankara Universitetində ali kitabxanaçılıq təhsilinə başlanılıb. 1964-cü ildən İstanbul Universitetində, 1974-cü ildən isə Hacettepe Universitetində ixtisas üzrə kadr hazırlığı aparılır. Hazırda Türkiyədə 20-yə yaxın universitetdə kitabxanaçı kadrların hazırlandığını bildirən professor 1949-cu ildən fəaliyyət göstərən və sahənin inkişafına mühüm töhfələr verən Türk Kitabxanaçılar Dərnəyinin və "Web of Science" elmi məlumat bazasında yer alan "Türk Kitabxanaçılığı Dərgisi"nin fəaliyyətindən də bəhs edib. Müasir dövrdə Türkiyədə elektron kitabxana və elektron kataloqlaşdırmanın mühüm istiqamət təşkil etdiyini qeyd edən alim ölkəsində ali kitabxanaçılıq təhsilinin Avropa modeli əsasında qurulduğunu və davamlı olaraq inkişaf etdirildiyini vurğulayıb.

Professor Hasan Keseroğlunun mühazirəsi maraqla dinlənilib, mövzu ilə bağlı müzakirələr aparılıb.

# Özbəkistanın Urgənc Dövlət Universitetinin professoru BDU-da mühazirə deyib

***Dekabrın 13-də Özbəkistanın Urgənc Dövlət Universitetinin professoru Dilşad Qayıbov Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları və tələbələri üçün "Xarəzm təzkirələri" mövzusunda mühazirə deyib.***

Mühazirədə biblioqrafik fəaliyyətin inkişafında yeni mərhələ kimi qiymətləndirilən təzkirə janrının meydana gəlməsi, formalaşması və inkişafından bəhs olunub. Bildirilib ki, təzkirələr biblioqrafik informasiyanın əsas daşıyıcılarından biri kimi orta əsrlərdən başlayaraq böyük bir tarixi yol keçib. Professor Dilşad Qayıbov klassik irsin toplanması, ayrı-ayrı şəxslər haqqında müxtəlif xarakterli məlumatların sistemli, ardıcıl şəkildə qorunub saxlanılması, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından təzkirələrin biblioqrafik informasiya daşıyıcısı kimi mühüm əhəmiyyətini qeyd edib. Dünya təzkirəçiliyində Xarəzm təzkirələri önəmli yer tutur. Əks etdirdikləri məlumatların dolğunluğu, əhatəliliyi, müəyyən mövzularla bağlı ilkin və etibarlı mənbə funksiyası daşımağı ilə Xarəzm təzkirələri bu gün də mühüm elmi əhəmiyyətini saxlayır. Türk tarixinin, türk dünyasının ədəbi-mədəni mühitinin tədqiqi baxımından mühüm qaynaqlardan birinin məhz təzkirələr olduğunu vurğulayan alim Xarəzmdə təzkirəçilik ənənələri, Xarəzm təzkirə məktəbinin nümayəndələri barədə iştirakçılara geniş məlumat verib.



Professor Dilşad Qayıbovun mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, alim dinləyicilərin çoxsaylı suallarını cavablandırıb.

# ABŞ-ın Missuri Universitetinin professoru genom redaktəsinə dair seminar keçib



***Dekabrın 20-də ABŞ-ın Missuri Universitetinin professoru, genom redaktəsi üzrə tanınmış alim Binq Yanq BDU-da seminar keçib.***

"Bitkilərdə genom redaktəsi" adlı seminarda ilk növbədə Missuri Universitetinin tarixi, fəaliyyəti, tədqiqat sahələri və laboratoriyaları haqqında məlumat verilib. Seminar çərçivəsində bitkilərin müxtəlif stres faktorlarına davamlılığının artırılması məqsədilə neqativ genlərin təyin edilərək mutasiya olunması, plazmid konstruksiyası və bakteriyaya yeridilməsi, bitki hüceyrələrinin transformasiyası ilə streslərə davamlı genotiplərin yaradılması, bitkilərdə genomun redaktə edilmə texnologiyasının mexanizmləri izah edilib.

Seminarda genomun redaktəsi texnologiyası vasitəsilə bitkilərdə CRISPR/Cas 9 rolu və sgRNA (bələdçi RNT) dizayn olunması üsulu barəsində məlumat verilib.

Binq Yanq "tal - effector nuclease" və "zinc finger nuclease" texnologiyaları vasitəsilə genomun redaktə olunmasının üstünlükləri, düyü bitkisində SWEET genlərinin susdurulmasının Xanthomonos cinsinə aid bakteriya növlərinin törətdiyi xəstəliklərə qarşı davamlılığının əhəmiyyətini qeyd edib.

Seminarda genom redaktəsinin tətbiqi və ərzaq təhlükəsizliyi istiqamətində son illər aparılmış tədqiqatların nəticələri və effektivliyinə dair geniş müzakirələr aparılıb. Sonda Binq Yanq çoxsaylı sualları cavablandırıb.

# BDU Qazaxıstanın Avrasiya Milli Universiteti ilə ikili diplom proqramı imzalayıb

***Bakı Dövlət Universiteti dünyanın bir çox nüfuzlu universitetləri ilə ikili diplom proqramları çərçivəsində əməkdaşlığı davam etdirir.***

BDU və Qazaxıstan Respublikasının L.N.Qumilyov adına Avrasiya Milli Universiteti arasında magistratura səviyyəsində "Biotexnologiya" ixtisaslaşmasında kadr hazırlığı məqsədilə ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

İkili diplom proqramı BDU-nun Biologiya fakültəsi ilə L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin Təbiət elmləri fakültəsinin adıçəkilən ixtisaslaşma üzrə magistratura proqramları əsasında canlı orqanizmlərin və bioloji sistemlərin, bitki və heyvan hüceyrələrinin, subhüceyrə komponentlərinin və bioloji makromolekulların köməyi ilə ərzaq, sənaye və tibb məhsullarının istehsalı sahəsində hərtərəfli biliyə malik mütəxəssislərin hazırlanmasına yardım edəcək. Proqram çərçivəsində eyni zamanda biologiya, biotexnologiya elmlərinin fundamental və tətbiqi metodlarından istifadə etməklə praktik problemləri təsnif və həll edə bilən mütəxəssislər yetişdiriləcək. Qeyd edək ki, Avrasiya Milli Universitetində biologiya və biotexnologiya sahəsində yüksək səviyyədə bakalavr, magistr və doktorant hazırlığı həyata keçirilir.

# "Səhnələşdirilmiş parlament debatı" adlı simulyasiya

***Dekabrın 19-da BDU-nun Əmək və ekologiya hüququ kafedrasının professoru Mayis Əliyevin təşkilatçılığı və rəhbərliyi ilə "Səhnələşdirilmiş parlament debatı" adlı simulyasiya keçirilib.***



Debatda BDU-nun "SABAH" qruplarının və Hüquq fakültəsinin III kurs tələbələri iştirak ediblər. Rol oyunları metodundan istifadə etməklə təşkil olunmuş debatda tələbələr "Sosial təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini müzakirə ediblər.

Debatda rol oyunları metodunun hüquqi təhsil prosesində tətbiqinin əhəmiyyəti müzakirə olunub, bununla bağlı tədbir iştirakçılarının və deputatların fikirləri dinlənilib.

Professor Mayis Əliyev bildirib ki, tədbirin məqsədi tələbələrdə parlament debatı aparmaq mədəniyyətinin, normativ hüquqi aktlara müstəqil münasibət bildirmək, mühakimə irəli sürmək, təhlillər aparmaq bacarıqlarının, natiqlik qabiliyyətinin formalaşdırılmasıdır: "Tələbələr 4 ay ərzində debata hazırlaşıb, qanun layihəsi və onun müzakirəsi ilə bağlı məruzələr hazırlayıblar. Biz artıq ənənəvi təhsil sistemindən daha interaktiv təhsil sisteminə keçməyə, təlimin daim yeni metodlarla təşkilinə üstünlük veririk. Hüquq fakültələri təkcə hüquqşünas mütəxəssislər yox, siyasi liderlər, ictimai xadimlər də yetişdirdikləri üçün interaktiv metodlardan istifadə etməklə tələbələrdə parlament mədəniyyətinin formalaşdırılmasını istəyirik".

Sonda müvafiq rolları canlandıran və tədbirin təşkilində yaxından iştirak edən tələbələrə təşəkkürnamələr verilib.

Qeyd edək ki, tədbirdə BDU-nun elmi-pedaqoji heyəti, Hüquq fakültəsinin və "SABAH" Mərkəzinin rəhbərliyi, Milli Məclisin deputatları, hüquqşünas-vəkillər, ADA Universitetinin, Polis Akademiyasının və Milli Aviasiya Akademiyasının Hüquq fakültələrinin rəhbərləri və tələbələri iştirak ediblər.

# BDU BMT-nin Sülh Universiteti ilə əməkdaşlığa başlayır

***Dekabrın 21-də Universitetlərarası əməkdaşlıq dialoqunun yaradılması və inkişaf etdirilməsi ilə əlaqədar BMT-nin Sülh Universitetinin Cenevrədəki Daimi Müşahidəçi Nümayəndəliyinin rəhbərliyi ilə onlayn görüş keçirilib.***

Görüşdə BMT-nin Sülh Universitetinin Cenevrədəki Daimi Müşahidəçi Nümayəndəliyinin rəhbəri, səfir David Fernandez Puyana, BDU-nun rektoru Elçin Babayev, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsinin müavini Seymur Mərdəliyev, Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini İlqar Dadaşov, Beynəlxalq əməkdaşlıq şöbəsinin böyük məsləhətçisi Səkinə Ağalarova, Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru Neman Muradlı və BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov iştirak ediblər.

Səfir David Fernandez Puyana çıxışında Azərbaycan universitetləri ilə əməkdaşlıq etmək niyyətlərinin olduğunu vurğulayıb. Qeyd edib ki, BMT-nin Sülh Universiteti ətraf mühit hüququ, yaşıl iqtisadiyyat, beynəlxalq əlaqələr, beynəlxalq hüquq, diplomatiya istiqamətləri üzrə əməkdaşlıqda maraqlıdır.

Rektor Elçin Babayev isə çıxışında ölkənin qabaqcıl ali təhsil müəssisəsi olan BDU-nun 16 fakültəsində 70-dən çox ixtisas üzrə kadr hazırlığının həyata keçirildiyini bildirib. Hazırda Universitetin məzunları həm ölkə daxilində, həm də beynəlxalq arenada BDU-nu layiqincə təmsil edirlər.

BDU-da beynəlxalq əməkdaşlığın inkişafının daim diqqət mərkəzində olduğunu vurğulayan rektor BMT-nin Sülh Universiteti ilə imzalanması nəzərdə tutulan Anlaşma Memorandumunun çərçivə sənədi rolunu oynamaqla tərəflər arasında qarşılıqlı maraq doğuran istiqamətlər üzrə müqavilələrin imzalanmasına təkan verəcəyini bildirib.

# Sosial elmlər və psixologiya fakültəsinin müəllim və tələbələrinin yaradıcılıq sərgisi

***Dekabrın 20-də Sosial elmlər və psixologiya fakültəsinin müəllim və tələbələrinin yaradıcılıq sərgisi keçirilib.***



Fakültənin Sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimova belə sərgilərin tələbələrin estetik zövqünün formalaşmasında əhəmiyyətini qeyd edib.

Sərgidə Sosial iş kafedrasının dosenti Rəna Məmmədova, Psixologiya kafedrasının müəllimi İlahə Hacıyevanın portret və peyzajları, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi Şəlalə Salmanovanın gildən əl işləri, Sosiologiya kafedrasının müəllimi Leyla Fayruşinanın hazırladığı amiqurumi oyuncaqları nümayiş olunur. Sərgidə həmçinin amiqurumi oyuncaqlarının hazırlanması prosesini əks etdirən videoçarx nümayiş olunub. Estetik zövqlə hazırlanan oyuncaqların ekoloji xüsusiyyətləri haqqında tədbir iştirakçılarına məlumat verilib.

Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi Şəms Bünyatovanın kişi və qadın başlanğıclarını - iki şəxsiyyət tipini əks etdirən portretləri də maraqla qarşılanıb. Hər iki başlanğıcın harmoniyada olması insanın yaradıcılığına və özünəinamına təkan verir. Bu münasibətin ziddiyyətli olması, "mən"lərin sosial həyata düzgün inteqrasiya olunmaması isə şəxsiyyətin mənəvi və sosial uçuruma düşməsinə səbəb olur.



Fakültənin magistrantı Aynur Rəhmanzadənin mandala naxış sənətinə dair rəsmləri, III kurs tələbəsi Leyla Salmanovanın Azərbaycan bayrağı fonunda təbiət mənzərəsi də sərgi iştirakçılarının diqqətini cəlb edib.

I kurs tələbəsi Alsu Nuriyeva isə sərgiyə oriqami üslubunda hazırladığı əl işləri ilə qatılıb. Onun rəngli kağızlardan hazırladığı 10 ədəd böyük və kiçik ölçülü vaza, müxtəlif fiqurlar sərgi iştirakçılarının böyük marağına səbəb olub.

# Ekoloji kimya kafedrası Oxçuçayın çirklənmə göstəricilərini araşdırıb

***Ermənistan tərəfindən işğal dövründə torpaqlarımız ekoloji terrora məruz qalıb. Düşmənin törətdiyi ekoloji problemlər işğaldan azad olunan Qarabağda öz fəsadlarını bu gün də göstərir. Ermənilərin ekoloji terrorizmi və ekoloji vandalizmi nəticəsində hazırda Oxçuçay, Bəsitçay və Bərgüşadçay üzvi və qeyri-üzvi maddələrlə çirklənməyə məruz qalıb.***

Bu fikirləri BDU-nun Ekologiya və Torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva deyib. S.Hacıyeva bildirib ki, beynəlxalq sənədlərə məhəl qoymayan düşmən öz çirkin əməllərindən əl çəkmir.

"Arazı ən çox çirkləndirən çaylardan biri Oxçuçaydır. BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrası artıq iki ilə yaxındır ki, Qarabağ bölgəsinin ekoloji, kimyəvi tədqiqi mövzusu üzrə geniş araşdırma aparır. Eyni zamanda, kafedra Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Azərbaycan Elm Fondunun "Qarabağ Azərbaycandır!" müsabiqəsində "Qarabağ ərazisində çayların çirklənmə səviyyəsinin tədqiqi və aradan qaldırılma yollarının işlənilməsi" mövzusu üzrə qrant layihəsi ilə qalib olub. Layihə çərçivəsində Zəngilan şəhəri, Sarıqışlaq kəndi ərazilərindən (Oxçuçayın müvafiq olaraq yuxarı, aşağı və orta axını) nümunələr götürülüb, çirklənmə göstəriciləri araşdırılıb", - deyə alim bildirib.

Qeyd edilib ki, ilkin olaraq götürülən su nümunələrinin fiziki-kimyəvi parametrləri araşdırılıb. Ekoloji qiymətləndirmədə mühüm faktor hesab edilən ağır metalların miqdarı təyin edilib. Onlardan mis, molebden, qurğuşun, manqan, kobalt yol verilən qatılıq həddindən dəfələrlə artıq çıxıb.

Su nümunələri üzərində aparılan analizlərə görə, Oxçuçayda codluq Zəngilan rayonu Cahangirbəyli kəndində 2,2 dəfə, Tağlı kəndində 2,5 dəfə, Bürünlü kəndində 3,1 dəfə, sulfat ionu Tağlı kəndində 1,1 dəfə, Bürünlü kəndində 1,2 dəfə, dəmir Cahangirbəyli kəndində 2,8 dəfə, Tağlı kəndində 3,4 dəfə, Bürünlü kəndində 4,2 dəfə, molibden Tağlı kəndində 1,1 dəfə, Bürünlü kəndində 1,3 dəfə, manqan Cahangirbəyli kəndində 2,1 dəfə, Tağlı kəndində 3,2 dəfə yol verilən qatılıq həddindən yüksəkdir.

Ermənilərin törətdikləri bütün bu ekoloji terrorizm, demək olar ki, təkcə bizim respublikamız üçün deyil, digər ölkələr üçün də böyük ekoloji problemlər yaradır. Ona görə də bu problemin həlli zamanın tələbidir və onun aradan qaldırılması bu gün çox ciddi məsələlərdən biridir.

*AZƏRTAC*
*16.12.2022*

# Əməkdar mədəniyyət işçisi Aygül Qaradağlı Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

***Dekabrın 1-də Əməkdar mədəniyyət işçisi, aparıcı Aygül Qaradağlı Jurnalistika fakültəsinin qonağı olub.***

Əvvəlcə Jurnalistin nitq mədəniyyəti fənninin müəllimi Xatirə Hüseynova tələbələrə Aygül Qaradağlının yaradıcılığı barədə məlumat verib, onun televiziya və radiodakı fəaliyyətindən, xüsusilə dublyaj sahəsində rolundan danışıb.

Səmimi görüşün təşkilinə görə minnətdarlığını bildirən Aygül Qaradağlı gənclərlə ünsiyyətdən məmnunluğunu diqqətə çatdırıb. Sözün qüdrəti, insanlar arasında ünsiyyətin önəmi, televiziya aparıcısının iş xüsusiyyətləri, jurnalistin nitq mədəniyyətinin təməl prinsipləri barədə ətraflı məlumat verib.






Aygül Qaradağlı danışıq texnikasının inkişafına dair praktik məşğələlərdən əyani nümunələr göstərib.

Qonaq atası - Azərbaycanda peşəkar diktorluq məktəbinin banisi Aydın Qaradağlının yaradıcılığından da danışıb.

Görüşdə iştirak edən dekan müavini Samir Mirzəyev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova belə tədbirlərin gənclərin təhsilində və dünyagörüşünün inkişafında səmərəsindən bəhs ediblər.

# Türkiyənin tanınmış aktyorları Umut Karadağ və İpek Tuzcuoğlunun BDU tələbələri ilə görüşü

***Dekabrın 17-dən 21-dək Mədəniyyət Nazirliyi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Bakıdakı Yunis Əmrə İnstitutu və Türkiyənin Yerli Düşüncə Dərnəyinin birgə təşkilatçılığı ilə Türk Filmləri Həftəsi keçirilir.***

Layihə çərçivəsində Türkiyənin tanınmış kino aktyorları Umut Karadağ və İpek Tuzcuoğlu BDU-nun tələbələri ilə görüşüblər.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov çıxışında Türkiyə və Azərbaycan dostluğunun, qardaşlığının hazırda ən yüksək mərhələdə olduğunu qeyd edib. Ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın davamı olaraq Bakıda qardaş ölkənin tanınmış aktyorlarının iştirakı ilə növbəti Türk Filmləri Həftəsi keçirilir. Ramin Səmədov görüşdə iştirak edən aktyorlara təşəkkür edib, onlara yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayıb.





Yunus Əmrə İnstitutunun nümayəndəsi Hüseyn Mənsurov tədbir iştirakçılarına təmsil etdiyi qurumun fəaliyyəti haqqında məlumat verib, BDU ilə əməkdaşlıq əlaqələrinə diqqət çəkib, Türkiyənin istehsalı olan ekran əsərlərinin Azərbaycan tamaşaçıları tərəfindən həmişə böyük maraq və sevgi ilə qarşılandığını deyib.

Daha sonra Umut Karadağ və İpek Tuzcuoğlu Türkiyədə kino sənayesinin inkişaf perspektivləri, potensial imkanları və problemləri barədə danışıb, tələbələrin çoxsaylı suallarını cavablandırıblar.

Qeyd edək ki, Türk Filmləri Həftəsi çərçivəsində qardaş ölkənin kinematoqrafçılarının son illər istehsal etdikləri 7 yeni ekran əsərinin Nizami Kino Mərkəzində nümayişi, kinorejissor Semih Kaplanoğlunun iştirakı ilə azərbaycanlı kinosevərlər üçün ustad dərsinin təşkili nəzərdə tutulub.

# BDU-da "Qarabağ mühazirələri": millət vəkili Nizami Cəfərovla görüş

***Dekabrın 6-da BDU könüllülərinin təşkilatçılığı ilə "Qarabağ mühazirələri" layihəsi çərçivəsində Milli Məclisin üzvü, akademik Nizami Cəfərovla görüş keçirilib.***

Görüşdə çıxış edən akademik Nizami Cəfərov 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti barədə gənclərə məlumat verib, bu qələbənin Prezident-xalq-ordu birliyinin məntiqi nəticəsi olduğunu vurğulayıb. Nizami Cəfərov Müzəffər Ali Baş Komandan İlham Əliyevin və rəşadətli əsgərlərimizin qətiyyəti sayəsində torpaqlarımızın düşmən işğalından azad edilməsinin ölkəmizin həyatında yeni mərhələ və inkişaf dövrünün əsasını qoyduğunu diqqətə çatdırıb. Görüşdə müharibənin başlanması, gedişatı və nəticələrindən ətraflı bəhs edilib. Ordumuzun



cəbhədə qazandığı nailiyyətlər, Ermənistan silahlı qüvvələrinə endirdiyi sarsıdıcı zərbələrlə tarixi ədaləti bərpa etdiyi və bütün dünyaya Azərbaycanın qüdrətini bir daha göstərdiyi qeyd olunub.

Daha sonra akademik Nizami Cəfərov könüllülərin mövzu ətrafında suallarını cavablandırıb.

# "ASAN xidmət"in şöbə müdiri Elnur Niftəliyevlə görüş



***Dekabrın 8-də Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət") İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.***

Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova Elnur Niftəliyevin çalışdığı bütün qurumlarda fakültəni uğurlu məzun kimi təmsil etdiyini bildirib.

Elnur Niftəliyev tələbələri fəaliyyət göstərdiyi qurumun İctimaiyyətlə əlaqələr şöbəsinin fəaliyyəti ilə tanış edib, PR sahəsində çalışmaq istəyən tələbə-jurnalistlərə tövsiyələrini verib. Eyni zamanda böhran hallarında düzgün idarəçilik qaydalarını, KİV-də PR fəaliyyətinin spesifik xüsusiyyətlərini tələbələrin diqqətinə çatdırıb.

İnteraktiv və səmimi görüş çərçivəsində qonaq tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU könüllülərinin qərargahının açılışı

***Dekabrın 5-də BDU-da 5 Dekabr - Beynəlxalq Könüllülər Günü münasibətilə BDU könüllülərinin qərargahının açılışı olub.***





Açılış mərasimində çıxış edən rektor Elçin Babayev BDU könüllülərinin son illər Universitetin ictimai həyatında böyük rol oynadıqlarını qeyd edib. Ölkəmizdə könüllülük hərəkatının geniş vüsət aldığını bildirən rektor BDU könüllülərinin bu prosesdə fəal iştirak etdiklərini vurğulayıb.

Rektor BDU-nun struktur bölmələrində və fakültələrində çalışan könüllü tələbələrin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, gəncləri yeni təşəbbüslər irəli sürməyə çağırıb. Qeyd edib ki, BDU könüllülərinin bir hissəsi Universitetin inzibati şöbələrinə təhkim olunub və təcrübə əldə ediblər. Onlardan beziləri artıq Universitetdə işlə təmin olunub. Bu, digər könüllülər üçün də stimuldur.

Qeyd edək ki, "BDU könüllüləri" qrupu 2020-ci ildə yaradılıb. Hazırda qrupun 1000-dən artıq üzvü var.



# "Könüllülük yarmarkası" keçirilib

***Dekabrın 2-də Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Azərbaycan Gənclər Fondunun dəstəyi ilə həyata keçirilən "Könüllülük yarmarkası" layihəsi çərçivəsində BDU-nun tələbələri ilə görüş olub.***

Görüşdə Universitetin müxtəlif kurslarında təhsil alan tələbələrə Azərbaycan Könüllü Təşkilatları İttifaqı və üzv təşkilatlar barədə ətraflı məlumat verilib. Tədbirdə gənclər könüllülük hərəkatının daha da genişlənməsinin perspektivləri barədə öz təkliflərini verib, müasir Azərbaycan gəncliyinin formalaşmasında könüllülüyün rolundan bəhs ediblər. Çıxışlarda BDU-da bu istiqamətdə həyata keçirilən layihələrdən söz açılıb.

Qeyd edək ki, layihənin keçirilməsində məqsəd tələbələrin Azərbaycan Könüllü Təşkilatları İttifaqına üzv olan təşkilatlar barədə məlumatlandırılması, könüllü fəaliyyətin tələbə gənclər arasında təbliğidir.

# 5 Dekabr - Beynəlxalq Könüllülər Günüdür

***BMT Baş Assambleyasının 1985-ci il dekabrın 17-də qəbul etdiyi qətnaməyə əsasən, hər il dekabrın 5-i dünyada "İqtisadi və sosial inkişaf naminə Beynəlxalq Könüllülər Günü" kimi qeyd olunur.***

Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Könüllü kimi çalışan şəxs cəmiyyətə töhfə verməklə yanaşı, öz inkişafına dəstək olur, müxtəlif və fərqli problemlərin həllində yaxından iştirak edir. Könüllü fəaliyyət göstərmək çox böyük üstünlüklər verir. Peşəkar təcrübə baxımından insan könüllü fəaliyyət göstərən zaman öz sahəsinin mütəxəssisinə çevrilir və könüllü fəaliyyəti müddətində qazandığı bilik və bacarıqlardan gələcək karyerasında da istifadə edir.

Müstəqil Azərbaycan Respublikasında könüllülük sahəsində əsl inkişaf Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Dahi öndərin ölkəmizə rəhbərliyinin ilk illərindən hərtərəfli və davamlı inkişaf məqsədilə dövlət və özəl sektor, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanılıb. 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT-nin İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. 1998-2000-ci illərdə bu proqramın nəticəsində Azərbaycanda güclü könüllü komanda yaradılıb və könüllülük prinsiplərinin geniş auditoriyada təbliğinə start verilib.

XXI əsrin əvvəllərində Prezident İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə ölkəmizin dinamik və hərtərəfli inkişafında könüllülük fəaliyyəti mühüm önəm daşımağa başlayıb. 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" Qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynayıb. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoyub.

Azərbaycan Respublikasının Prezidentinin bu sahəyə diqqəti, qayğısı və fəal dəstəyi könüllülüyün bugünkü yüksək inkişaf səviyyəsinə çatmasını təmin etməklə yanaşı, gənclər üçün yeni fürsətlər yaradıb. Xüsusilə son illərdə Azərbaycanın ev sahibliyi etdiyi "Avroviziya-2012" mahnı müsabiqəsi, 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları və digər mötəbər beynəlxalq tədbirlərin təşkilinə ümumilikdə on minlərlə könüllü cəlb olunub. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda, təcrübəli könüllü bazası formalaşıb.

Ölkəmizdə könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusilə vurğulamaq lazımdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində qeyd olunan mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradılıb, onların əməyi yüksək qiymətləndirilib.

2020-ci ilin "Könüllülər ili" elan edilməsi dövlətimizin, Prezidentimizin gənclərə diqqət və qayğısının daha bir bariz nümunəsi oldu. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev onların iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında önə çəkilməsini, bütün dövlət qurumlarına könüllülərin cəlb olunmasını tövsiyə edib. Dövlətimizin başçısının bu tövsiyəsi Azərbaycanda könüllülük hərəkatının inkişafına əlavə təkan verib. Bu tövsiyədən irəli gələrək müxtəlif dövlət qurumlarına könüllülərin cəlb olunmasına başlanılıb və bu iş uğurla davam etdirilir. Sevindirici haldır ki, könüllülərimiz ölkə həyatının bütün sahələrində fəal iştirak etməklə mühüm proseslərdə rol oynayırlar.

Azərbaycan könüllüləri üçün ən həlledici sınaqlardan biri də 44 günlük Vətən müharibəsi oldu. Məhz yüzlərlə könüllü Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Ordusunun sıralarına yazılaraq torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda döyüşlərə atıldılar. Könüllülərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Bu gün hər birimiz fəxr edirik ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı və qələbə əzmi, xalqımızın mətanəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Azad edilən torpaqlarımızda həyata keçirilən quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində könüllülərin də iştirakı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan könüllülərinin ölkə həyatında yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə bağlılığı könüllü gənclərimizin bu prosesdə də fəal iştirak edəcəklərini deməyə güclü əsas yaradır. Artıq "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin tərkibində "Qarabağ Könüllüləri" Klubu fəaliyyətə başlayıb. Klubun məqsədi Qarabağ könüllülərini birləşdirmək, Qarabağa qayıdış prosesində, quruculuq və bərpa işlərində keçirilən aksiyalarda könüllü dəstəyini göstərməklə yanaşı, onların şəxsi inkişafına, gələcək fəaliyyətlərinə təkan verməkdir.

Bakı Dövlət Universitetinin tələbələri də könüllülük hərəkatına mühüm töhfələr veriblər. 2019-ci ildən fəaliyyət göstərən "BDU könüllüləri" qrupu hazırda öz ətrafında 1000-dən çox könüllü tələbəni birləşdirir.

Qrup 2020-ci ildən başlayaraq bir sıra uğurlu layihələr həyata keçirib, BDU-da könüllülük hərəkatının genişlənməsində, tələbə təşkilatları ilə birgə sosial və mədəni-kütləvi tədbirlərin təşkilində fəal iştirak edib. Pandemiya dövründə əməkdaş və tələbələr arasında "COVID-19" xəstəliyi ilə mübarizə istiqamətində maariflendirmə işində, xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarətin həyata keçirilməsində, eləcə də tələbələrin onlayn dərslərə fəal qoşulmasının təşviqində xüsusi fəallıq göstərib.

Hazırda könüllü tələbələr BDU-nun müxtəlif struktur bölmələrində könüllü kimi fəaliyyət göstərməklə Universitetin ictimai həyatında fəal iştirak edirlər. Bu ilin ilk yarısında "BDU könüllüləri" qrupunun təşkilatçılığı ilə müxtəlif səpkili 47 tədbir keçirilib.

Universitetin könüllüləri həmçinin ölkəmizdə həyata keçirilən irimiqyaslı beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdə, sosial layihələrdə, humanitar aksiyalarda fəal iştirak etməklə respublikamızda uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz töhfələrini verirlər.

"BDU könüllüləri" könüllülük sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə, ölkəmizdə fəaliyyət göstərən digər könüllülər təşkilatları ilə əlaqələrin qurulmasına xüsusi diqqət yetirir. Eyni zamanda gənclər arasında könüllülüyün təşviqi və təbliği, könüllülük sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsinə səy göstərir.

*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi*

# "Dövlət qulluğunun üstünlükləri, cari vəziyyət və perspektiv planlar"



***Dekabrın 6-da BDU-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə "Dövlət qulluğunun üstünlükləri, cari vəziyyət və perspektiv planlar" mövzusunda təlim keçirilib.***

Təlimdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdir müavini Rauf Əliyev, şöbənin böyük məsləhətçisi Məhəmməd Novruzzadə, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Hüquq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Sosial elmlər və psixologiya fakültələrinin IV kurs tələbələri, magistrantlar iştirak ediblər.

Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov ali təhsil müəssisələrində dövlət qulluğunun üstünlükləri ilə bağlı maarifləndirmə işinin həyata keçirilməsinin əhəmiyyətindən danışıb. ƏƏSMN-in şöbə müdirinin müavini Rauf Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nda dövlət qulluğunun təbliği və təşviqi istiqamətində görülən işlər, layihələr barədə təlim iştirakçılarına məlumat verib.

Təlim tələbə və magistrantların mövzu ətrafında sualları ilə davam edib.

# Elmi araşdırmaların nəticələrinin beynəlxalq bazalarda təmsilinə dair seminar

***Dekabrın 7-də BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Magistratura və doktorantura şöbəsi tərəfindən "Gənc tədqiqatçılara dəstək" layihəsi çərçivəsində növbəti seminar keçirilib.***

"Elmi araşdırmalar və onların nəticələrinin beynəlxalq elmi veri bazalarında təmsili" mövzusunda keçirilən seminarda BDU-nun Cəbr və həndəsə kafedrasının müdiri, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Səlimov məruzə edib.

Məruzədə elmi araşdırmaların "Web of Science" elmi verilər bazasındakı jurnallarda çapı və bu prosesdə qarşıya çıxan problemlərdən bəhs olunub. Qeyd edilib ki, gənc tədqiqatçıların elmi nəticələrinin bu jurnallarda çap olunmağa təşviqi məqsədəuyğundur. "Web of Science" jurnallarının SCIE, SSCI, SSCI, ESCI, Conference Proceeding, Book Citation, həmçinin bu kateqoriyaya daxil olmayan KCI (Cənubi Koreya), Russian SCI, Sci ELO (Latın Amerika, Portuqaliya, İspaniya, Cənubi Afrika) indeksləri haqqında geniş məlumat verilib.

Seminar iştirakçıları "Web of Science" elmi verilər bazasındakı istinadlar (citations), təsir əmsalı (impact factor), H-indeks və Publons rəyləri ilə bağlı məlumatlandırılıb. Son bir ildə "Web of Science"da yeni "Journal Citation Indicator" sistemininin tətbiq olunması haqqında danışılıb, onun təsir əmsalı ilə əlaqəsi verilib. Qeyd olunub ki, Azərbaycandan "Web of Science" bazasına hazırda 8 jurnal daxildir, onlardan 2-si SCIE, 4-ü indikatorlu ESCI, 2-si isə indikatorsuz ESCI jurnallarıdır.

Magistratura və doktorantura şöbəsinin müdiri Mirnamik Bəşirov gənc alimlər üçün faydalı olan seminarın davamlı keçiriləcəyini bildirib.

# NADPH-əmələgətirən fermentlərin bitkilərin müdafiə sistemində rolu müzakirə olunub

***Dekabrın 12-də Biologiya fakültəsində "Bitkilərin NADPH-əmələgətirən fermentləri və onların bitkilərin müdafiə sistemində rolu" adlı elmi seminar keçirilib.***

Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müdiri, professor Ziyəddin Məmmədov mövzu ilə bağlı məruzə edib.

O qeyd edib ki, NADPH universal, yüksək enerjili metabolit olub, bir çox biosintetik proseslərdə, o cümlədən, yağlar, zülallar, nuklein turşuları, ikinci dərəcəli metabolitlər və bitkilərin müdafiə sisteminin fəaliyyətində mühüm rol oynayır. Orqanizmdə NADPH metabolitini sintez edə bilən cəmi bir neçə ferment mövcuddur. Bunlara dekarboksilləşdirici malatdehidrogenaza (DMDH və ya malik-ferment), qlükozo-6-fosfatdehidrogenaza (G6PDH), izositratdehidrogenaza (NADP-İSDH) fermentləri aiddir. Onlardan birincisi malatın, ikincisi qlükozo-6-fosfatın, üçüncüsü isə izositratın metabolizmində həlledici rol oynayır. NADPH molekulu hüceyrədə digər vacib funksiyalarla yanaşı, bitkilərin biotik və abiotik stress şəraiti tərəfindən yaranan fəsadların aradan qaldırılması üçün lazım olan oksigenin aktiv formalarının (OAF) sintezinin induksiyasını da həyata keçirir. OAF-ın əmələ gəlməsi prosesi NADPH-oksidaza fermentinin elektronları NADPH molekulundan molekulyar oksigenə ötürməsi ilə başlayır. Nəticədə superoksidanion radikalı yaranır, ondan isə müxtəlif fermentativ və qeyri-fermentativ sistemlərin cəlb olunması sayəsində oksigenin digər aktiv formaları əmələ gəlir. Bu birləşmələr içərisində mühüm əhəmiyyət kəsb edənləri multifunksionallıq xüsusiyyətinə malik hidrogen peroksid və azot oksid molekullarıdır. Onlar siqnal funksiyasını yerinə yetirməklə yanaşı, müxtəlif zülallarla birləşərək onların funksional aktivliyinə təsir göstərə bilirlər.

Seminarda bildirilib ki, NADPH-əmələgətirən fermentlərin ətraf mühitin ekstremal faktorlarına qarşı müdafiə reaksiyalarında iştirakı, bitkilərin belə şəraitə adaptasiyasının biokimyəvi əsaslarının müəyyənləşdirilməsi yüksək tolerantlığa malik bitki sortlarının alınması və məhsuldarlığın artırılmasında yardımçı material ola bilər. Ona görə də bu sahədə aparılan tədqiqatlar genişləndirilməli və onun nəticələri yeni və ekstremal şəraitə davamlı, məhsuldar sortlarım alınmasında tətbiq olunmalıdır.

Məruzəçi sonda seminar iştirakçılarının suallarını cavablandırıb.

# BDU-da nanohissəciklərin canlı aləmə təsiri müzakirə olunub

***Dekabrın 8-də Fizika fakültəsində "Nanohissəciklərin bitki və heyvan orqanlarında hərəkəti, lokalizasiyası və eliminasiyası" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Nanomaterialların kimyəvi fizikası kafedrasının dosenti, Nanoaraşdırmalar Elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi İsmət Əhmədov məruzə edib.

Məruzəçi müxtəlif nanohissəciklərin bitki və heyvan orqanlarında yerləşməsi və xaric olunması barədə məlumat verib. Qeyd edilib ki, nanohissəciklərin torpaqda yayılması, kök vasitəsilə və ya toxumlara nüfuz etməklə bitkilərin yerüstü orqanlarına, qida prosesində isə heyvanların orqanizminə düşməsi zəncirvari prosesdir. Bu prosesin hər sonrakı mərhələsində nanohissəciklərin miqdarı azalır. Əsas məsələlərdən biri də orqanizmə daxil olmuş nanohissəciklərin eliminasiyası, yəni xaric olunması məsələsidir. Tədqiqatların əsas məqsədlərindən biri də nanohissəciklərin təbiətdə yayılmasının canlı orqanizmlər və son nəticədə insanlar üçün nə qədər riskli olmasını müəyyən etməkdir. İsmət Əhmədov hazırda nanohissəciklərin tibb sahəsində uğurla tətbiq edildiyini, bu işlərin ərzaq istehsalında da öyrənilməsinin zəruriliyini nəzərə çatdırıb.

# “Klassik Azərbaycan mətbuatında siyasi mübarizənin əsas prinsipləri” adlı elmi seminar keçirilib

***Dekabrın 19-da Jurnalistika fakültəsində elmi seminar keçirilib. Giriş sözü ilə çıxış edən kafedra müdiri professor Cahangir Məmmədli doktorantın özü və elmi işi ilə bağlı seminar iştirakçılarını məlumatlandırıb.***

Mili mətbuat tarixi kafedrasının doktorantı Elmira Həsənova "Klassik Azərbaycan mətbuatında siyasi mübarizənin əsas prinsipləri" mövzusu ilə çıxış edib. O, sovet hakimiyyəti illərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar, kütləvi qırğın və zorakılıqların ciddi narahatlıq doğurduğunu qeyd edib. XX əsrin əvvəllərində Azərbaycanda demokratik yönlü mətbuat orqanlarından - "Kaspi", "Şərqi-Rus", "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin", "İqbal", "Açıq söz", "Azərbaycan" və s. qəzet və jurnallar ölkədə baş verən hadisələri, cəmiyyətdə gedən milli azadlıq proseslərini daha obyektiv və real şəkildə əks etdirdiyini vurğulayıb. Məruzəçi Azərbaycanın mütərəqqi fikirli ziyalılarının çarizmin mətbuata verdiyi güzəştlərdən yararlanaraq xalqın tərəqqisində mühüm rol oynayan sosial azadlıq məsələsinin də tez-tez gündəmə gətirildiyini diqqətə çatdırıb.

# Alim kənd təsərrüfatının optimal inkişafı üçün yeni yanaşmalar təklif edib

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Nəcibə Hacıyevanın "Azərbaycanda kənd təsərrüfatının inkişafına ssenari yanaşması" adlı məqaləsi "Web of Sience" bazasının Q3 kateqoriyasında indekslənən "Journal of Eastern European and Central Asian Research" jurnalında dərc olunub.***

Məqalədə sahələrarası balans modelini qurmaq və reqressiya təhlilindən istifadə etməklə Azərbaycan iqtisadiyyatının səmərəli diversifikasiyası üçün kənd təsərrüfatının inkişafının optimal ssenarisi əsaslandırılıb. Sənayenin cari inkişaf tendensiyalarının (innovativ, ətalət və balanslı) nəzərə alındığı məqalədə kənd təsərrüfatının optimal inkişaf ssenarilərinin müəyyən edilməsi üçün yanaşmalar təklif olunub. Balans modelindən istifadə Azərbaycan iqtisadiyyatının bütün sahələrinin inkişaf göstəriciləri arasında səbəb-nəticə əlaqələrinin hesablanmasına və kənd təsərrüfatının inkişafının milli iqtisadiyyatın şaxələndirilməsinə təsirinin hərtərəfli qiymətləndirilməsinə kömək edir. Məqalədə təklif olunan dəyişdirilmiş model klassik balans modelindən fərqli olaraq sənaye sahələrinin təkcə istehsal potensialını deyil, həm də onların neftdən asılılığının neytrallaşdırılması yolunda ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) formalaşdırılmasına və iqtisadiyyatın şaxələndirilməsinə töhfəsini qiymətləndirmək imkanlarını təmin edir.

# XXI əsrdə geoməkan məlumatları və kosmik informasiya infrastrukturuna dair elmi-praktik konfrans

***Dekabrın 6-da BDU və Azərbaycan Respublikasının Kosmik Agentliyinin (Azərkosmos) birgə təşkilatçılığı ilə Coğrafiya fakültəsinin Geodeziya və kartoqrafiya kafedrasının yaranmasının 50 illik yubileyinə həsr edilmiş "XXI əsr: Geoməkan məlumatları və kosmik informasiya infrastrukturu. İnnovasiyalar, səmərəli istifadə yolları" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***



Konfransın açılışında çıxış edən BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov Geodeziya və kartoqrafiya kafedrasının keçdiyi tarixi inkişaf yolundan, bütövlükdə bu elmin ölkənin iqtisadiyyatı, təhlükəsizliyi üçün strateji əhəmiyyətindən danışıb.

Geodeziya və kartoqrafiya kafedrasının müdiri Məqsəd Qocamanov "1972-ci ildən başlanan yol" adlı məruzəsində kafedranın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb. Bildirib ki, Geodeziya və kartoqrafiya kafedrasının yaranma tarixi 1972-ci ildən hesablansa da, əslində onun ilk bölməsi 1944-cü ildən formalaşmağa başlayıb. BDU-da Coğrafiya fakültəsinin yarandığı ildən geodeziya və kartoqrafiya fənləri tədris olunub və bu elm sahəsi üzrə ilk bölmə formalaşıb. 1974-cü ildən başlayaraq kafedrada Kartoqrafiya ixtisası üzrə ali təhsil proqramına uyğun mütəxəssis hazırlığına başlanılıb.

Konfransda Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya Dövlət Agentliyinin direktoru Nazim İsmayılov "Azərbaycanda geoməkan məlumatları infrastrukturunun yaradılmasında innovasiyalar" mövzusunda çıxış edib. O bildirib ki, geoməkan, eləcə də kosmik informasiya ölkə iqtisadiyyatının daha stabil və davamlı inkişafını təmin edən sahələrdəndir. Bu strateji sahələr dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası, vahid dövlət koordinat sisteminin təsbit olunması, ölkə ərazisinin xəritələşdirilməsi və s. mühüm məsələlərin həllində olduqca əhəmiyyətlidir. Təkcə onu qeyd etmək kifayətdir ki, 44 günlük Vətən müharibəsi zamanı düşmən obyektlərinin yerinin müəyyənləşməsi və vahid koordinat sistemində Pilotsuz Uçuş Aparatlarının (PUA) idarə olunması ilə düşmənin məhv edilməsi məhz kosmik və geoməkan məlumatlarından istifadə əsasında gerçəkləşib.

"Kosmik informasiyadan səmərəli istifadə yolları. Azərkosmos ASC-nin texniki imkanları" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Kosmik Agentliyinin (Azərkosmos) Coğrafi İnformasiya Sistemləri Mərkəzinin aparıcı mütəxəssisi Elman Ələsgərov bildirib ki, hazırda Yerin fiziki səthində yerinə yetirilən istənilən növ fəaliyyət zamanı ərazi haqqında dolğun informasiyanın əldə edilməsi qoyulmuş məsələnin uğurlu həlli üçün olduqca böyük rol oynayır. O, Azərkosmos tərəfindən yerinə yetirilmiş layihələr, kosmik şəkillərin ayırdetmə dəqiqliyi, texniki imkanları haqqında və bu sahədə kadr hazırlığı barədə məlumat verib.

Daha sonra çıxış edən Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun baş direktoru Zakir Eminov, akademik Qərib Məmmədov mövzunun önəmini, təbiət elmlərinin inkişafında geodeziya, kartoqrafiya və kosmik informasiyanın rolunu diqqətə çatdırıblar.

# Sənəd və informasiya menecmentinə dair Beynəlxalq elmi konfrans keçirilir

***Dekabrın 8-də Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 60 illiyinə həsr olunmuş "Sənəd və informasiya menecmenti üzrə kadr hazırlığı: üstünlükləri, perspektivləri" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib.*** Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyev misilsiz ictimai-siyasi fəaliyyəti ilə yanaşı, ölkəmizdə elm, təhsil, mədəniyyətin inkişafına əvəzsiz töhfələr verib. Rektor vurğulayıb ki, Ümummilli liderin qayğısı ilə əhatə olunan sahələrdən biri də kitabxana-informasiya fəaliyyətidir: "Ulu öndər hələ sovet dövründə Respublikamıza rəhbərlik etdiyi illərdə kitabxana işinə yüksək qiymət verib, bu sahənin inkişafı üçün mühüm addımlar atıb. Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sahənin inkişafı ilə bağlı həyata keçirdiyi uğurlu siyasət dövlətimizin kitabxanaçı peşəsinə verdiyi yüksək qiymətin bariz nümunəsidir".



Rektor ölkə əhalisinin informasiya təminatının ödənilməsində, bu sahə üzrə yüksəkixtisaslı kadrların hazırlanmasında aparıcı mövqeyə malik olan Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin tarixi, formalaşması, bu günü və perspektivlərindən bəhs edib. Bildirib ki, 1947/1948-ci tədris ilində BDU-nun Filologiya fakültəsinin tərkibində şöbə kimi fəaliyyətə başlayan kitabxanaçılıq ixtisası 1962-ci ildən müstəqil fakültə kimi fəaliyyət göstərir. Elçin Babayev vurğulayıb ki, bu gün kitabxana-informasiya fəaliyyəti sahəsində çalışanların qarşısında duran mühüm vəzifələrdən biri də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağımızda dağıdılmış kitabxana infrastrukturunun bərpasında iştirak etməkdir: "Bu mənada hesab edirəm ki, Kitabxanaçılıq-informasiya fakültəsinin məzunlarının üzərinə böyük məsuliyyət düşür". Elçin Babayev fakültənin kollektivini, tələbə və məzunlarını yubiley münasibətilə təbrik edib, konfransın işinə uğurlar arzulayıb.

Konfransın plenar iclasında Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, Mətbuat Şurasının sədri Rəşad Məcid, Türkiyə Respublikasının Kastamonu Universitetinin İnformasiya və məlumatların idarəolunması fakültəsinin dekanı, professor Hasan Kəsəroğlu, Özbəkistan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor İbrahim Yoldaşov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzininin direktoru Samir Abbasov, Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teshabayeva, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı, tədqiqatçı kitabxanaşünas Lemounes Nour El Houda Djoumana çıxış edərək sənəd və informasiya menecmenti, kitabxana-informasiya fəaliyyəti sahəsindəki prioritet məsələlərdən bəhs ediblər. Plenar iclasda BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov "Kitabxanaçılıq-informasiya fakültəsi: ənənədən müasirliyə" mövzusunda məruzə edib. Plenar iclasın sonunda Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Ələmdar Cabbarlı çıxış edərək tədbirin yüksək səviyyədə təşkilatçılığı üçün BDU rəhbərliyinə, qonaqlara, iştirakçılara fakültənin kollektivi və tələbələri adından minnətdarlığını bildirib.

Yekunda Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illiyi münasibətilə əməkdaşlara BDU rektorluğunun və Həmkarlar İttifaqı Komitəsinin təltifləri təqdim olunub.

Qeyd edək ki, Beynəlxalq konfrans işini bölmə iclaslarında davam etdirib. Dekabrın 9-da başa çatan konfransda ümumilikdə 40-a yaxın məruzə dinlənilib.

# "Müxtəlif ölkələrin fərqli təhsil sistemləri"

***Dekabrın 13-də Sosial elmlər və psixologiya fakültəsində "Müxtəlif ölkələrin fərqli təhsil sistemi" adlı tədbir keçirilib.*** Fakültənin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova qeyd edib ki, antik dövrdən indiyədək tarixin bütün dönəmlərində müxtəlif xalqlar fərqli təhsil sistemləri yaradıb. Təlim-tərbiyə metodlarının müxtəlifliyinə baxmayaraq, bu sistemlər təhsil institutunun inkişafına və onun daha da təkmilləşməsinə səbəb olub. Nəzakət Kərimova müxtəlif təhsil modellərinin müqayisəli təhlilini verməklə yanaşı, müasir dünyada gedən proseslərin təhsilə təsiri məsələlərdən də danışıb.

Fakültənin müəllimi Tutu Eyvazova hazırda respublikamızda insan kapitalının inkişafına istiqamətlənmiş böyük layihələrdən söz açıb, təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən danışıb. O, gənclərin dünyagörüşünün, əxlaqi-mənəvi keyfiyyətlərinin, habelə yaradıcılıq qabiliyyətlərinin formalaşmasında təhsilin böyük rol oynadığını qeyd edib.

Sosiologiya ixtisasının II kurs tələbələrindən Əli Həsrətov Burundi, Sevil Nənəcanova Norveç, Heydər Aslanov Kanada, Suğra Əkbərova Birləşmiş Ərəb Əmirliyi, Səbinə Məmmədova Finlandiya, Günel Quliyeva İtaliya, Rəsmiyyə Vəliyeva Nigeriya, Cavid Paşayev Şimali və Cənubi Koreya respublikalarının təhsil sistemləri, infrastrukturu, tədrisin keyfiyyəti, maliyyələşmə mexanizmləri barədə ətraflı məlumat verib, müqayisəli təhlil ediblər.

Fakültənin tələbəsi Uğur Məmmədzadə ərazisində müharibə gedən dövlətlərin təhsil müəssisələrindəki acınacaqlı vəziyyətlə bağlı hazırladığı slaydı tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, erməni təcavüzü nəticəsində dağıdılmış təhsil və mədəniyyət ocaqlarımız haqqında məlumat verib.

Tədbirin sonunda maraqlı çıxışları ilə fərqlənən tələbələrə kitab hədiyyə edilib.

# Beynəlxalq İnsan Hüquqları Günü qeyd olunub

***Dekabrın 7-də Hüquq fakültəsi və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr edilmiş tədbir keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Azərbaycanda insan hüquqlarının qorunması siyasətinin əsasının Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Bildirib ki, ölkədə insan hüquqları sahəsində ilk Dövlət Proqramı da məhz Ulu öndər tərəfindən təsdiqlənib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi insan hüquqları siyasəti artıq milli strategiya kimi formalaşıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva insan, xüsusilə də uşaq hüquqlarına xüsusi diqqət və qayğı göstərir.



Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova tədbir iştirakçılarına ədliyyə sahəsində insan hüquq və azadlıqlarının təmin edilməsi, müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərdən, yerli və beynəlxalq hüquq-müdafiə təşkilatları ilə əməkdaşlıqdan ətraflı bəhs edib.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə, Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov, Vəkillər Kollegiyasının sədr müavini Şahmar Məmmədov çıxışlarında bu sahədə qəbul edilən normativ hüquqi aktlar barədə məlumat verib, əhali arasında maarifləndirmə tədbirlərinin önəmini vurğulayıblar.

Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi Günay Hacıyeva tədbir iştirakçılarını insan hüquqlarına dair tədris prosesi ilə tanış edib. II kurs tələbəsi Cəfər Məmmədov Hüquq fakültəsi və Ədliyyə Nazirliyinin birgə həyata keçirdikləri "Ədliyyə ayı" çərçivəsində nazirliyin müxtəlif struktur bölmələrinin fəaliyyəti ilə tanışlığa şərait yaratdığına görə ədliyyə naziri Fikrət Məmmədova tələbələr adından təşəkkürünü bildirib.

Tədbirin sonunda fakültə tələbələrinin Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə hazırladıqları videoçarx nümayiş etdirilib.

# "Zəfərə aparan yol" mövzusunda dəyirmi masa keçirilib

***Dekabrın 23-də BDU-da "Zəfərə aparan yol" mövzusunda dəyirmi masa keçirilib.***

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, dövlətləri tanıdan onların mədəniyyəti, təbii sərvətləri ilə yanaşı, dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərdən biri də tarixə adını "Tarix yazan Sərkərdə" kimi həkk etdirən Müzəffər Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir: "Azərbaycan xalqı çox xoşbəxtdir ki, Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır. Son 19 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi münasibətlərin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Əminliklə söyləmək olar ki, xalq-iqtidar birliyi, hakimiyyətin həyata keçirdiyi siyasətin xalqımız tərəfindən dəstəklənməsi sayəsində bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik indeksinə görə Azərbaycan regionda ilk sıralarda qərarlaşıb. Prezident İlham Əliyevin balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasəti nəticəsində 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilib. 2019-cu ildən etibarən 2022-ci ilə qədər Azərbaycan Respublikası BMT-dən sonra ikinci ən böyük beynəlxalq platformaya sədrlik edir. Ölkəmizin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi də tarixi hadisədir. Azərbaycanın şanlı tarixinə öz adını qızıl hərflərlə yazan Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli daxili və xarici siyasətin öz bəhrəsini verməsi qürurvericidir".



Rektor qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz tarixi missiyasını şərəflə yerinə yetirərək işğal olunmuş torpaqları düşməndən azad etdi: "44 günlük müharibə ərzində Azərbaycan regionda yeni siyasi reallığın müəllifi kimi bir daha sübut etdi ki, ölkəmizlə heç zaman güc dilində danışmaq, ona hansısa şərtləri diqtə etmək qeyri-mümkündür. Artıq qalib ölkə olan Azərbaycan Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə nəhayətsiz quruculuq işlərinə başlayıb.

Bu gün Şuşada, Ağdamda, Füzulidə və Qarabağın digər rayonlarında həyata keçirilən bərpa-quruculuq tədbirləri hər kəsdə tükənməz qürur və məmnunluq duyğusu yaradır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlətimizə başçılıq etdiyi illər mühüm hadisələr, faktlar və rəqəmlərlə zəngindir. Bu illərin hər biri dövlətçilik tariximizin hər bir azərbaycanlıya qürur hissi yaşadan şanlı səhifələridir. Əminik ki, bundan sonra da hələ uzun illər Prezident İlham Əliyevin müdrik rəhbərliyi və uzunmüddətli strateji perspektivlərə hədəflənən fəaliyyəti sayəsində Azərbaycanın dayanıqlı və dinamik inkişafı təmin ediləcək, ölkəmiz daha parlaq sabahlara doğru yürüyəcək".

Daha sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çoxşaxəli fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Zəfərə aparan yol öz başlanğıcını Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən götürür. Azərbaycanın siyasi, iqtisadi, hərbi qüdrətinin təməlləri məhz Ulu öndərin hakimiyyətdə olduğu illərdə qoyulub. Bu Zəfərin yolu özünüdərkdən, milli-mənəvi dəyərlərə sahib çıxmaqdan, keçmişi qorumaqla gələcəyə əmin addımlarla irəliləməkdən, dövlətçilikdən, xalqın birliyindən keçib. Bu Zəfər yolu bizi yeni zəfərlərə çatdıracaq.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov isə hüquqi dövlət quruculuğunun şanlı Zəfərimizdə rolundan bəhs edib. Bildirib ki, Ulu öndərin təməlini qoyduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasətin, əzmkarlığın, dəmir iradənin nəticəsində Azərbaycan 30 il sonra Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur edib.

Daha sonra Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Azərbaycan milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi", Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev "Şanlı Zəfərimiz", Fizika fakültəsinin dekan müavini Məhəmməd Məhərrəmov isə "Tarixə adını yazdıran Sərkərdə" mövzularında çıxışlar ediblər. Çıxışlarda Prezident İlham Əliyevin Ulu öndər Heydər Əliyevin tarixi missiyasını uğurla daşıdığı diqqətə çatdırılıb, Azərbaycanı yeni zəfərlərə doğru aparacağına əminlik ifadə olunub.

# Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyi münasibətilə konsert proqramı



***Dekabrın 27-də BDU-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqi sənəti fakültəsinin təşkilatçılığı ilə görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunub.***

Konsertdən öncə BDU-nun Kimya fakültəsinin II kurs tələbəsi Səbinə İbrahimxəlilovanın "Yeddi gözəl" adlı sərgisinə baxış keçirilib.

Musiqişünas Vəfa Abbasova dahi bəstəkarın həyat və yaradıcılığı barədə danışıb. Bildirib ki, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simalarından olan Fikrət Əmirov musiqinin bütün janrlarında çox dəyərli sənət əsərləri yaradıb. Onun əsərləri musiqi tariximizin parlaq səhifələridir.

Daha sonra konsert proqramı təqdim olunub. Xalq artistləri Gülyaz Məmmədova, Gülyanaq Məmmədova və Teyyub Aslanovun (xanəndə) ifasında bəstəkarın "Odlar ölkəsi", "Azərbaycan elləri", "1001 gecə" baletindən duet - "1001 gecəni düşünərkən", "Gülüm" romansı, "Bulaq başında", "Böyük dayaq" kinofilmindən "Pərişanın mahnısı", "Aşıqsayağı", "Sevil" operasından "Balaşın mahnısı", "Fantaziya", "Reyhan", "Laylay", "Kor ərəbin mahnısı", "Baharımsan", "Gözəlim sənsən", "Mən səni araram", "Aslanın mahnısı" və "Gözün aydın" musiqili komediyasından "Rəqs" adlı musiqi əsərləri təqdim edilib.

# Fiziki məhdudiyyətli tələbə və müəllimlərin uğur hekayələri

*3 dekabr "Beynəlxalq Əlillər Günü"dür. Təhsildə sağlamlıqlarının yaratdığı məhdudiyyətlərə baxmayaraq, məqsədinə çatanlar çoxdur. "Azərbaycan müəllimi"nin də bu səhifəsinin qonağı məhz onlardır, məhəccərsiz pilləkanı təkbaşına çıxa bilməyib, təhsildə pillə-pillə yüksələnlər...*

## "İdmançı üçün təhsil rəqibindən 1-0 öndə olmaq deməkdir"




***Binəqədi rayonu Biləcəri qəsəbəsində yaşayan Zeynalovlar ailəsində bir körpə dünyaya gəldi. Adına Talib dedilər. İstədilər ki... Ata-ananın istəyi, arzusu bitməz, tükənməz. Hərbçi atası oğlu üçün nə xəyallar qurdu. Halbuki 10 günlük körpəsini əməliyyat etdirmək onların arasında yox idi.***

Artıq tələbə olan bu cavan oğlan Talib Zeynalovdur. Bakı Dövlət Universitetinin Tarix fakültəsində oxuyur. İlk təhsilinə 284 nömrəli tam orta məktəbdə başlayıb. VIII sinifdən təhsilinə 314 nömrəli tam orta məktəbin şagirdi olaraq evdə davam edib. Məktəbin müəllimləri 7-8 nəfər sağlamlıq imkanları məhdud uşaq kimi ona da evdə dərs deyib.

Məktəb illərində də əməliyyatları davam edib. Ard-arda keçirdiyi 4 əməliyyat onu dizində yaranan qığırdaq çürüməsi problemindən xilas etməyə yetməyib və II qrup əlilliyinə qədər gətirib çıxarıb: "Dördüncü əməliyyatım Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə 2017-ci ildə oldu. Beşinci dəfə də əməliyyat olunmalıyam".

Talib xəstəliyi ilə mübarizə şəraitində həyata tutunmağı, dizində taqət olmadan da ayaqda qalmağı öyrənib. Sadəcə ayaqda qalmağımı? O, hətta ağırlıq qaldıraraq çempion olub.

2019-cu ildən parapauerliftinq üzrə yarışlara qatılmağa başlayıb. Yarışlarda qalib olmağı öyrənib, öz rekordunu özü təzələyib: "Bu idman növü ilə məşğul olmağa başlayandan az sonra məşqçim İlqar İbişov mənim bacarığımı gördü və qiymətləndirdi. Qısa zamanda onun qoyduğu tələbi artıqlaması ilə yerinə yetirirdim. Məşqçimin üzərimdəki əməyini hər zaman qiymətləndirirəm. Yarışlara da məni o hazırladı, o çıxardı. İndiki baş məşqçimiz Elşən Hüseynov isə zalda məşqimi görüb bacarığımı qiymətləndirdi və fiziki məhdudiyyətli olduğuma görə məni Paralimpiya Kompleksinə dəvət etdi".

Yarışlara da elə bu idman növü ilə məşğul olmağa başladığı ildən qatılıb. Biləyinin gücünü məşqçilərinin istiqamətləndirməsi ilə ilk dəfə Uşaq Paralimpiya Oyunlarında sınayıb və V Uşaq Paralimpiya Oyunlarının qalibi olub. Növbəti yarışda pandemiya bitdikdən sonra iştirak edib. Bu iştirak da ona qələbə gətirib və növbəti Uşaq Paralimpiya Oyunlarında 15-17 yaşlılar arasında birincilik qazanıb. Hələlik sonuncu uğuru 2 ay əvvəl - sentyabrın 24-28-də Gürcüstanda keçirilən Açıq Avropa Çempionatına aiddir. Talib əvvəlcə 151 kilo qaldıraraq rus idmançısının, sonra isə 158 kilo ilə özünün rekordunu yeniləyərək yenə birincilik əldə edib. Çempionatın "107+" kateqoriyasında gənclər arasında çempiondur. Yarışdan vətənə 4 qızıl medalla qayıdıb. Ona 2 medal birinciliyinə, 2 medal da rekordlarına görə verilib. Sumqayıt şəhərindəki Paralimpiya Kompleksində məşqlərə davam edir və 2023-cü ildə keçiriləcək dünya çempionatına hazırlaşır. Paralimpiya Komitəsi nəzdində fəaliyyət göstərən milli yığmanın üzvü olan Talib üçün parapauerliftinq, sadəcə bir məşğuliyyət, əlavə bacarıq deyil, əsas məqsəd, hədəf, gələcək deməkdir.

Bəs, universitet? Talibin sözlərinə görə, tarix də onu çox maraqlandırır. Amerikaşünaslıq ixtisasını seçib, çünki Amerikaya marağı elə tarixə olduğu qədərdir. Amerikada olmaq, orda yarışmaq xəyallarından biridir: "Tarixi mənə tarix müəllimim sevdirib, Ramal müəllim. X sinifdə oxuyurdum tarixə marağım yarananda. Elə bu maraq da universitet və ixtisas seçimimə təsir etdi. Gələcəyimi idmanla bağlamaqda qərarlı olsam da, təhsilin hər kəs üçün önəmli olduğunu bilirəm. Hələ idmançı üçün təhsil rəqibindən 1-0 öndə olmaq deməkdir".

Talib, sadəcə özü üçün yaşayan, uğur qazananlardan deyil: "Olduğum ortamlarda mənim kimilərə diqqət edirdim. Xüsusən bərpa mərkəzində mənim kimi, hətta məndən daha ağır vəziyyətdə olanlarla tanış oldum. Hər şeydən əlini, həyatdan ümidini üzənləri gördüm. Təhsilim, uğurlarım başqalarına da ümid olsun istəyirəm, insanlar mənə baxıb özünün də qazanacağına inansın. Çalışıram başqaları üçün motivasiya mənbəyi olum".

## "Məktəbi, şagirdlərimi heç nəyə dəyişmərəm"



***Elnarə Ramazanovanın bəxti o hələ ana bətnində olanda gətirməyib: "Anam hamiləykən bərk qorxu keçirib və bu, ana bətnində serebral iflic keçirməyimə səbəb olub. Sonra doğuş zamanı problem yaranıb və ayağımda çıxıq əyripəncəliklə nəticələnib".***

Bu qədər ağır zərbələrdən sonra yeriməsi 3 yaşına, oxumağa başlaması isə 9 yaşına çəkib. Məktəbə də təsadüfən gedib: "Atamın maşını yox idi. Hər gün məni məktəbə aparıb-gətirə bilməyəcəkdi. Həm də düşünüblər ki, qızam, oxumağıma ehtiyac yoxdur. Evimizin yaxınlığında mənim kimi uşaqlar üçün şəraiti olan bir məktəb olduğundan da xəbərsiz olublar. Bir gün anamla mənə ayaqqabı almağa getmişdik. Sənubər adlı müəllimlə təsadüfi qarşılaşmağımız mənim həyatımı dəyişdi. İndiki kimi yadımdadır. O oxumağımla maraqlandı. Oxumadığımı eşidəndə anama internatda mənim kimilər üçün şərait olduğunu dedi və valideyinlərim məni həmin 16 nömrəli internata qoydular".

V sinfə kimu orda oxuyan Elnarə Ramazanova bir gün eşidib ki, sevimli riyaziyyat müəllimi işdən çıxıb: "Evdə ağlayıb israrla artıq o məktəbə getmək istəmədiyimi dedim. Çünki mən də qardaşımın oxuduğu məktəbdə təhsil almaq istəyirdim. Riyaziyyatım əla idi, dərslərimi yaxşı oxuyurdum. Məcbur olub anam məni internatdan çıxarıb Şüvəlandakı məsafəcə daha uzaq məktəbə - İlqar Muradov adına 237 nömrəli məktəbə apardı. Direktor əvvəlcə sağlamlıq imkanlarımın məhdud olduğunu nəzərə alıb məni məktəbə götürmək istəmədi. Yolun məni yoracağını düşünürdü. Sözümdən dönmədiyimi görüb güzəştə getdi. Amma sənədlərimi götürmədi, yorulub məktəbə getməkdən imtina edib-etməyəcəyimi gözləmək qərarına gəlmişdi. Amma mən yorulmadım və onu məni həmin məktəbə qəbul etməyə məcbur etdim".

Bir göz qırpımında axan zaman onu yox, ailəsini yenidən çətin qərar qarşısında qoyub. 11 il əvvəl məktəbə qoymağa üşəndikləri qızı bu dəfə universitetə göndərməyə tərəddüd edirdilər. Yenə onları düşündürən əsas amil bu qızın universitetə necə gedəcəyi idi...

Onlar bilmirdilər, amma o qız özü bilirdi nə istədiyini, müəllim olacaqdı. Bu dəfə də israr etdi və qalib gəldi. Bu qələbəsində ən böyük təkanı isə müəllimləri verdi. Dediyinə görə, xüsusən fizika müəlliminin atası ilə söhbəti təsirli olub: "Fizika müəllimim atamla danışdı. Dedi ki, bu qızın oxumaqdan, təhsil alaraq bir peşəyə yiyələnməkdən başqa çarəsi yoxdur. Öz ayaqlarım üstündə dura bilməyim üçün bunun vacib olduğunu atama izah edərək, onu razı saldı". Hardan biləydilər ki, "Qızdır, oxumağına o qədər də ehtiyac yoxdur", deyib məktəbə belə göndərmədikləri o qız taleyini məktəblə bağlayacaq, minlərlə qıza təhsil verəcək? "Yol yorğunu olar", - deyib yaxınlıqda məktəb axtardıqları Elnarə böyüyüb müəllimlikdə illərdir davam edən uzaq yol yolçusu olacaq?

Bu yol Qala qəsəbəsindən başladı. Azərbaycan Dövlət Pedaqoji Universitetində "Fizika müəllimliyi" ixtisası üzrə bakalavr təhsilini tamamlayıb 2003-cü ildən fizika müəllimi kimi işə başlayan Elnarə Ramazanova dərs demək üçün əvvəlcə Qala qəsəbəsinə gedib: "92 nömrəli tam orta məktəbdə işləyə-işləyə magistraturaya qəbul olundum. Səhər saat 8-də məktəbə gedirdim, 2 saat sonra universitetə".

"Universitetdə müəllimlərim qalıb təhsilimi davam etdirməyimi, orda işləməyimi istəyirdilər, amma mən məktəbə qayıtdım, çünki məktəbi, şagirdlərimi heç nəyə dəyişmərəm".

İlk dərs gününü, ilk dəfə dərs keçdiyi sinfin şagirdlərini də xatırlayır: "Həmin sinfə məni direktor müavini təqdim etdi. O gündən şagirdlərimlə bir-birimizi sevdik. Onlarla əlaqələrim indi də davam edir. Mənimlə danışır və mənə "Nə yaxşı ki, bizim müəllimimiz olmusunuz", - deyirlər. Aralarında xaricdə təhsil alanlar belə var".

Elnarə müəllim hazırda Şüvəlandakı 230 nömrəli tam orta məktəbdə işləyir. Dünyaya öyrətmək üçün gəldiyinə inanır: "Sevgini qazanmaq çətindir, amma qazanandan sonra şagird-müəllim münasibətləri asanlaşır. İnsan bu dünyaya gəlişinin səbəbini anlayanda xoşbəxt olur, deyirlər. Mən dünyaya öyrətmək üçün gəlmişəm. Uşaqları öyrətməkdən zövq alır, onların öyrəndiklərini, nəticələrini görüb qürur duyuram. Uşaqlıqdan müəllim olmağı arzulamışam. Amma indi görürəm ki, sadəcə müəllim yox, sinifdə həm də bir mühəndis, həkiməm. Şagirdlərim hansı ixtisasa qəbul olunsa, özümü həmin ixtisasda təhsil alırammış kimi hiss edirəm".

Elə bir bağ qurub ki, bu sayədə şagirdləri onu fərqli görmür, o şagirdlərinin baxışında öz fərqini anlayır: "Hər dəfə mühitimi dəyişəndə ilk 2-3 ay həyatımın ən çətin dövrü olub. Adaptasiyamı çətinləşdirən isə üzərimdə hiss etdiyim baxışlar idi. Hamı mənə birtəhər baxırdı. Məktəb dəyişəndə, universitetə gedəndə bu münasibəti hiss etdim. Hələ də ilk dəfə dərsinə girdiyim şagirdlərimin qəribə baxışları ilə qarşılaşacağımı düşünürəm. Amma görürəm ki, bu, mənə belə gəlir, uşaqların üzündə qəribə baxışları görmürəm. Əksinə, valideynlər uşaqlarına məhz mənim dərs deməyimi istəyir, bunu da uşaqların məni sevməyi ilə əsaslandırırlar. Bunu eşitmək qədər xoşbəxt olduğum başqa bir şey yoxdur".

Elnarə müəllimin indi ən böyük çətinliyi binalarda məhəccəri olmayan pilləkanlardır: "Tutub qalxmağa məhəccər olmayan pilləkanlarda məcbur olub dayanıram. Hər dəfə kimdənsə kömək ummağa utanıram".

Karyera pilləsində də daha yuxarı pillələrə qalxmaq keçir könlündən: "Fiziki məhdudiyyətim üzündən Şüvəlandan kənara çıxa bilmirəm. Çünki artıq avtobusa minib-düşə bilmirəm. Halbuki təlimlərə qatılmaq, seminar və konfranslarda iştirak etmək, yeniliklərdən xəbərdar olmaq istəyirəm. Müəllim daim inkişaf etməlidir, axı".

Kitab oxumağı sevir, dünya ədəbiyyatını mütaliə edərək dincəlir. Ən böyük arzularından biri də məhz bununla bağlıdır: "Evim balacadır, bunu edə bilmirəm, amma ən böyük arzum evimdə şəxsi kitabxanamın olmağıdır".

# "Əlillik şagirdlərimi sevməyimə əngəl yaratmır"



***2007-2009-cu illərdə xərçəng xəstəliyi ilə mübarizə apardım. Xərçəngi yendim, amma bu qələbə mənə ayağım bahasına başa gəldi. Həkimlər "Xilas olmaq istəyirsənsə, ayağın amputasiya olunmalıdır", - deyəndə, sanki dünya başıma fırlandı, mənən çökdüm, çox pis oldum.*** Amma çarə yox idi. Yaşamaq üçün bu itkini gözə almalı idim. 2009-cu ilin dekabrında əməliyyat olundum. Gözümü açanda yanımda yaxınlarımla yanaşı, iş yoldaşlarımı, dostlarımı, sevənlərimi, bütün sevdiklərimi gördüm. Mən nikbin insanam, o günlərdə hamıya təsəllini də mən özüm verdim. Sevgi ilə bəsləndim, ondan güc alıb ayağa qalxdım. Düz 6 ay sonra, "Son zəng" günü "yeni ayağımla" yenidən şagirdlərimin yanında idim".

Bu da Xətai rayonu M.Hacıyev adına 116 nömrəli tam orta məktəbin müəllimi Nərmin Əhmədovanın həyatını dəyişən xatirə, həyatına II qrup əlil olaraq davam etməsinin səbəbi olan hekayə. Bəlkə həyatını dəyişib, amma müəllimliyini, müəllimliyə münasibətini, şagirdlərinə sevgisini dəyişə bilməyib bu hadisə. Sağlamlığı məhdudlaşıb, dünyaya baxışı yox. Yenə hər gün evindən məktəbə getmək üçün çıxır, eyni həvəslə məktəbə tələsir, sevimli şagirdlərinə bilik verir, xarici dil bacarığı aşılayır.

1983-cü il doğumlu müəllimin məktəblə ilk tanışlığı Xətai rayonundakı 269 nömrəli təhsil müəssisəsindən başlayıb. Hərfi, rəqəmləri də, elə özünü də burada tanıyıb. 1999-cu ildə məktəbi bitirib statusunu dəyişib. Təhsilə tələbə olaraq davam edib. Azərbaycan Dillər Universitetinin İngilis dili filologiyası fakültəsində bakalavriatı uğurla tamamlayıb və məktəbə qayıdıb. Bu dəfə müəllim kimi: "2003-cü ildə universitetdən məzun olar-olmaz müəllim kimi fəaliyyətə başladım. Düz 20 il əvvəl idi. İlk dəfə sinfə girdiyim an belə yadımdadır. Çox həyacanlı idim. Necə həyəcanlanmayım?! O günü xatırlayanda indi də eyni hissləri yaşayıram. Çünki müəllimliyi ilk günkü həyəcanla sevirəm".

Onu bu məktəbə bağlayan sevgi, yalnız özünün müəllimliyə olan həvəsi olmayıb. Eyni istiliyi həmkarlarından da alıb. Məktəbin daha təcrübəli müəllimləri 20 yaşlı müəllimə öz çətin peşəsinin öhdəsindən gəlməkdə hər cür kömək ediblər. Sevərək ona sevib-sevilməyi, öyrədə-öyrədə öyrənməyi öyrədiblər: "Aldığım peşəkar dəstək sayəsində mən də özümü şagirdlərimə sevdirməyi bacardım. Hər birinin hörmətini, sevgisini qazandım. Sevgidən ürəklə danışıram, çünki sevildiyimə əminəm. Əminliyimi isə xəstəliyim təmin etdi. Bu sevgi sayəsində amansız xəstəliyə qarşı müqavimət göstərə bildim, bu sevgi itirdiyim ayağımı əvəz etdi".

Hiss etdiyi sevgi bəzən əlil olduğunu belə unutdurur ona. Kurslarda, seminarlarda iştirak edir. Şagirdləri üçün özünü inkişaf etdirir. Bu məqsəd üçün hətta İngiltərəyə belə gedib çıxıb: "2015-ci ildə Təhsil Nazirliyi və British Council-ın təşkilatçılığı ilə İngiltərədə Canterbury Christ Church Universitetində "Teacher Developing" təlimdə iştirak etdim. Bu təlim mənə bir çox üstünlüklər qazandırdı, bir çox yeniliklərdən xəbərdar oldum".

Müəllimlərlə peşəkar səfərə o qədər uzağa getsə də şagirdləri ilə qısamüddətli, qısaməsafəli planlar cızır: "Şagirdlərimi çox sevirəm, məktəbdən əlavə də onlarla vaxt keçirirəm. Təbiət qoynuna ekskursiyalara, kinoya, tədbirlərə gedirik. Əlillik onlarla vaxt keçirməyimə, şagirdlərimi sevməyimə əngəl yaratmır".

O, yaşadığı ömrün fərqindədir. Bu, bir müəllim ömrüdür: "İnanıram ki, mənim hekayəm də çoxlarına stimul olacaq, onları ruhlandıracaq" , - deyən Nərmin müəllimin özünə ən böyük arzusu nədir, bilirsiniz?

"Peşəmi çox sevirəm. Hərdən zarafatla yoldaşlarıma deyirəm, düz 34 ildir ki, sentyabr səhəri durub məktəbə gedirəm, 10 il orta məktəbə şagird kimi, 4 il ali məktəbə tələbə kimi, 20 ildir ki, müəllim kimi. Bundan sonra da sağlam canla məktəbə getmək ən böyük arzumdur".

Bu böyük arzunu yaşadan, ildən-ilə böyüdən isə yenə də sevgidir, şagirdlərinə, bir də X sinifdə oxuyan məktəbli oğluna olan böyük sevgisi.

**Ruhiyyə DAŞSALAHLI**
*"Azərbaycan müəllimi" qəzeti*
02.12.2022

# "21 Azər hərəkatı"na həsr olunmuş dəyirmi masa keçirilib

***Dekabrın 21-də BDU-da "21 Azər hərəkatı"na həsr olunmuş dəyirmi masa keçirilib.***



Tədbirin moderatoru, akademik Rafael Hüseynov qeyd edib ki, hər bir xalq üçün dövlət müstəqilliyindən, istiqlaldan qiymətli heç nə yoxdur. Azərbaycan xalqı bu istiqlaliyyəti 1918-ci ildə qazanıb və 1991-ci ildə yenidən bərpa edib. Dövlət müstəqilliyinin qorunması və möhkəmlənməsi isə Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sayəsində mümkün olub. Məhz bu iki liderin misilsiz xidmətləri sayəsində Azərbaycanın dövlət müstəqilliyi hər keçən gün daha da möhkəmlənir və dönməz xarakter alır. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi Arazın o tayında da davam edib. Yaradılmasının 77-ci ildönümünü qeyd etdiyimiz "21 Azər hərəkatı" məhz Səttarxanın "Məşrutə inqilabı" və Şeyx Məhəmməd Xiyabaninin "Azadıstan" milli hökumətinin məntiqi davamı idi. Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi bu hərəkatın milli mübarizə tariximizdə önəmli yeri var. Cəmi bir il ərzində Azərbaycan Milli Hökuməti öz milli bayrağını, himnini qəbul etdi, qadınlara da səsvermə hüququ verdi, müstəqil parlamentini yaratdı, ana dilində 3000-dən çox məktəb, Azərbaycan Radioverilişləri Agentliyini, Təbriz Dövlət Universitetini açdı. Bu mübarizə ruhunun hazırda da davam etdiyini qeyd edən Rafael Hüseynov diqqətə çatdırıb ki, İrandakı 46 milyonluq azərbaycanlının taleyi hər birimizi düşündürür.

BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti Ələmdar Şahverdiyev "Cənubi Azərbaycanda "21 Azər hərəkatı" tarixindən" adlı məruzə edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündəki çıxışında İran islam Respublikasının ərazisində yaşayan 40 milyon azərbaycanlının öz ana dilində təhsil almaqdan məhrum olduğuna etirazını bildirib və gələcəkdə bu problemin həllinin Azərbaycan dövlətinin diqqətində olacağını bəyan edib. Bu bəyanat bölünməz, vahid Azərbaycan məfkurəsinin yol xəritəsidir. "21 Azər hərəkatı"nın səbəbləri, tarixi kökləri barədə məlumat verən natiq qeyd edib ki, bu hərəkatın ilk mərhələsi 1939-cu ildən 1942-ci ilə qədər dövrü əhatə edir. Həmin mərhələdə Azərbaycan Kommunist Partiyası MK-nın III katibi işləmiş görkəmli dövlət xadimi Əziz Əliyevin rəhbərliyi altında göndərilmiş heyətin Cənubi Azərbaycanda milli ictimai şüurun formalaşmasında müstəsna xidmətləri olub. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə 1945-ci il dekabrın 12-də yaradılan Cənubi Azərbaycan hökuməti bir il fəaliyyət göstərməsinə baxmayaraq milli-azadlıq hərəkatı tarixində xüsusi iz buraxıb.

BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti Sevda İsmayılova isə "21 Azər hərəkatı"na xalqın milli özünüdərk prosesinin yüksəlişi aspektində nəzər yetirib. Bildirib ki, Azərbaycan Milli Hökumətinin qərarı ilə Azərbaycan dili rəsmi dövlət dili elan olunub, milli dərsliklər çap olunub: "Təbrizdə Azərbaycan Dövlət Universitetinin açılması Milli Hökumətin xalqımız qarşısında çox böyük xidməti idi. Bu tarixi hadisəni "Azərbaycan" qəzeti "İkinci 21 Azər" adlandırmışdı. Milli özünüdərk prosesinin yüksəlişi milli teatrın da dirçəlişinə səbəb oldu. 21 Azər XX əsrdə Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatının zirvəsi oldu. Lakin azadlıq ocağı söndürülsə də, kül közərməyə başladı. İnanırıq ki, Arazın o tayında öz tarixi ərazilərində yaşayan soydaşlarımız yenə də milli hüquqlarını əldə edəcəklər".

BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri İqbal Ağayev isə tədbir iştirakçılarına Cənubi Azərbaycan milli-azadlıq hərəkatında Seyid Cəfər Piişəvərinin rolu barədə məlumat verib. Qeyd edib ki, onun mübarizəsi 1946-cı ildə qan içində boğulsa da, Cənubi Azərbaycanda azərbaycanlıların milli hüquqlar uğrunda mübarizəsi dönməz, əbədi və sarsılmazdır. Millət vəkili, BDU-nun professoru Jalə Əliyeva, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu isə çıxışlarında "21 Azər hərəkatı"nın bədii ədəbiyyatda inikasına nəzər yetiriblər. Çıxışlarda xalqın milli oyanışının ədəbiyyatda da əks olunduğu, milli istiqlal mövzusunun üstünlük təşkil etdiyi diqqətə çatdırılıb.

# "Şuşanın 270 anı" filmi BDU-da nümayiş olunub

***Dekabrın 28-də BDU-da "Cəmiyyətin və Medianın İnkişafı" İctimai Birliyinin (İB) "Şuşanı tanıyaq, tanıdaq" layihəsi çərçivəsində çəkilən "Şuşanın 270 anı" bədii-sənədli filmi nümayiş olunub.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov 2022-ci ilin ölkə başçısının Sərəncamı ilə "Şuşa İli" elan olunduğunu vurğulayıb və BDU-da bu istiqamətdə həyata keçirilən tədbirlərdən bəhs edib.

Daha sonra çıxış edən İB-nin sədri, tanınmış teleaparıcı Lalə Azərtaş Vətən müharibəsində qəhrəman oğulların qanı, canı bahasına qazanılan Qələbənin hər bir anını təbliğ etməyin önəmini vurğulayıb. Ölkəmizin ərazi bütövlüyü naminə canlarından keçmiş Vətən övladlarının əziz xatirəsinin daim ürəklərdə yaşayacağını qeyd edib. Lalə Azərtaş Şuşanın 270 illiyinə həsr olunan filmin nümayişinə dəstək verdiyi üçün Universitetin rəhbərliyi və kollektivinə təşəkkürünü bildirib.

Qeyd edək ki, film Natəvan adlı şuşalı qızın Şuşa ilə bağlı duyğularını əks etdirir. Filmdə Natəvanın uşaqlıq illərini Vətən müharibəsi şəhidi Anar Heydərovun qızı Kübra canlandırıb. Əslən şuşalı olan Natəvan fotoqrafdır və Fransada yaşayır. 1992-ci ildə Şuşanın işğalı ilə taleyi dəyişən 5 yaşlı Natəvan öz Vətənində xeyli müddət məcburi köçkün olub, ailəsi şəhidlər verib. Filmdəki hadisələr Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərdən sonrakı dövrdə cərəyan edir. Natəvan ata-baba yurdunu ziyarətə gəlib. Qəhrəmanın niyyəti tarixə toxunmaq, gerçək Qarabağ mənzərələrini və Azərbaycan həqiqətlərini "Şuşanın 270 anı" adlı fotosərgi vasitəsilə dünyaya çatdırmaqdır. Filmdə real tarixi hadisə - görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanla məşhur fransız yazıçısı Aleksandr Düma arasında baş tutan və xan qızının qələbəsi ilə başa çatan şahmat oyunu da canlandırılıb.

# Vətən aşiqlərinin dastanı

***Qəhrəmanlıq dastanlarını oxuyarkən çox zaman bu hadisələrin real olub-olmaması ilə bağlı şübhələrə düşürdüm. Düşünürdüm ki, görəsən doğurdan da belə qəhrəmanlar olubmu? Belə igid, qorxmaz, belə düşüncəli. Özüm bir dastana şahid olanadək...*** Amma şahid olduğum dastanın oxuduqlarımdan bir sıra fərqləri var. Bu dastanın yoxdur bir baş qəhrəmanı. Bu dastanın vardır minlərlə qəhrəmanı, minlərlə müəllifi. Bu dastanın yoxdur aşıq nəğmələri, bu dastanın vardır "Xudayar təsnifi". Bu dastanın yoxdur Burla xatunu, bu dastanın vardır Arəstələri. Yoxdur bu dastanın Koroğlu nərəsi, vardır bu dastanın "Dəmir Yumruğ"u. Bu dastanın yoxdur pəri anası, bu dastanın vardır polad ürəkli oğul yetişdirən anaları. Yoxdur bu dastanın bir Uruzu, vardır bu dastanın Raqufları, Turqutları, Muxtarları. Yoxdur bu dastanın Kərəmin Əsliyə olan sevgisi, vardır bu dastanın vətən aşiqləri.

Tarixə "Dəmir Yumruq" əməliyyatı kimi daxil olan II Qarabağ müharibəsi damarlarında azərbaycanlı qanı axan, ürəyi bu ellər üçün döyünən hər bir şəxs üçün unudulmazdır. Biz bu Qələbəni gecə yuxudan "ata" deyərək ağlayıb duran, atasını bir dəfə belə olsun görməyən şəhid övladlarına, qoxusunu balasının hərbi formasında axtaran şəhid analarına, bir gecədə qəddi əyilən şəhid atalarına, sevgililərini xatirələrdə yaşadan şəhid yarlarına və ən



əsası şəhidlərimizin qurban verdikləri həyatlarına, qazilərimizin itirdikləri sağlamlıqlarına, hərbçilərimizin hələ də tətikdə olan əllərinə borcluyuq! Bəzən düşünürəm ki, bu qədər nur üzlü, eyni baxışlı insan olarmı? Bu qədər eyni düşüncəli, eyni əqidəli insan olarmı? Bəli, müqəddəs Vətən torpağını həyatlarından üstün tutanlar olarmış. Şəhidlik ən ali, ən uca məqamdır. Onlar torpaq itkisindən əyilən qəddimizi dikəldənlərdir! Qələbəni qanları ilə yazanlardır!

Bu dastanın proloqu 20 Yanvardan, I Qarabağ müharibəsindən başlayır. Torpağı Vətən etməyin ilk kitabını ilk şəhidlərimiz yazdılar. "4 gündən 44 günə" - bu isə dastanımızın yeni mərhələsidir. Şərəfli "Aprel döyüşləri". Azərbaycan ordusunun - Mübariz qeyrətli oğulların istənilən şəraitdə, istənilən vaxtda döyüşə hazır olduğunu 2016-cı ildə gördük. Diqqət yetirsək, rəqəmlər sanki bizə bir nişan verir, mənim xüsusi diqqətimi çəkən bu məqam bəlkə də mifik hesab ediləcək. Amma mən düşünürəm ki, bu məqam çox xüsusi və çox özəldir. 1994-cü ilin atəşkəs müqaviləsinin şərtlərini pozan ən şiddətli döyüş 2016-cı ilin 4-cü ayı baş verir, 4 gün davam edir, 4 il fərqlə 44 günlük müharibə başlayır. Müharibənin gedişində işğaldan azad olunan ilk şəhər - Cəbrayılımız oktyabr ayının 4-ü nəzarətə götürülür. Bu qədər "4" eyni məzmunlu hadisənin süjetində nəzərə çox çarpır. 4 rəqəmi liderliyin, sabitliyin və sülhün simvolu hesab edilir. Deyilir ki, 4 rəqəmini görəndə bilməlisiniz ki, mələklər sizinlədir. Onlar sizi doğru yola yönəldəcək və yolda yarana biləcək maneələri dəf etməyə kömək edəcəklər.

Zənnimcə, haqq dastanımızın qığılcımı Tovuz döyüşləridir. Onlar böyük qayıdışın ilk carçılarıdır. Onlar qələbənin ilk müjdəçiləridir. Bu döyüşlər içimizdəki seli kükrətdi, xalqın, dövlətin qələbə əzmini, inamını ortaya qoydu. Biz bu inama, əzmə tapındıq, qığılcımdan güc aldıq! Artıq alovlanan qələbə yanğısını heç bir qüvvə söndürə bilməzdi. Tarix qoxuyan 44 gün. Xalqın - 7-dən 70-ə hamının birləşdiyi 44 gün. Düşmənin gözünə ox kimi batan, ürəyini mərmi kimi dələn, ağlından çıxmayan 44 gün. Azərbaycanlıların, işğal edilən torpaqlardan əliyalın gedən körpələrin əllərində silah, qəlblərində inam, gözlərində nifrət, nəfəslərində intiqam hissi ilə qayıtmalarının qəhrəmanlıq salnaməsi! Qismən səfərbərlik elan edilsə də, orduda xidmət göstərmək istəyən könüllülərin sayı-hesabı yox idi. Bu, Vətən sevgisi idi. Bu, bizim əqidə birliyimizin sübutu idi. Hərbi komissarlıqların qarşısında toplanan insanların, təqaüdlərini fonda köçürən yaşlıların, daxılındakı pulları ordu üçün xərcləmək istəyən körpələrimizin bu hərəkətləri sübut edirdi ki, müharibə nə qədər davam edirsə etsin, hər kəs Ali Baş Komandanın istənilən tapşırığına, əmrinə hazırdır.

Biz bu müharibədə birlik gördük, biz bu müharibədə dostumuzu, düşmənimizi tanıdıq, ata vəsiyyətinin yerinə yetirilməsini, 30 ildən sonra Qarabağda dalğalanan üçrəngli bayrağımızı, sevinən xarıbülbülümüzü, Natəvanın diyarını, Şuşa qalasını gördük!

Bizim torpaqlarımız Şəhid qanıyla suvarılıb - Vətəndir! Bütövdür! Vahiddir! Vaxtilə Ulu öndər Heydər Əliyev önündə Azərbaycanın xəritəsi, əlində xətkeş, dünyaya Azərbaycanı - Qarabağı tanıdırdı, hazırda Ali Baş Komandan İlham Əliyev dünyanın məşhur KİV-lərinə "Qarabağ Azərbaycandır" bəyan edir.

Hər zaman çalışacağam ki, gələcək nəsillər heç vaxt bu dastanın realda olub-olmamağı ilə bağlı şübhəyə düşməsinlər. Azərbaycan tarixinin şedevri hesab etdiyim bu dastanın səhifələrinin gül qoxusunun çəkilməməsi üçün əlimdən gələni edəcəyəm. Vətən aşiqlərinin igidliyinin əsrlər keçsə də danışılacaq bir əsər olacağına, Azərbaycan xalqının, gəncliyinin heç vaxt bu dastanın solmağına, öz təravətinin itirməyinə qoymayacağına bütün qəlbimlə inanıram. Mən fəxr edirəm ki, belə bir xalqa məxsusam və belə oğulları olan yurdun qızıyam! Mən qürur duyuram ki, müasir gənclik Ulu öndər Heydər Əliyevin gənclərə və gəncliyə olan etimadını yanıltmadı. Bu gün biz rahat şəkildə qürurla deyə bilirik: Stepanakert yox, Xankəndi! Şuşi yox, Şuşa! Karvacar yox, Kəlbəcər! İvanyan yox, Xocalı! Martuni yox, Xocavənd! Jrakan yox, Cəbrayıl! Akna yox, Ağdam! Sanasar yox, Qubadlı! Berdzor yox, Laçın! Hadrut yox, Ağoğlan! Madagiz yox, Suqovuşan! Artsax yox, QARABAĞ!

***Lalə Mollayeva***
*"Zəfər dastanı" esse müsabiqəsində III yerin qalibi, Tarix fakültəsinin II kurs tələbəsi*

# BDU və ADA Universitetinin təşkilatçılığı ilə akademik Roald Saqdeyevin 90 illik yubileyi qeyd olunub

***Dekabrın 27-də Bakı Dövlət Universitetinin və ADA Universitetinin təşkilatçılığı ilə dünya şöhrətli akademik Roald Saqdeyevin anadan olmasının 90 illiyinə həsr olunmuş beynəlxalq multidissiplinar konfrans keçirilib.***

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev akademik Roald Saqdeyevin əfsanəvi şəxsiyyət olduğunu vurğulayıb və onun həyatı, elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Rektor diqqətə çatdırıb ki, ABŞ-ın Merilend Universitetinin professoru, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev Azərbaycanda kosmik sahədə tədqiqatlara böyük töhfələr vermiş şəxsiyyət, Kosmik Məsələlər üzrə Şuranın üzvüdür. O, həm də BDU-nun Himayəçilər Şurasının üzvü kimi daim öz dəyərli məsləhətlərini verir. Milliyyətcə tatar olan Roald Saqdeyev 1950-ci ildə Moskva Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb, Nobel mükafatı laureatı, bakılı Lev Landaunun tələbəsi olub. Roald Saqdeyev 36 yaşında SSRİ Elmlər Akademiyasının həqiqi üzvü seçilən ən gənc şəxslərdən



biridir. 1984-cü ildə o, toroidal plazmada daşınma proseslərinin neoklassik nəzəriyyəsinin əsaslarının yaradılmasında nailiyyətlərinə görə Lenin mükafatına layiq görülüb. O, bu mükafata 2 dəfə layiq bilinib.

Roald Saqdeyev SSRİ Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutunun direktoru kimi "Kosmos", "Proqnoz", "İnterkosmos", "Meteor" və "Astron" proqramları kimi bir neçə tədqiqat layihəsinə rəhbərlik edib. Roald Saqdeyev 1986-cı ildə Halley kometinə dair beynəlxalq tədqiqat proqramındakı fəaliyyətinə və uğurlarına görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. 1988-ci ildə Fransada "İlin adamı" adını alıb. O, bir çox beynəlxalq kosmik layihələrə rəhbərlik edib. Görkəmli alim 1990-cı ildən Merilend Universitetinin professorudur. ABŞ Milli Akademiyasının, Amerika İncəsənət və Elmlər Akademiyasının, İnkişaf etməkdə olan Ölkələr Elmlər Akademiyasının (TWAS), Macarıstan Elmlər Akademiyasının və İsveç Kral Elmlər Akademiyasının üzvüdür. Görkəmli alim həmçinin Nüvə Fəlakətinin Qarşısının Alınması üzrə Beynəlxalq Lüksemburq Forumunun Müşahidə Şurasının üzvüdür. O, hazırda qlobal strategiya firması olan "Albright Stonebridge Group"da baş məsləhətçidir.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə isə çıxışında da bildirib ki, son illər BDU və ADA Universiteti arasında çox yaxşı işbirliyi yaranıb. Hər iki universitet bir çox layihələrdə birgə fəaliyyət göstərir. Fariz İsmayılzadə akademik Roald Saqdeyevi "Azərbaycanın böyük dostu" adlandırıb və bu dostluğun yaranmasında Azərbaycanın görkəmli ziyalıları - ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin xidmətlərini diqqətə çatdırıb. Bildirib ki, 2023-cü ildə Bakıda 5000-dək alimin iştirakı ilə Beynəlxalq Astronavtika Konqresi keçiriləcək. Bu tədbirin təşkilatçılığında akademik Roald Saqdeyevin böyük rolu var. Görkəmli alim həmçinin ADA Universitetində İT və mühəndislik fakültəsinin yaranmasında, Amerika universitetləri ilə birgə magistr proqramlarının imzalanmasında, Azərbaycan həqiqətlərinin Amerika ictimaiyyətinə çatdırılmasında da mühüm xidmətlər göstərməkdədir. Fariz İsmayılzadə Roald Saqdeyevin bu xidmətlərinin Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Milli Aviasiya Akademiyasının kafedra müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, professor Əhəd Canəhmədov isə Roald Saqdeyevin ölkədə kosmik sənayenin inkişafına verdiyi töhfələrin əvəzsiz olduğunu bildirib.

Tədbirdə Roald Saqdeyevin həyatı və elmi fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

Daha sonra BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov "Sıxılmış nüvə maddəsi ifrat yüksək enerjili kosmik zərrəciklərin mənbəyi ola bilərmi?", Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun şöbə müdiri, professor Rüstəm Rüstəmov "Kosmos-kosmik tədqiqatlara bağlı tale", BDU-nun Fizika fakültəsinin Astrofizika kafedrasının müdiri, dosent Kəmalə Alışeva "Yeni ulduzlardan planetar dumanlıqlara doğru", Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Lalə Qəhrəmanlı "Ag-$Ag_2S$-CdS əsaslı hibrid nanokatalizatorlar vasitəsilə fotokatalitik deqradasiya prosesinin tədqiqi" mövzularında məruzələr ediblər.

# Türkiyənin görkəmli türkoloqu Əhməd Buran BDU-da ustad dərsi deyib

***Dekabrın 1-də Filologiya fakültəsində Türkoloji dərnəyin təşkilatçılığı ilə Türkiyənin Fırat Universitetinin Humanitar və ictimai elmlər fakültəsinin Müasir türk dilləri və ədəbiyyatları kafedrasının professoru, görkəmli türkoloq Əhməd Buranın "Türkologiyada konseptual yanaşmalar və terminoloji adlandırma problemləri" mövzusunda ustad dərsi keçirilib.***



Türkologiya kafedrasının dosenti Qızılgül Abdullayeva Əhməd Buranın həyatı və yaradıcılığı haqqında məlumat verib, türkologiya sahəsində apardığı mühüm tədqiqatlardan, iki qardaş ölkə arasında elmi-mədəni əlaqələrin inkişafına verdiyi töhfələrdən bəhs edib.

Əhməd Buran tədbirin keçirilməsi ilə bağlı göstərilən təşəbbüsə və diqqətə görə fakültə rəhbərliyinə təşəkkürünü bildirib. Müəllif məruzəsində türk xalqlarının qədim kökləri, dövlətçilik ənənələri və dilləri ilə bağlı türkoloji tədqiqatlarda rast gəlinən müxtəlif elmi fikirlərdən söz açıb, xüsusilə xarici türkoloqların türklərlə bağlı görüşlərində yer alan konseptual yanaşmalar haqqında məlumat verib. Bildirib ki, hazırda Türkiyədə, o cümlədən Fırat Universitetində aparılan türkoloji araşdırmaların əsas məqsədi tarixi faktların və türklər haqqındakı həqiqətlərin üzə çıxarılması və obyektiv dəyərləndirilməsində türk alimlərin iştirakının təmin edilməsi, türk coğrafiyalarında əldə olunan məlumatların düzgün təhlil edilərək ictimaiyyətə çatdırılmasıdır.

Türkologiyada terminoloji adlandırma problemlərinə diqqət çəkən alim ayrı-ayrı türk tayfaları və dillərinin adlandırılmasında istifadə olunan etnonim və linqvonimlərlə bağlı mübahisəli məqamlardan bəhs edib: "Orxon abidələrində 70 yerdə türk, cəmi iki yerdə göytürk termini işlənib. Şübhəsiz ki, göytürk adlanan bir millət və ya bir dil yoxdur. Elmi ədəbiyyatlarda tez-tez qaraxanlı türkcəsi termini işlənir, ancaq qaraxanlılara aid tarixi mənbələrdə belə bir terminoloji ifadəyə rast gəlinmir. Yaxud Osmanlı dövlətinin tarixi sənədlərində osmanlıca deyil, türkcə, türki terminləri işlədilib. Ancaq elmi mənbələr bu gün də osmanlıca kimi qeyd edir. Görünür, mənbələrdə özlərini türk adlandıran bu müəlliflərin əksinə olaraq, onların fəaliyyətini öyrənənlər məqsədli şəkildə təhrifə yol veriblər".

Məruzəçi türk tayfalarının və dillərinin terminoloji baxımdan adlandırılmasındakı ziddiyyətli məqamlara da toxunub.

Sonra məruzəçiyə suallar ünvanlanıb, mövzu ilə bağlı çıxışlar edilib.

# Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərovun BDU tələbələri ilə görüşü

***Dekabrın 28-də Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov BDU-nun tələbələri ilə görüşüb.***

BDU-nun rektoru Elçin Babayev Universitet tələbələrinin ölkənin ictimai-siyasi həyatında aktiv iştirak etdiklərini bildirib. Diqqətə çatdırıb ki, ölkənin ali məktəbləri arasında ilk dəfə BDU-da gənclər siyasəti ilə əlaqədar şöbə yaradılıb. Bu şöbə bütün gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir. BDU-da Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı kimi qurumlarla yanaşı, ali məktəblər arasında ən çox üzvə malik "BDU Könüllüləri" təşkilatı da var. BDU tələbələri Xankəndi-Laçın yolunda keçirilən aksiyada da aktiv iştirak edirlər. Ermənistanın Qarabağdakı ekoloji terroruna qarşı keçirilən aksiyaya indiyədək BDU-nun 500-dək tələbəsi qoşulub.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov isə çıxışında BDU tələbələri ilə artıq üçüncü dəfə görüşdüyünü vurğulayıb. Rəhbərlik etdiyi qurumun 10 il əvvəl təsis olunduğunu xatırladan icraçı direktor bildirib



ki, bu illər ərzində Fond minlərlə tələbəyə müxtəlif istiqamətlərdə maliyyə yardımları göstərib.

Fərid Cəfərov Fondun əsas prioritetləri və gələcəkdə həyata keçirəcəyi yeni layihələri barədə tələbələrə məlumat verib. O, Fondun yaxın vaxtlarda ABŞ və Avropanın aparıcı universitetlərində qısamüddətli təhsil proqramlarına başlayacağını bildirib. Həmçinin bildirib ki, artıq Fond tərəfindən işğaldan azad edilən ərazilərdə könüllülük kamplarının yaradılmasına başlanılıb.

Daha sonra Fondun icraçı direktoru tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU-nun Elmi Kitabxanası Dövlət Gömrük Komitəsinin Akademiyasında təlim-seminar keçirib

***Dekabrın 28-də BDU-nun Elmi Kitabxanası Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) çərçivəsində Dövlət Gömrük Komitəsinin Akademiyasının professor-müəllim heyəti, magistr və tədqiqatçıları üçün "Akademik bazalardan istifadə və nəşr imkanları" adlı təlim-seminar keçirib.***

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəis müavini Cəmilə Namazova rəqəmsal kitabxana-informasiya mühitinin formalaşmasında beynəlxalq nəşriyyatların resurslarından istifadənin üstünlüklərini vurğulayıb, kitabxanada istifadəçilər üçün yaradılan şəraitdən bəhs edib.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova "Az.KİK-in akademik kitabxanalarla əməkdaşlığı" mövzusundakı təqdimatında kitabxana işi sahəsində nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla ali məktəb kitabxanaları arasında əməkdaşlığın qurulması barədə danışıb, Dövlət Gömrük Komitəsinin Akademiyasının da üzv olduğu Az.KİK-in fəaliyyətində təmsil etdiyi qurumun xüsusi rola malik olduğunu bildirib.

Az.KİK-in rəhbəri, EİFL.net və EBSCO-nun Azərbaycan üzrə təmsilçisi, BDU-nun Elmi Kitabxanasının şöbə müdiri Cəmilə Yusifova kitabxana işi sahəsində dünyanın iki aparıcı təşkilatından biri olan beynəlxalq konsorsium EİFL.net-in xidmətləri, müxtəlif elm və tədris sahələrini əhatə edən EBSCO platformasında interaktiv axtarış qaydalarını iştirakçılara əyani şəkildə təqdim edib.

EİFL.net-in "Open Access" üzrə koordinatoru, ADA Universitetinin Əsas sistemlər və inteqrasiya şöbəsinin aparıcı mütəxəssisi İltifat İbrahimov isə təlim iştirakçılarına akademik bazalardan istifadə qaydaları, məqalə nəşrinə dəstək və nəşr imkanlarından bəhs edib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# Anadolu universitetinin professoru tələbə-jurnalistlərə ustad dərsi keçib



***Dekabrın 2-də Türkiyənin Anadolu Universitetinin Mətbuat və yayım bölümünün professoru Ömər Özər Jurnalistika fakültəsinin tələbələrinə ustad dərsi keçib. Tədbirdə professorun "Mediada şiddət xəbərlərinin işıqlandırılması" mövzusunda mühazirəsi dinlənilib.***

Professor tələbələrə şiddətlə bağlı xəbərlərin kütləvi informasiya vasitələrində yayılmasının fəsadları barədə ətraflı məlumat verib, problemin etik tərəflərinin aktual olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, intihar xəbərlərinin, ailədaxili zorakılıq hallarının ictimailəşdirilməsi, həmçinin qadına şiddətlə bağlı informasiyaların geniş auditoriyalara ötürülməsi belə neqativ nümunələrin cəmiyyətdə yayılmasına və adiləşməsinə səbəb ola bilər.

Türkiyə mediasından praktik örnəklər gətirən professor bu halların qarşısının alınması üçün gənc jurnalistlərə etik kodekslərə ciddi əməl etməyi və məsələyə həssas yanaşmağı tövsiyə edib.

Sonda professor tələbələri maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, professor Ömər Özər mədəniyyətlərarası kommunikasiya, kommunikasiya nəzəriyyələri və xəbər sosiologiyası, televiziya jurnalistikası üzrə bir çox elmi tədqiqatların müəllifidir.

# BDU-nun SABAH tələbələri üçün insan yaradıcılığı və süni intellektin sintezinə dair ustad dərsi



***Dekabrın 21-də Fenomenologiya və koqnitiv elmlər üzrə tədqiqatçı, riyaziyyat və yaradıcılıq üzrə mentor Viktor Ben Tzvi BDU-nun SABAH tələbələrinə "İnsan yaradıcılığı və süni intellektin sintezi" mövzusunda ustad dərsi keçib.***

Ustad dərsində süni intellektin əhəmiyyəti, müasir dövrdəki rolu təhlil edilib, bunun insan yaradıcılığına təsiri haqda müxtəlif fikirlər səsləndirilib. Viktor Ben Tzvi müasir dövrdə reallıqla sintez olunan süni intellektin gələcəkdə oynayacağı rol barədə tələbələri məlumatlandırıb. Ustad dərsində həmçinin süni intellektin müxtəlif elm sahələri ilə inteqrasiyası, insan yaradıcılığının (Human Creativity) inkişafı ilə bağlı tələbələrlə diskussiya aparılıb.

# Kvant çuxurlu strukturlarda elektron qazının maqnetizmi və optik udulma ilə bağlı tədqiqat aparılıb

***Dekabrın 1-də Fizika fakültəsinin Bərk cisimlər fizikası kafedrasında növbəti elmi seminar keçirilib.***

Seminarda kafedranın fəlsəfə doktoru proqramı üzrə doktorantı Sahilə Sultanova "Yarımmaqnit yarımkeçirici əsaslı kvant çuxurunda elektron qazının maqnetizmi və optik udulma" mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, son zamanlar dar qadağan zolaqlı $Hg_{1-x}Cd_xTe$ yarımkeçiriciləri və onların əsasında hazırlanan strukturlar tədqiqatçıların diqqət mərkəzindədir. Nanotexnologiyanın sürətli inkişafı sayəsində kvant çuxurlu HgTe/CdHgTe kimi böyük praktiki əhəmiyyətə malik olan heterostrukturların yaradılması mümkün olub. Bu yarımkeçiricilərin unikal xassələri, o cümlədən, tərkibdən asılı olaraq qadağan zolağının enini dəyişməyin mümkünlüyü onların tətbiq imkanlarını artırır. Hazırda həmin yarımkeçiricilərin əsasında müxtəlif diapazonlarda işləyən diodlar, detektorlar, tranzistorlar, lazerlər hazırlanır. Bununla yanaşı, bu kristalların və onların əsasında yaradılan strukturların kinetik, optik və maqnit xassələrinin tədqiqi aktual məsələlərdən biridir. Təqdim olunan məruzədə $Hg_{1-x}Cd_xTe$ kristallarında və onların əsasında hazırlanan kvant çuxurlu strukturlarda elektron qazının maqnetizmi və elektron qazında işığın udulmasının nəzəri tədqiqinə dair nəticələr təqdim olunub.



Qarşıya qoyulan məsələlərin həllində kvant mexanikasının və statistik fizikanın metodlarından istifadə olunmaqla $Hg_{1-x}Cd_xTe$ kristalında ikizonalı Keyn modeli üçün elektron qazının məlum enerji spektri əsasında böyük termodinamik potensialı hesablanıb, daha sonra isə maqnitlənmə üçün maqnit sahəsindən və qadağan olunmuş zolağın enindən asılı analitik ifadə tapılıb. Qadağan olunmuş zolağın konkret qiymətlərində maqnitlənmənin maqnit sahəsindən asılılığı müəyyən edilib. Göstərilib ki, maqnit sahəsinin müəyyən qiymətindən sonra maqnitlənmə doyma halına gəlir. Ultrarelyativistik hala baxılıb və göstərilib ki, qadağan olunmuş zolağın çox böyük qiymətlərində maqnitlənmə parabolik nəticəni verir. Bundan başqa, HgCdTe-də Keyn modelində udulma əmsalı üçün düşən işığın tezliyindən və zolağının enindən asılı analitik ifadə alınıb.

Sonda məruzə ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# BDU-da qlobal istiləşmənin fəsadları müzakirə olunub

***Dekabrın 2-də Sosial elmlər və psixologiya, Coğrafiya, Ekologiya və torpaqşünaslıq fakültələrinin birgə təşkilatçılığı ilə "Qlobal istiləşmə və onun törədə biləcəyi fəsadlar" mövzusunda tədbir keçirilib.***

Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov ümumbəşəri xarakter daşıyan ekoloji problemlərin yaranma səbəbini insanların təbiətə istehlakçı münasibəti ilə əlaqələndirib. O qeyd edib ki, müasir sivilizasiya təbiət üzərində üstünlüyə can atır, bu isə digər canlılarla yanaşı, insanların həyatını da ciddi təhlükə qarşısında qoyur.

Ekologiya və torpaqşünaslıq fakültəsinin müəllimi, coğrafiya elmləri doktoru, professor Telman Xəlilov "Qlobal iqlim dəyişmələri və Azərbaycanda su ehtiyatlarından səmərəli istifadəyə nail olunması" mövzusunda çıxış edib. O, hazırda hava, torpaq, su kimi ətraf mühit komponentlərinin sənaye və istehsal mərkəzləri tərəfindən atılan tullantılarla çirkləndirildiyini bildirib. Onun sözlərinə görə, nəhəng texnogen çirklənmə mənbələri hesabına Yerin atmosfer təbəqəsi özünü zəhərli tullantılardan təmizləmə qabiliyyətini aşağı salıb. Suyun bütün canlılar üçün ən vacib mineral olduğunu diqqətə çatdıran Telman Xəlilov onu başqaları ilə əvəz etməyin mümkünsüzlüyünü bildirib və sudan səmərəli istifadə yollarından danışıb.

Coğrafiya fakültəsinin professoru Əsgər Məmmədov iqlim dəyişmələrinin yeni nəzəriyyələri haqqında tədbir iştirakçılarına məlumat verib. Dünyada və Azərbaycan Respublikasında meteoroloji quraqlığın müasir vəziyyətini qiymətləndirən Əsgər Məmmədov əsas quraqlıq göstəricilərini və məhsuldarlığa təsir edən proseslərin risklərini təhlil edib. O, yağıntı ilə qlobal istiləşmə arasında xətti əlaqənin axtarılması ilə razılaşmadığını bildirib. Qeyd edib ki, bəzi regionlarda qlobal istiləşmədən asılı olaraq yağıntılar artdığı halda, bəzilərində bu əlaqələr pozulub.



Coğrafiya fakültəsinin Hidrometeorologiya kafedrasının müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, Əməkdar elm xadimi İmran Abdulayev çıxışında Günəş aktivliyinin yer kürəsində gedən qlobal istiləşmədə mühüm rol oynadığını bildirib. O, həmçinin antropogen amillər nəticəsində ətraf mühitə göstərilən zərərli təsirlərdən danışıb, şəhərsalma prosesində yol verilən qüsurların aradan qaldırılması, meşə sahələrinin artırılmasının zərurətini önə çəkib.

Sosial elmlər və psixologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova son vaxtlar dünyada artan əsəb xəstəlikləri və intiharların səbəblərindən birini insanların ətraf mühitə göstərdikləri təzyiq ilə əlaqələndirib. O, qeyd edib ki, hələ tam məhv edilməmiş təbiət mənzərələri bir sıra xəstəlikləri və stressi aradan qaldırır, insanları yaradıcılığa sövq etdirir. Eybəcər hala salınaraq şikəst edilmiş təbiətlə təmas isə dağıdıcı impulslara təkan verir, fiziki və psixi sağlamlığı məhv edir.

# "Bitki mənşəli nanohissəciklər və onların biotibbdə tətbiqi" adlı elmi seminar

***Dekabrın 5-də Biologiya fakültəsində "Bitki mənşəli nanohissəciklər və onların biotibbdə tətbiqi" mövzusunda elmi seminar keçirilib. Seminarda Biofizika və biokimya kafedrasının dissertantı, Türkiyənin Mardin Artuklu Universitetinin əməkdaşı Adıcan Mehmet Tevfik mövzu ilə bağlı məruzə edib.*** Məruzədə müxtəlif bitkilər vasitəsilə metal nanohissəciklərin sintezi, müasir metodlarla öyrənilməsi haqqında məlumat verilib. Məruzəçi bitki mənşəli nanohissəciklərin sintezinin mərhələlərini ardıcıl şəkildə göstərib. Qeyd edib ki, ilk növbədə nanohissəciklərin sintezi üçün istifadə olunan bitki nümunələri müxtəlif üsullarla təmizlənir, onlardan ekstraktlar alınır və müxtəlif metalların duzları məhlul şəklində uyğun qatılıqlarda əlavə edilir. Temperatur, Ph və zamandan asılı olaraq bitki ekstraktları metal duzlarını nanohissəciklərə çevirir.



Fiziki-kimyəvi faktorların təsiri ilə alınan nanohissəciklər sentrifuqa üsulu ilə təmizlənir, alınmış nanohissəciklər UV spektroskopiya, SEM, AFM, infraqırmızı spektroskopiya və s. metodlarla müəyyən edilir. Həmin metal nanohissəcikləri (qızıl, gümüş və s.) biotibbi tədqiqatlarda istifadə edilir.

Adıcan Mehmet Tevfik məruzədə bu nanohissəciklərin kanserogen hüceyrələrə təsirinin nəticələri barədə də geniş məlumat verib. Diqqətə çatdırıb ki, alınmış nəticələr "Web of Science" bazasına daxil olan 3 jurnalda çap olunub.

# "Psixologiya klubu" tələbələr üçün təlim keçirib

***Dekabrın 6-da BDU-nun Psixoloji yardım sektorunun nəzdində fəaliyyət göstərən "Psixologiya klubu"nun yeni tədris ilində tələbələr üçün ilk təlimi keçirilib.***

Görüşün əvvəlində tələbələrlə tanışlıq xarakterli praktiki çalışma yerinə yetirilib. Tələbələrin "Psixologiya klubu"ndan gözləntiləri qeydə alınıb. Təlimdə tələbələrə psixoterapiyanın əsasları, psixoloji konsultasiyadan fərqi izah olunub. Psixoloqa müraciət edən insanlara düzgün, professional yanaşma ilə bağlı məlumat verilib.

"Psixologiya klubu"nun təlimləri davam edəcək.

Qeyd edək ki, BDU-nun Psixoloji yardım sektorunun nəzdində "Psixologiya klubu" bu ilin mart ayında yaradılıb. Klubun yaradılmasında məqsəd gənclər arasında maarifləndirmə işləri aparmaq, müxtəlif psixoloji mövzuların müzakirəsini təşkil etməkdir.

# BDU alimləri kərtənkələlərin miogenezini tədqiq ediblər

***Biologiya fakültəsinin Zoologiya və fiziologiya kafedrasının professoru Canbaxış Nəcəfov, kafedranın dissertantı Ramin Həşimov, Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllif olduqları "Tenuidactylus caspius kərtənkələsinin skelet əzələlərinin embrional inkişafı və histoloji analizi" adlı elmi işi "Web of Science" elmmetrik bazasına daxil olan "Journal of zoological systematics and evolutionary research" jurnalında çap olunub.***

Tədqiqat işinin məqsədi kərtənkələnin embrional inkişafında mioblastların bir-biri ilə birləşib miosimplast əmələ gətirməsindən sonra əzələ plastinkasının (aralıq quruluşunun) formalaşması mərhələsinin müəyyən olunmasıdır. Tədqiqat işində 22 ədəd gekkon yumurtasından istifadə olunub. Müəlliflər bu mərhələnin şəklini çəkib, tam düzgün xarakteristikasını veriblər. Məqalədə miogenezin mərhələləri ardıcıllıqla təsvir olunub. Kərtənkələlərin miogenezini öyrənməklə insanın embrional əzələ qüsurlarının səbəbini müəyyən etmək olar.

# BDU-da Elm və Təhsil Nazirliyinin "CODE FOR FUTURE" layihəsinin məzun günü keçirilib

***Dekabrın 27-də BDU-da Elm və Təhsil Nazirliyinin "CODE FOR FUTURE" layihəsinin məzun günü keçirilib.***

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə gənclərin hərtərəfli inkişafına xüsusi önəm verildiyini vurğulayıb, "CODE FOR FUTURE" layihəsinin əhəmiyyətini diqqətə çatdırıb. Nazir qeyd edib ki, texnologiyalar və insan düşüncəsi sürətlə dəyişir. Buna görə də gələcəyin çağırışlarına uyğun, fundamental bilik və bacarıqlara malik mütəxəssislər yetişdirmək zamanın tələbidir: "Hazırda "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində orta ümumtəhsil məktəblərində 300 min şagird proqramlaşdırma öyrənir. Bu göstərici növbəti illərdə xeyli artacaq. İl ərzində İT ixtisaslarını 3000 tələbə bitirir. Bu ixtisasların böyük əksəriyyəti dövlət sifarişlidir. Gələcəkdə bakalavriatura və magistratura pillələrində İT ixtisaslarının (proqramlaşdırma, kibertəhlükəsizlik, sistem mühəndisliyi, kompüter mühəndisliyi və s.) sayı daha da artacaq.

Nazir "CODE FOR FUTURE" layihəsinin məzun olan gənclər üçün dönüş nöqtəsi olacağına, onların gələcəkdə əmək bazarında daha tez iş tapacaqlarına əminliyini bildirib.



BDU-nun rektoru Elçin Babayev isə qeyd edib ki, 2021-ci ildən "Code For Future" layihəsi Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və "CodeAcademy" Təhsil Mərkəzinin iştirakı ilə uğurla icra olunmaqdadır. 2022-ci ildən etibarən isə "DevEducation" şirkəti də bu istiqamətdə fəaliyyət göstərir: "Hər iki təhsil müəssisəsi yetərincə tanınmış, inam qazanmış təhsil qurumlarıdır. Burada dərs deyən müəllimlər yüksək pedaqoji bacarıqlarla yanaşı, İT sahəsində böyük təcrübəyə malikdirlər. Tədrisə belə müəllimlərin cəlb olunması tələbələrin nəzəri biliklərlə yanaşı, praktiki vərdiş və bacarıqlara yiyələnməsinə, karyera qurmalarına, kreativ düşüncəli gənc mütəxəssis kimi formalaşmalarına imkan verəcək. Hazırda BDU-da "CodeAcademy" və "DevEducation" layihələri üzrə 6 auditoriyada 200-ə yaxın BDU tələbəsi təhsil alır. Hər iki layihə tələbələr arasında böyük rəğbət qazanıb".

Rektor vurğulayıb ki, BDU-nun əsas məqsədi əmək bazarının tələblərinə uyğun, peşəkar, savadlı, müasir informasiya texnologiyalarına, yüksək intellektə malik mütəxəssislər yetişdirməkdir. Bu məqsədə nail olmanın ən birinci yolu məhz əməkdaşlıq və təcrübə mübadiləsidir. Kompüter elmləri BDU-nun təbiət elmləri sahəsində əsas 5 elmi prioritetindən biridir. Təsadüfi deyil ki, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Rəqəmsal Araşdırmalar elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Laboratoriyada mövcud sənaye problemlərinin elmi-tədqiqatlar əsasında həll yolları araşdırılır, "BP Azerbaijan" və SOCAR kimi tanınmış şirkətlərlə müqavilə əsaslı layihələr yerinə yetirilir. Həmin layihələrdə əsasən tələbə və gənc tədqiqatçılar iştirak edirlər. BDU və İsrailin Holon Texnologiyalar İnstitutu arasında bu sahə üzrə ikili diplom proqramı uğurla davam etdirilir. Hazırda BDU-da bakalavriat, magistratura və doktorantura səviyyələrində 10 ikili diplom proqramı həyata keçirilir. BDU-nun Tələbələrin Elmi-Texniki Yaradıcılıq Mərkəzində mühəndislik, elektronika kimi sahələrlə yanaşı, proqramlaşdırma sahəsi üzrə də müxtəlif layihələr yerinə yetirilir. 2023-ci ildən etibarən SabahLab layihəsinin də BDU-da həyata keçirilməsi üzrə işlər davam etdirilir.

AzTU-nun rektoru Vilayət Vəliyev isə "CODE FOR FUTURE" layihəsinin və digər rəqəmsal proqramların tələbələrə tarixi imkan qazandırdığını vurğulayıb. O, belə layihələrin tədris prosesini yaxşılaşdırdığını, əməkdaşlıq imkanlarını artırdığını qeyd edib.

Tədbirdə "CODE FOR FUTURE" layihəsindən məzun olan BDU və AzTU tələbələri buraxılış işlərini təqdim ediblər. Daha sonra "CODE FOR FUTURE" tələbələrinin təhsil həyatını əks etdirən video nümayiş etdirilib. Sonda tələbələrə sertifikatlar təqdim olunub.

# Gənclər və idman naziri Fərid Qayıbov BDU tələbələri ilə görüşüb

***Dekabrın 20-də Gənclər və idman naziri Fərid Qayıbov BDU-nun tələbələri ilə görüşüb.***

Görüşdə çıxış edən Universitetin Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Ölkə iqtisadiyyatının əsas hərəkətverici qüvvəsini gənclər təşkil edir. Bu siyasətin həyata keçirilməsində və Azərbaycan gənclərinin formalaşmasında Gənclər və İdman Nazirliyi mühüm rol oynayır.

Əliş Ağamirzəyev diqqətə çatdırıb ki, BDU-da 25 minə yaxın tələbə təhsil alır. Universitetdə Tələbə Həmkarlar İttifaqı Komitəsi, "BDU könüllüləri" təşkilatı, Tələbə Gənclər Təşkilatı,





Tələbə Elmi Cəmiyyəti, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, Tələbə Nəzarət Qrupu kimi gənclər təşkilatları fəaliyyət göstərir. BDU tələbələri Universitetin və ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Ermənistanın Qarabağda həyata keçirdiyi ekoloji terrora qarşı Şuşa-Laçın yolunda davam edən aksiyaya BDU-nun 300-dən artıq tələbəsi qatılıb.

Nazir Fərid Qayıbov ölkənin ən böyük ali təhsil ocağı olan BDU-nun tələbələri ilə görüşün çox vacib olduğunu qeyd edib. Görüşdə əsas məqsəd tələbələrin arzu, təklif və çətinliklərini dinləməkdir. Nazir bildirib ki, əhalinin 25 faizini gənclər təşkil edir, onların böyük əksəriyyəti tələbələrdir, ölkədə 300-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Bu baxımdan ali məktəblərdə tələbələrlə görüşlər böyük əhəmiyyət daşıyır. Fərid Qayıbov tələbələri daha da aktiv olmağa, öz təklif və istəklərini bölüşməyə, yaxşı təhsil almağa səsləyib.

Daha sonra nazir tələbələrin çoxsaylı suallarını cavablandırıb. Görüşdə BDU-nun müxtəlif fakültələrindən 700-dək tələbə iştirak edib.

# Mirzə Ələkbər Sabirin 160 illik yubileyi qeyd olunub

***Dekabrın 26-da Filologiya fakültəsində görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin 160 illik yubileyinə həsr olunmuş "Sabir gecəsi" adlı ədəbi-bədii tədbir keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələr və şairin nəvəsi - BDU-nun Bitki fiziologiyası kafedrasının dosenti, Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli iştirak edib.***

Əvvəlcə şairin həyat və yaradıcılığı, Azərbaycan ədəbiyyatı və ədəbi dilinin tarixində tutduğu önəmli yeri barədə ətraflı məlumat verilib.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osma-



noğlu Mirzə Ələkbər Sabirin keşməkeşli ömür yolu, satirik şeirin inkişafında rolu və ədibin irsinin öyrənilməsi sahəsində görülən işlər haqqında danışıb. Natiq qeyd edib ki, Azərbaycan ədəbiyyatında çoxəsrlik ənənəsi olan satirik şeirin ən görkəmli nümayəndəsi Mirzə Ələkbər Sabir türk-müsəlman dünyasında bu janrın qüdrətli təmsilçisi kimi tanınır. Ədəbiyyatımızda tənqidi realizmin əsas yaradıcılarından biri kimi geniş şöhrət qazanmış maarifçi-şair bədii fikirdə humanizm, demokratik ideyalar, milli oyanış və dirçəlişin ən fədakar carçılarındandır. Onun yaradıcılığı xalqın həyatı ilə sıx şəkildə bağlıdır və ədəbi irsini bu kontekstdən kənarda araşdırmaq mümkün deyil.

Böyük şairin nəvəsi - BDU-nun Bitki fiziologiyası kafedrasının dosenti, Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli görkəmli sənətkarın irsinin öyrənilməsinə və təbliği işinə göstərilən diqqətə görə fakültə rəhbərliyinə təşəkkür edib. Bildirib ki, Mirzə Ələkbər Sabiri yaşadan təkcə ailəsinin sevgisi yox, eləcə də xalqın məhəbbəti və dəyəridir.

Tədbirdə Mirzə Ələkbər Sabirin həyatından bəhs edən videoçarx və şair haqqında görkəmli şəxsiyyətlərin fikirlərini əks etdirən təqdimat göstərilib, həmçinin tələbələrin ifasında ədibin şeirlərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş olunub, şairin satiralarından nümunələr səsləndirilib.

# "Gənc istedadlar" liseyinin şagirdləri narkomaniyanın zərərləri barədə məlumatlandırılıblar



***Dekabrın 23-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Narkomaniya ümumbəşəri bəladır" mövzusunda tədbir keçirilib.***

Yasamal Rayon Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı Natiq Pircanov müasir dövrdə narkomaniyanın insanlıq əleyhinə böyük bəlaya çevrildiyini qeyd edib, yeniyetmə və gənclər arasında narkomaniya ilə mübarizənin və ictimai nəzarətin əhəmiyyətini vurğulayıb.

Yasamal Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Nəbi Nəcəfov yeniyetmələri sağlam həyat tərzi keçirməyə, kitablardan, filmlərdən, maraqlı insanlarla ünsiyyətdən zövq almağa, zərərli vərdişlərdən uzaq olmağa çağırıb.

Yasamal rayon İcra Hakimiyyətinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının katibi Rasim Əliyev, Yasamal Rayon Polis İdarəsinin Veteranlar Şurasının sədri Xanlar Ağayev çıxışlarında psixoaktiv maddələrdən sui-istifadə zamanı yaranan asılılıq problemləri, asılılığın başvermə səbəbləri, bu maddələrin kimyəvi tərkibi və yaratdığı fəsadlar barədə şagirdlərə ətraflı məlumat veriblər.

Tədbirin sonunda qonaqlar şagirdləri maraqlandıran sualları cavablandırıblar.

# "İnnovativ Gənc Mühəndislər" layihəsinin seçim turları keçirilib

***Dekabrın 26-da Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Gənclər Fondunun fərdi qrant müsabiqəsində qalib olan "İnnovativ Gənc Mühəndislər" layihəsinin seçim turları keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib. Layihənin rəhbəri Orxan Güləhmədov iştirakçılara seçim turları, təlimlər və qaliblərin seçilməsi prinsipləri barədə ətraflı məlumat verib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov layihənin önəmini vurğulayıb. Qeyd edib ki, layihə gənclərin elmi-texniki biliklərini daha da inkişaf etdirəcək və gələcəkdə yaxşı mütəxəssis kimi yetişmələrinə zəmin yaradacaq.

Seçim turlarında iştirakçılara 27-si intellektual, 8-i isə elmi-texniki xarakterli olmaqla 4 variant, 35 sualdan ibarət test tapşırıqları təqdim olunub. Seçim turları 50-dən çox iştirakçı arasında bir saat ərzində həyata keçirilib və hər iki turun nəticələrinə əsasən, təlim mərhələsinə keçən 20 nəfər iştirakçının adı müəyyən edilib.

Layihənin əsas məqsədi gənclərin elmi-texniki, praktiki bacarıqlarını, intellektual səviyyələrini inkişaf etdirmək, asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etmək, dövlət gənclər siyasətinin reallaşdırılmasına dəstək olmaq, gənclərdə yaradıcılıq işlərinə marağı artırmaqdır.

# "Şuşa İli"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" oyunu keçirilib

***Dekabrın 27-də Geologiya fakültəsinin təşkilatçılığı və BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə fakültə tələbələri arasında "Şuşa İli"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual yarışması keçirilib.***



11 komandanın iştirak etdiyi yarışmada 24 sual səsləndirilib. Münsiflər heyətinin qərarına əsasən, yarışmada I yeri "BDU könüllüləri", II yeri "Zəfər", III yeri "Dəmir yumruq" komandaları tutub. Qaliblər medal, kubok, sertifikat və pul mükafatı ilə təltif olunublar.

# BDU "ASAN xidmət"lə elmi əməkdaşlıq edəcək

***Dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşları ilə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrasının müəllim-tələbə heyəti arasında görüş keçirilib.***

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov iştirak edib.

"INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində baş tutan görüşün əsas məqsədi "Dövlət xidmətlərinin təşkilində data əsaslı idarəetmənin və texnoloji innovasiyaların tətbiqi" ilə bağlı akademik mühitlərdə elmi-tədqiqat və araşdırma işlərinin genişləndirilməsi yollarının müzakirəsi olub. Görüş zamanı müxtəlif elm mərkəzlərində təhsilin magistratura və doktorantura pillələrində təhsil alan tədqiqatçıların işlərində bu tip mövzulara xüsusi yer ayırmalarının zəruriliyi bildirilib.



Kafedra müdiri professor Rövşən Əliyev akademik dairələrdə dövlət xidmətlərinin təkmilləşdirilməsi mövzusunda tədqiqat işlərinin aparılmasının həm dövlət qurumlarının fəaliyyətinin optimallaşdırılmasına, həm də tələbələrin təhsildə əldə etdikləri nəzəri biliklərin real müstəvidə tətbiqinə xidmət etdiyini vurğulayıb.

Eyni zamanda Dövlət Agentliyinin data mütəxəssisləri ilə Bakı Dövlət Universitetinin tələbələri arasında qarşılıqlı şəkildə elmi-tədqiqat işlərinin aparılması üzrə gələcək əməkdaşlıq çərçivəsi müəyyən edilib.

# BDU-nun 33 tələbəsinin təhsil xərcini Gənclər Fondu qarşılayacaq

***Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən gənclərin təhsil xərcinin qarşılanması üzrə həyata keçirilən növbəti müsabiqənin nəticələri açıqlanıb.***

Sosial həssas əhali kateqoriyalarına aid olan istedadlı gənclərin təhsil xərcinin qarşılanması məqsədi ilə cari ilin 3 oktyabr - 13 noyabr tarixlərində elan edilən müsabiqəyə 28 dövlət təhsil müəssisəsi, 7 filial və 15 orta-ixtisas təhsil müəssisəsindən ümumilikdə 872 müraciət daxil olub. Ərizə qəbulu prosesində daxil olmuş müraciətlərin texniki ekspertizası və müraciətçinin davamiyyəti, akademik göstəriciləri, yerli və beynəlxalq miqyasda əldə etdiyi nailiyyətləri, sosial həssaslıq dərəcəsi, ictimai fəallığına dair ümumi qiymətləndirilməsi Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət İmtahan Mərkəzi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birlikdə aparılıb və qeyd olunan qurumlardan alınan rəylərə əsasən qaliblər müəyyən edilib.

Gənclərin 2021-2022 və ya 2022-2023-cü tədris illəri üzrə təhsil haqqı xərclərinin qarşılanması məqsədi daşıyan müsabiqənin nəticələrinə əsasən, 431 tələbənin təhsil xərcinin Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən qarşılanmasına qərar verilib.

Həmin gənclərdən 33-ü BDU-nun tələbəsidir. BDU Gənclər Fondu tərəfindən təhsil xərci qarşılanan tələbələrin sayına görə ikinci yerdədir.

# Tələbələrimizdən ibarət futbol komandası turnirin qalibi olub

***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunan və Azərbaycan Texniki Universitetində keçirilən futbol üzrə universitetlərarası turnirdə Bakı Dövlət Universitetinin tələbələrdən ibarət yığma komandası qalib olub.***



BDU-nun komandası seçmə turlarda bütün rəqiblərini məğlub edərək finala vəsiqə qazanıb. Final mərhələsində Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yığma komandasına qalib gələn BDU-nun komandası kuboka sahiblənib.

# "Həyat fəaliyyətinin təhlükəsizliyi tələbə gənclərin baxış prizmasında" mövzusunda konfrans



***Dekabrın 8-də BDU-da Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ), Fövqəladə Hallar Nazirliyinin (FHN) Bakı Regional Mərkəzi və BDU Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Həyat fəaliyyətinin təhlükəsizliyi tələbə gənclərin baxış prizmasında" mövzusunda konfrans keçirilib. BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov ölkəmizdə fövqəladə halların qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib, bu cür konfransların gənclərin maarifləndirilməsində əhəmiyyətini vurğulayıb.***

ATGTİ sədri Pərviz Mirələmli isə silsilə xarakter daşıyan bu konfransların fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında səmərəli nəticələrə yol açdığını vurğulayıb.

Daha sonra müxtəlif ali təhsil müəssisələrinin tələbələrinin mövzu ətrafında mühazirələri dinlənilib. Tədbirin sonunda FHN Bakı Regional Mərkəzinin rəisi, general-mayor Məhərrəm Həsənov nazirlik tərəfindən həyata keçirilən tədbirlərdən bəhs edib, gənclərin təhlükəsizliyinin təminatının dövlət siyasətinin prioritet istiqaməti olduğunu bildirib.

Qeyd edək ki, konfransın keçirilməsində məqsəd yetişməkdə olan nəslin - gənc müəllim və tələbələrin həyat fəaliyyətinin təhlükəsizliyi məsələlərinə baxışları ilə tanış olmaq, bu sahədə problem və perspektivləri müzakirə etməkdir.

Konfrans zamanı Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib, məruzəçilər sertifikatlarla təltif olunublar.

# "Gənc istedadlar" liseyinin şagirdinin böyük uğuru



***BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin VI sinif şagirdi Silduz Hacıyev Sinqapurda keçirilən Yeniyetmələrin Beynəlxalq Riyaziyyat Olimpiadasında gümüş medala layiq görülüb.***

Olimpiada bu ilin 1-7 dekabr tarixlərində keçirilib.

Qeyd edək ki, Silduz Hacıyev 2022-ci ilin 27 avqust - 4 sentyabr tarixlərində keçirilmiş Hong Kong Beynəlxalq Riyaziyyat Olimpiadasında *(https://www.hongkongimo.com/)* da qızıl medala layiq görülüb.

Şagirdimizi təbrik edir və yeni uğurlar arzulayırıq!

# "Gənc torpaqşünaslar klubu" layihəsinin açılışı



***Dekabrın 15-də Ekologiya və torpaqşünaslıq fakültəsi və "Aqrar İnkişaf Könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Gənc torpaqşünaslar klubu" layihəsinin açılışı olub.***

BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı son illər ölkədə könüllülük hərəkatının geniş vüsət aldığını bildirib. Qeyd edib ki, bu hərəkat gənclərin sağlam amal uğrunda təşkilatlanması, dostluq mühitinin yaranması, cəmiyyətə təmənnasız töhfə vermək vərdişlərinin aşılanması baxımından çox faydalıdır. Sahəvi könüllü təşkilatlardan olan "Aqrar İnkişaf Könüllüləri"nin fəaliyyəti gənclər arasında aqrar sahə üzrə bilik, bacarıq və vərdişlərin artırılmasına xidmət edir.

Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdir müavini Məmməd Həziyev torpaqşünaslıq və aqrokimya, yerquruluşu və daşınmaz əmlakın kadastrı, ekologiya sahələrinin ölkədəki əhəmiyyətini açıqlayaraq gənc könüllülərə bu sahələrdəki fəaliyyətlərində uğurlar arzulayıb. "Aqrar İnkişaf Könüllüləri" təşkilatının sədr müavini Ramiz Sultanov tərəfindən təşkilatın ümumi fəaliyyəti, həyata keçirilən layihələr barədə məlumat verilib. BDU-nun Coğrafi ekologiya kafedrasının müdiri Məhluqə Yusifova, Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının baş müəllimi Qismət Xanbabayev də çıxışlarında bu yönümlü tədbirlərin gənclərin yaxşı mütəxəssis və şəxsiyyət kimi formalaşmasında müsbət cəhətlərindən danışıblar.

Sonda BDU-nun Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının dosenti Cəsarət Şabanov gənc könüllülərə "Torpağı əkinə yararlı hala gətirmək üçün nələr lazımdır?" mövzusunda təlim keçib.

# Tələbələr QİÇS-lə mübarizə haqqında məlumatlandırılıblar



***Dekabrın 6-da BDU-da Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin və Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilib. Tədbirdə Mərkəzin mütəxəssisləri və universitetin müəllim-tələbə heyəti iştirak edib.***

Tədbirdə QİÇS-lə Mübarizə Mərkəzinin əməkdaşı Dilşad Mahmudova QİÇS/İİV infeksiyası ilə mübarizə sahəsində ölkədə həyata keçirilən tədbirlər haqqında məlumat verib, tələbələri xəstəliyə yoluxma yolları barədə məlumatlandırıb. O, narkomaniya və digər zərərli vərdişlərlə mübarizədə daha səmərəli nəticələrə nail olmaq, gəncləri həmin sosial bəladan qorumaq, onlarda sağlam həyat tərzinə marağı artırmaq üçün maarifləndirmə işlərini daim diqqət mərkəzində saxlamağın, milli-mənəvi dəyərlərin təbliğinə xüsusi fikir verməyin vacibliyini vurğulayıb.

Dilşad Mahmudova bildirib ki, İİV/QİÇŞ problemi daim Səhiyyə Nazirliyinin nəzarətindədir, Müxtəlif əhali qrupları arasında vaxtaşırı maarifləndirmə tədbirləri təşkil edilir, narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlar verilir.

Tədbirin sonunda Universitetin foyesində yerləşdirilən məntəqədə Respublika QİÇS-lə Mübarizə Mərkəzinin həkim briqadası tərəfindən müraciət edən tələbələrdən anonim test nümunələri götürülüb.



# BDU tələbələri üçün "Genderin cəmiyyətdəki rolu" mövzusunda təlim

***Dekabrın 15-də Bakı Dövlət Universitetinin Psixoloji yardım sektoru tələbələr üçün "Genderin cəmiyyətdəki rolu" mövzusunda təlim keçirib.***

Təlimdə əvvəlcə gender anlayışı haqqında məlumat verilib. Kişi və qadın obrazları arasında stereotip fərqləri nəzərdən keçirilib, bu stereotiplərin uşaqlıq dövründə aşılandığı və həyatın sonrakı dönəmlərinə təsir etdiyi diqqətə çatdırılıb. Kişi və qadın obrazlarının tədqiqatlar nəticəsində müəyyənləşdirilən tipik əlamətləri vurğulanıb.

Təlim iştirakçılarına gender stereotiplərinin mənfi təsirləri haqqında da məlumat verilib, bunun qadın və kişilərin həyatı keyfiyyətlərini azaltdığı bildirilib. Qadın və kişilərin cəmiyyətdəki sosial rollarının təhlilinə dair müzakirələr aparılıb.

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub



***Dekabrın 30-da BDU-da 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlını birləşdirən tarixi gündür. Bu günün əhəmiyyəti ildən-ilə daha da artaraq, bütün dünya azərbaycanlıları tərəfindən mənəvi ehtiyaca çevrilib: "1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bundan sonra bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikası Ali Sovetində qərar qəbul olundu. 1992-ci ildən etibarən isə bütün ölkəmizdə bu bayram dövlət səviyyəsində qeyd olunmağa başladı".

E. Babayev vurğulayıb ki, Ulu öndərin bütün arzuları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilib: "Ümummilli liderin bütün dünya azərbaycanlılarını Vətən uğrunda birləşdirmək ideyası reallaşıb. Dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlılar Vətən naminə həmrəy olublar. Xalqın öz rəhbəri ətrafında yumruq kimi necə birləşməsini Vətən müharibəsi də sübut etdi. 44 günlük Vətən müharibəsi Azərbaycanda formalaşmış milli həmrəyliyin təcəssümüdür. Bu birlik bizi şanlı Zəfərə apardı, həmrəyliyimiz daha neçə zəfərlərə vəsilə olacaq".

Milli Məclisin üzvü Aqil Abbas da çıxışında dövlətin, xalqın bütün uğurlarının kökündə milli həmrəyliyin dayandığını bildirib. Vətən müharibəsində qazanılan Zəfər də Azərbaycan xalqının həmrəy ola bilmək bacarığının isbatıdır.

Milli Məclisin üzvü, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli isə Azərbaycan xalqının və dövlətinin qarşısında dayanan növbəti hədəflərdən danışıb: "Azərbaycan Respublikasının Prezidenti Qərbi Azərbaycan icmasının üzvləri ilə görüşündə artıq dövlətimizin tarixi torpaqlarla bağlı strategiyasını elan etdi. Tarixi torpaqlarımız uğrunda mübarizə artıq başlayıb. Bu mübarizə məhz həmrəyliyimizdən keçir. Bütün təhsil ocaqlarında tarixi torpaqlarımızla bağlı həqiqətlər öyrənilməli, dərsliklər yazılmalıdır".

Tədbirdə BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin beynəlxalq olimpiadalarda uğur qazanan şagirdləri çıxış edərək, təbriklərini çatdırıblar.

Daha sonra BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri Mehman Abdullayev, Kitabxanaçılıq-informasiya fakültəsinin magistrantı Lamiyə Əliyeva çıxışlarında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixi əhəmiyyətindən söz açıb, bu ənənənin dünya azərbaycanlılarının milli kimliyinin inkişafındakı önəmindən bəhs ediblər.

# BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə konsert proqramı

***Dekabrın 30-da BDU-da Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə konsert proqramı təqdim olunub.***

Konsert proqramında "Qaytağı", "İgidlər" rəqsləri, "Popuri", "Yeni iliniz mübarək olsun", "Tələsin, insanlar", "Əzizlərim", "Yeni il" mahnıları ifa olunub. Jak Offenbaxın "Kan-kan" əsəri, Zəlimxan Yaqubun "Azərbaycan oxusun" şeiri səsləndirilib.

Azərbaycan Respublikasının əməkdar artisti Elnarə Abdullayevanın konsertdə iştirakı tədbirə xüsusi rəng qatıb. Sevilən sənətçi "Kim sevməsə öz yurdunu" və "Dilbər" mahnılarını ifa edib.

Proqram Mədəniyyət-Yaradıcılıq Mərkəzinin əməkdaşları və BDU tələbələrinin ifaları ilə davam edib.





# "BDU könüllüləri"nin "Lin-Orph" musiqi qrupunun konsert proqramı

***Dekabrın 30-da "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi qrupunun təşkilatçılığı ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilə həsr olunmuş konsert proqramı təşkil olunub.***

Proqramda könüllülərin ifasında "Mashup", "Last Christmas", "Snowman", "Mehriban ailəyik" kimi musiqi nömrələri səsləndirilib.

"BDU könüllüləri" təşkilatı 2019-cu ildə yaranıb. Təşkilat ölkəmizdə uğurla həyata keçirilən könüllülük hərəkatının Universitetdə təşviq olunması istiqamətində müxtəlif tədbir və layihələr reallaşdırır. Ətrafında 1000-dən çox tələbəni birləşdirən təşkilat Universitetin ictimai-sosial həyatında fəal rol oynayır.





**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.12 .2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08